Xalqın qəzeti!

# Xalq qəzeti

№ 28 (30997) 13 fevral 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanın dövlət qurumları "mygov" vahid rəqəmsal platformasına keçir



Son illər ərzində müxtəlif dövlət qurumları – nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün, hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim ediləndə təklif edərsiniz. Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir – yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir – həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## "Əsrin müqaviləsi"nin baş quruculuq meydanı

*Ötən il gerçəkləşdirilən layihələrə 1 milyard 852 milyon dollar xərclənib*



**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş – "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən tədbirlər, mühüm infrastruktur layihələrinin reallaşdırılması ölkəmizin davamlı sosial-iqtisadi inkişafı üçün möhkəm təməl, etibarlı bazadır. Təkcə onu qeyd etmək kifayətdir ki, bu tarixi saziş özünün zəngin karbohidrogen ehtiyatlarından düzgün, səmərəli şəkildə istifadə edən Azərbaycan Respublikasını regionun ən sabit və dinamik inkişaf edən ölkəsinə çevirib.**

*(ardı 7-ci səhifədə)*

## Azərbaycanın rəqəmsal gələcəyinin iqtisadi modeli




Səhifə ⇨ 7

## Dünya Şəhərsalma Forumu və Azərbaycanın hədəfləri




Səhifə ⇨ 8

## Mədəni irs babaların könül əmanətidir



Səhifə ⇨ 10



## Demokratiyaya tank dəstəyi?

*Yaxud Qərbin Gürcüstana qərəzli yanaşmasına sözardı*

**"Bəzi Avropa liderləri "demokratiyanın bərqərar edilməsi" üçün Gürcüstana tank göndərməyə hazırdırlar". Bunu Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bildirib. Cənab Papuaşvilinin fikirləri adi qarşılana bilməz. Çünki, həqiqətən, Qərbin bir sıra dairələrinin Gürcüstana son illərdəki münasibətində nə əndazə var, nə də nizam və ölçü. Həmin dairələri təmsil edən şəxslərin hər birinin dilindən qərəz tökülür. Elə bir qərəz ki, bir növ, pataloji xəstəlik kimidir və Azərbaycan da zaman-zaman oxşar xəstəliyin müxtəlif təzahürləri ilə üzləşib. Yəni mövzuya həm də buna görə diqqət yetiririk.**

***(ardı 5-ci səhifədə)***

## "Strateji sıçrayış"



Səhifə ⇨ 4

## Bakının Əbu-Dabi qardaşı



Səhifə ⇨ 4

## Avropa siyasətində "gizli güc"



Səhifə ⇨ 4

## Paşinyanın "İcevan marşrutu"




Səhifə ⇨ 6

## İrəvanın Kreml ilə "dəmir" oyunu



Səhifə ⇨ 6

## Ayvazyanın "strateji üçbucaq" xülyası



Səhifə ⇨ 5

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Qarayev Natiq Sahib oğlu – general-mayor
Cəfərov Elməddin Qulu oğlu – polkovnik
Quliyev İslam Ramiz oğlu – polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Hidayev Əziz Şahmurad oğlu – polkovnik
Abbasov Hikmət Zahid oğlu – mayor
Əliyeva Samirə Təşkilat qızı – mayor

**"Tərəqqi" medalı ilə**

Sədrətdinov Pərviz Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2026-cı il**

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti işçilərinin təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Vergi sisteminin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı işçiləri təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Əliyev Nazim Kazım oğlu

**1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Abbasov Etibar Akif oğlu
Bədəlova Zöhrə Əliriza qızı
Gözəlov Zülfi Məmməd oğlu
Həziyeva Gülçöhrə Hacıqulu qızı
Hüseynov Alı Hüseynqulu oğlu
İsgəndərov Nəsib Əli oğlu
Məmmədov Şahin Yusif oğlu
Rzayev Zamin Vahid oğlu
Səfərova Rəsmiyyə Suca qızı

**3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Qasımlı Nuranə Nurəddin qızı
Qənbərov Zahid Paşa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2026-cı il**

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı əməkdaşlarına ali xüsusi rütbələr verilsin:

**"2-ci dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi**

Orxan Faiq oğlu Nəzərli – Dövlət Vergi Xidmətinin rəisi

**"3-cü dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi**

Nicat Şükür oğlu İmanov – Vergi siyasəti baş idarəsinin rəisi
Abbas Cəlil oğlu İsmayılov – Vergi auditi baş idarəsinin rəisi
Səməd Ədil oğlu Vəliyev – 2 saylı Ərazi Vergilər Baş İdarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2026-cı il**

## "Azərxalça"nın Şuşa məscidinə sənət töhfəsi

**Heydər Əliyev Fondu, "PASHA Holding" və "PMD Projects"in təşkilatçılığı ilə "Azərxalça" ASC-nin yaradıcı heyəti və toxucu ustalarının birgə zəhməti nəticəsində ümumdünya xalçaçılıq tarixində analoqu olmayan, diametri 22,17 metr olan dairəvi əl xalçasının toxunma prosesi artıq tamamlanıb. Bu barədə "Azərxalça" ASC-dən məlumat verilib.**



Bildirilib ki, Şuşa məscidi üçün iki ayrı dairəvi xalça hazırlanıb: məscidin birinci mərtəbəsi üçün nəzərdə tutulan xalça İsmayıllı emalatxanasında toxunaraq başa çatdırılıb, ikinci mərtəbə üçün hazırlanan xalça isə "Azərxalça" ASC-nin Şabran emalatxanasında toxunub.

Şuşa məscidi üçün hazırlanmış dairəvi xalçanın kəsilməsi prosesində Leyla Əliyeva iştirak edib. Daha əvvəl Leyla Əliyeva İsmayıllı emalatxanasına baş çəkərək xalça ilə yaxından tanış olub, toxucularla vaxt keçirib və tarixi əsərə çevriləcək xalçaya ilmə atıb. Xalçanın son ilmələri məhz Leyla Əliyeva tərəfindən vurulub.



Xatırladaq ki, "Qarabağ" qrupuna aid olan və "Xətai" xalçasının elementlərini özündə birləşdirən bu nadir əsərin əsas toxunma prosesi İsmayıllı emalatxanasında həyata keçirilib. Toxunma prosesində 150 toxucu, təxminən, 60 milyon ilmə vurub. Möhtəşəm əsərin toxunmasına 2024-cü il dekabrın 16-da başlanılıb.

Xalçanın tam şəkildə toxunması üçün xüsusi olaraq yeni və fərqli üslubda dəzgah sifariş edilib. İki mərtəbədən ibarət bu dəzgah xaricdən dəvət olunmuş mütəxəssislər qrupu tərəfindən məhz "Azərxalça" ASC üçün hazırlanıb.

***XQ***





## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

"Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə Sizə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf və məmnunluq duyuram.

Mərhum Şeyx Zayedin adını daşıyan bu xüsusi mükafat həyatını tolerantlıq və dinc yanaşı yaşamaq dəyərlərinə həsr etmiş bir liderə layiqli ehtiramdır. Bu şərəfə layiq görülməyiniz cəsarətli liderliyinizin və Cənubi Qafqaz üçün yeni bir sülh fəsli yaratmaq məramına sarsılmaz sadiqliyinizin bariz sübutudur.

Biz Azərbaycan və Ermənistan arasında tarixi sülh təşəbbüsünü böyük ümidlə izlədik. Zati-alinizin də qeyd etdiyi kimi, 2025-ci il avqustun 8-də Vaşinqtonda Birgə Bəyannamənin imzalanmasından sonrakı aylarda hər iki ölkə cəmiyyətinin ikitərəfli ticarət və tranzit sahəsində ümidverici addımlar da daxil olmaqla, sülhün real faydalar gətirməsinin şahidi olduğunu görmək çox ruhlandırıcıdır. Dialoqdan əməkdaşlığa doğru bu əhəmiyyətli irəliləyiş həqiqətən təqdirəlayiqdir.

ICESCO yekun və hərtərəfli Sülh Sazişinə doğru bu həyati əhəmiyyətli irəliləyişi qətiyyətlə dəstəkləyir. Əminik ki, bu gün qoyulan təməllər regionun gələcək nəsilləri üçün davamlı sabitliyi, təhlükəsizliyi və rifahı təmin edəcəkdir. Təşkilatımız qarşılıqlı anlaşma və həmrəylik körpüləri qurmağı hədəfləyən təhsil, elm və mədəniyyət proqramları vasitəsilə bu səyləri dəstəkləməyə hazırdır.

Azərbaycan xalqı üçün daha firavan və dinc gələcək qurmağa sadiqliyiniz hər dəfə məndə dərin təəssürat yaradır. Bu mükafat Sizin siyasətinizin hazırda regionda harmoniyaya yol açdığını bir daha təsdiqləyir.

Zati-aliləri, bu beynəlxalq mükafata layiq görülməyiniz münasibətilə bir daha səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm. Azərbaycan Respublikasını sarsılmaz sülh və qardaşlıqla müəyyən edilmiş gələcəyə doğru istiqamətləndirmək yolunda Sizə davamlı uğurlar arzulayırıq.

İcazə verin, bu fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək ehtiramımı bildirim.

**Hörmətlə,**

***Səlim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

"Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə Sizə dərin hörmət və ehtiramla ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam. Bu nüfuzlu mükafat Sizin müdrik rəhbərliyinizin və qarşıdurma əvəzinə sülh yolunu seçmək qətiyyətinizin bariz göstəricisidir. Tez-tez ciddi gərginliklərlə səciyyələnən bir dövrdə keçmişdə yaşanmışları deyil, gələcəklə bağlı məsələləri ön plana çəkərək bu istiqamətdə göstərdiyiniz səylər mühüm mənəvi və siyasi əhəmiyyət daşıyır.

2013-cü ildə İsveçrə Konfederasiyasının Kantonlar Şurasının sədri qismində rəsmi səfərim zamanı Bakıda Sizinlə keçirdiyimiz görüşü böyük məmnuniyyətlə və maraqla xatırlayıram. Həmin görüşdə apardığımız dərin məzmunlu fikir mübadiləsi mənim üçün əhəmiyyətli bir xatirə olaraq qalır. O vaxt müzakirə etdiyimiz dialoq prinsiplərini bu gün də Sizin regional və beynəlxalq fəaliyyətinizdə istiqamət olaraq görmək sevindiricidir.

Azərbaycan ilə Ermənistan arasında Sülh Sazişi ilə bağlı əldə olunan tarixi irəliləyiş göstərir ki, əsl güc diplomatiya və barışıqda təcəssüm olunur. Sizin bu istiqamətdə nümayiş etdirdiyiniz qətiyyət beynəlxalq ictimaiyyətə daha sabit və proqnozlaşdırılabilən gələcəyin mümkün olduğuna ümid verir.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edir, Azərbaycan Respublikasına davamlı rifah arzularımı bildirirəm.

**Hörmətlə,**

***Filippo LOMBARDİ,***
***İsveçrə Konfederasiyası Federal Parlamenti Kantonlar Şurasının (Senatının) sabiq sədri***

## Baş prokuror paytaxtın Suraxanı rayonunda vətəndaşları qəbul edib



**Fevralın 12-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Bakı şəhəri Suraxanı rayon prokurorluğunun inzibati binasında Suraxanı rayonundan olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 45 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

## Avropa İttifaqının səfiri Naxçıvanda



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri Mariyana Kuyundziçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, Avropa İttifaqına üzv dövlətlərin Azərbaycanla uzunmüddətli və faydalı əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır.

Görüşdə Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyi çərçivəsində əldə olunan razılaşmalardan məmnunluq ifadə olunub. Naxçıvan Muxtar Respublikasının Orta Dəhliz üzrə kommunikasiyaların qurulmasında mühüm strateji bölgə kimi önəminə diqqət yetirilib. Naxçıvanın iqtisadi potensialı, xüsusən bərpaolunan enerji imkanları, sahibkarlara tətbiq edilən 10 illik vergi güzəştlərinin əhəmiyyəti və regionun gələcəkdə azad iqtisadi zonaya çevriləcəyi istiqamətində həyata keçirilən tədbirlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfir Mariyana Kuyundziç ilk biznes səfərinə Naxçıvan Muxtar Respublikasından başlamasının əhəmiyyətini vurğulayıb. Qarşıdakı illərdə Avropa İttifaqı tərəfindən həyata keçiriləcək layihələrin iqtisadi aspektləri müzakirə edilib.

Görüşdə "Merlər Razılaşması-Şərq" layihəsinin təqdimat konfransının əhəmiyyətinə də toxunulu

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Xəyanətin anatomiyası

## *Platon, Şekspir və Hüqo nəyə təəccüblənərdi?*

**Platon deyirdi ki, dövlətin ən böyük bəlası ona düşmən olanlardan çox, ona dost görünüb zərbə vuranlardır. Onun xəyanətə baxışı belə idi. Lev Tolstoy isə xəyanətin yalnız bir hərəkət deyil, xarakterin güzgüsü olduğunu vurğulayırdı. Uilyam Şekspir "xəyanət edən, əvvəlcə öz şərəfini öldürür" deyirdi. Hesab edirik ki, bu mənada ən dramatik fikir Viktor Hüqoya məxsusdur. Onun fikrincə, Vətənə xəyanət, insanın öz vicdanına vurduğu ən ağır zərbədir.**

Bəli, dövlət çevrilişinə cəhd yuxarıda vurğuladığımız və eyni zamanda, haqqında söz açmağımız bütün məqamların, yumşaq desək, çox pis təzahürüdür. Təsəvvür edin, uzun müddət hakimiyyət eşelonunda çox idarəçiliyi sisteminin yenidən formalaşdırılması ilə bağlı plan hazırlayıb. Nə qədər də böyük miskinlikdir. Onun Azərbaycandakı şəbəkənin fəaliyyətini xarici ölkə ilə əlaqələndirməsi və ona rəhbərliyi reallaş-



yüksək vəzifə tutmuş Ramiz Mehdiyev bu təzahürün, belə demək mümkünsə, iyrənc nümunəsidir. Əslində, təsəvvürə gətirilməsi mümkünsüz haldır. Təbii ki, bu durum Ramiz Ənvər oğlunun şəxsi faciəsidir. Amma…

Neçə il dövlətdə yüksək vəzifə tutasan, ideyalar formalaşdırmış kimi məqalələr, yazılar yazasan, axırda məlum ola ki, hansısa başqa dövlətə sığınırmısan, konkret desək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini Rusiyanın himayəsi altında görürmüşsən. Bundan rəzil durumu təsəvvürə gətirmək, sadəcə, mümkün deyil. O cümlədən, uzun illər Azərvaycanın baş nazirinin müavini olmuş Abbas Abbasovu götürək. Görəsən, onun nəyi çatmırdı? Yəni, xəyanətin bədii ədəbiyyatlarda təsəvvürünü tapan motivi bu qədərmi dərindir? Deməyə söz tapmırıq.

Deməli, adlarını çəkdiyimiz bu şəxslər xəyanətlərini ölkəmizdə müxalifət adına qara yara olan Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli ilə birlikdə reallaşdırıblar. Daha doğrusu, reallaşdırmaq istəyiblər. Hər halda, Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumat bunu deməyə əsas verir. Xəyanət isə dövlət çevrilişinə cəhddir.

…Ramiz Mehdiyev xaricdə kiməsə zəng edir və deyir ki, Azərbaycanda dövlət dırması da həmçinin. Deyəsən, yenə Şimal küləkləri əsdi axı…

Bəli, Ramiz Mehdiyevin rəhbərlik etdiyi və Azərbaycanın dövlət müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə qənim kəsilmiş bu şəbəkə ardıcıl olaraq ölkəmizdə gərgin vəziyyət yaratmaq, ictimai sabitliyi pozmaq, dövlət maraqlarına qarşı planlar qurmaq və gerçəkləşdirmək istiqamətində fəaliyyət göstərib. Bu şəbəkə, həmçinin, respublikamızın nüfuzuna xələl gətirmək üçün bütün mümkün vasitələrdən istifadə etməkdən də çəkinməyib. Həqiqətən, son dərəcə acınacaqlı durumdur. Amma daha acınacaqlı durum var.

Məlumdur ki, 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının ruhundan qaynaqlanmış müqəddəs haqq savaşı idi. Savaş müddətində xalqımızın möhtəşəm vəhdətini gördük. Elə bir vəhdət ki, qarşısında heç bir qüvvə dayana bilmədi və nəticədə müqəddəs Zəfərimizə qovuşduq, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın azadlığa qovuşmasına nail olduq.

Amma sözügedən şəbəkə Vətən müharibəsi ərəfəsində ictimai rəydə Azərbaycanın sarsıdıcı zərbə alacağı və uduzacağı rəyini formalaşdırmağa çalışıb. Heç şübhəsiz, bu düşüncə də Rusiyanın buyruq quluna çevrilmiş R.Mehdiyevdən gəlib. Axı müharibə dövründə və ondan əvvəl radikal müxalifət nümayəndələrinin xalqa ünvanladıqları fikirlərə nəzərən də ölkəmizin siyasi və hərbi qüdrətini zədələməyə yönəlmiş çağırışların ön planda dayandığını görmək mümkündür.

Bəli, o dönəmdə müxalif düşərgə tərəfindən ictimai rəyə Azərbaycanın Ermənistanla müharibə aparacağı təqdirdə heç bir şeyə nail olmayacağına dair ideyalar yeridilirdi. Belə ideyalar xaricdən eşidilən və Azərbaycanın, guya, işğalçı müharibə apardığını iddia edən baxışlarla çulğalaşırdı. Yəqin, bu sifarişin üzərindən də Şimal küləyinin əsdiyinin fərqinə vardınız.

Qeyd edək ki, 44 günlük müharibədən əvvəl Rusiyadakı bəzi dairələr Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı, bir növ, bıçağın sümüyə dirəndiyinin fərqinə varmışdılar. Amma onlar nəyin bahasına olursa-olsun Ermənistanı müdafiə etmək, işğalla xarakterizə olunan status-kvonu saxlamaqda maraqlı idilər. Ona görə də Azərbaycan cəmiyyətinin haqq işini gerçəkləşdirmək istiqamətindəki əzmini qırmağa çalışırdılar. Yəqin, müxalifətin 44 günlük müharibənin ilk günlərində və ondan əvvəlki zaman kəsiyində aşıladığı ruh düşkünlüyündəki motivlərin fərqinə vardınız. Ramiz Ənvəroviçin məhz bu şəbəkə ilə əlbirliyi Platonun, Şekspirin, Hüqonun və digər dühaların təfəkküründən süzülən xəyanət anlayışının təsvirindən qat-qat ağırdır.

R.Mehdiyev radikal müxalifəti daim aktiv fəaliyyətə sövq edib və ölkəni daxili gərgin vəziyyətdə saxlamağa çalışıb. Bu istiqamətdə onun xaricdəki söyüş müxalifətini təlimatlandırması və idarə etməsi də xəyanətin bədii ədəbiyyatlarda yer almayan motivlərini ortaya qoyur. Amma Ramiz Mehdiyevin, Əli Kərimlinin, Abbas Abbasovun və şəbəkənin digər üzvlərinin xəyanətkar siması, onların dövlətimizə və xalqımıza, müstəqilliyimizə və konstitusiya quruluşumuza qarşı ardıcıl düşmən fəaliyyətləri ifşa olunur. DTX-nın ortaya qoyduğu və cəmiyyətə açıqladığı məqamlar bunu bir daha göstərməkdədir. Bu məqamlar, eyni zamanda, onu göstərir ki, Azərbaycan dövləti xarici arenalarda olduğu kimi, daxili müstəvidə də möhkəmdir. Xaricdəki qüvvələrin əli ilə gerçəkləşdirilməsinə çalışılan primitiv gedişlər ölkəmizin qürurunu və əzmini, müstəqil siyasi xəttini heç bir halda zədələyə, respublikamızı Prezident İlham Əliyevin rəhbərliyi ilə tutduğu yoldan döndərə bilməz. Xarakterindəki çatlarla şərəfini öldürənlər, vicdanına ağır zərbələr vuranlar haqqa doğru addımlarımızın qarşısını kəsə bilməzlər. Çünki dövlətimizin yolu və addımları xalqımızın iradəsindən və əzmindən nəşət alır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bakıda Küveytin Milli Günü qeyd olunub



**Bakıda Küveyt Dövlətinin 65-ci Milli Günü və 35-ci Qurtuluş Günü münasibətilə rəsmi qəbul təşkil olunub.**

Küveytin Azərbaycandakı səfiri Məhəmməd Feysal əl-Mutairi iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə mövcud olan yüksəksəviyyəli əlaqələrdən məmnunluğunu ifadə edib. O bildirib ki, Küveyt və Azərbaycan beynəlxalq arenada, o cümlədən BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində sıx əməkdaşlıq və koordinasiya həyata keçirir, qarşılıqlı namizədlikləri dəstəkləyir.



Diplomat ötən il ərzində əlaqələrin inkişafına töhfə verən mühüm hadisələrə də toxunaraq Küveytdə keçirilmiş Azərbaycan–Küveyt Əməkdaşlıq üzrə Birgə Komissiyanın üçüncü iclasını xüsusi qeyd edib. Onun sözlərinə görə, iclas çərçivəsində birgə bəyannamə və 2025–2027-ci illəri əhatə edən yol xəritəsi qəbul olunub, kənd təsərrüfatı, idman, mədəniyyət və turizm sahələrində əməkdaşlıq sənədləri imzalanıb. Səfir qarşılıqlı rəsmi səfərlərin və iqtisadi əməkdaşlığın genişlənməsinin əhəmiyyətini vurğulayıb, həmçinin Küveytin Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında fəal iştirak edəcəyini bildirib.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov isə çıxışında Küveyt Dövlətinin 65-ci Milli Günü və 35-ci Qurtuluş Günü münasibətilə Azərbaycan hökuməti adından təbriklərini çatdırıb, dost və qardaş Küveyt xalqına sülh, rifah və davamlı inkişaf arzulayıb.

Tədbir bədii hissə ilə davam edib.

***XQ***

# DTX dövlət hakimiyyəti əleyhinə cinayət əməlləri törətmiş şəxslərlə bağlı məlumat yaydı

**Xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranıb.**



Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidməti məlumat yayıb.

Cinayət işi üzrə təqsirləndirilən şəxslərə elan edilmiş ittihama əsasən, xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə yaradılaraq 4 iyul 2012-ci ildə xarici ölkədə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı" adı altında qeydiyyatdan keçirilmiş və "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşiblər.

Belə ki, onlar 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində xarici ölkə vətəndaşı Rüstəm İbrahimbəyovun namizədliyini irəli sürən "Demokratik Qüvvələrin Milli Şurası" (Milli Şura) adlı təşkilat yaratdıqdan sonra xarici xüsusi xidmət orqanlarının maddi yardımı və digər formalarda təşkilati dəstəyi ilə dövlət hakimiyyətinin zorla ələ keçirilməsi üçün kütləvi iğtişaşların törədilməsi, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olunmaması, ictimai qaydanın, nəqliyyat, müəssisə, idarə və təşkilatların işinin pozulması istiqamətində fəaliyyət göstərib, həmçinin bu məqsədlə respublikanın müxtəlif rayonlarından insanların cəlb edilməsi üçün AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul etdikləri 933.828,40 manat məbləğində pul vəsaitini, o cümlədən Ramiz Mehdiyevdən və Abbas Abbasovdan əldə edilən maddi vəsaitləri qeyd olunan əməllərin törədilməsinə yönəldiblər.

Cinayət işinin materiallarına əlavə edilmiş texniki sübutlara əsasən, "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici ölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə Prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumlarını və yaxınlarını cəlb edərək, xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilib.

Məlum olub ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, "Milli Şura"nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda "şura"nın fəaliyyətinin dəstəklənməsi xahiş edilib, həmin ölkədə aparılan "islahatlar"ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilib.

Qeyd olunan ittihama əsasən, Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparıb, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilməsi üçün müraciət edib, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyini konkret detallar sadalamaqla vəd edib, eləcə də tərəflər Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşıblar.

Eyni zamanda, ittihama əsasən, Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib.

Bundan başqa, Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən "Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər" başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 2025-ci il sentyabrın 27-də Əli Kərimliyə təqdim edib, 2025-ci il oktyabrın 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu "Şərq-Qərb" ASC-nin əməkdaşları vasitəsilə göndərib, qeyd olunan göndəriş texniki olaraq fiksə edilib.

Bu əməlləri ilə Ramiz Mehdiyev dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyi ilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər edib, xarici dövlətin nümayəndələrinə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət edib.

Bundan əlavə, Ramiz Mehdiyev 13 oktyabr 2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17.000.000 manatdan artıq pul vəsaitini leqallaşdırıb.

Sadalanan cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə araşdırmalar davam etdirilir.

# Bakının Əbu-Dabi qardaşı

## *Şərq və Qərbin kəsişməsində vahid cəbhə*

**Azərbaycanın paytaxtı Bakı ilə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması haqqında anlaşma memorandumunun imzalanması əməkdaşlığın genişləndirilməsi və strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu proses Bakı–Əbu–Dabi oxunun Avrasiya geosiyasətindəki çəkisini artıran, iqtisadi diversifikasiyanı sürətləndirən və enerji keçidi dövründə "yaşıl enerji" körpüsünü möhkəmləndirən strateji gedişdir.**



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabinin Bələdiyyələr və Nəqliyyat Departamentinin sədri Məhəmməd Əli Əl-Şorafanın rəhbərlik etdiyi yüksəksəviyyəli nümayəndə heyətinin Bakıya səfəri çərçivəsində rəsmiləşdirilən sənəd Cənubi Qafqazın lider dövləti ilə Körfəz regionunun aparıcı iqtisadi gücü arasındakı strateji tərəfdaşlığın institusional səviyyədə, yeni bələdiyyə və şəhər idarəçiliyi müstəvisində dərinləşdiyini nümayiş etdirir. Fevralın 2-də Azərbaycan Prezidenti İlham Əliyev və BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında baş tutmuş müzakirələr və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla keçirilən görüşdə səsləndirilən fikirlər, prosesin köklərinin dövlət başçılarının siyasi iradəsinə dayandığını sübut edir.

Bakı və Əbu-Dabi şəhərləri müvafiq olaraq Xəzər hövzəsi və Fars körfəzinin qərarvermə mərkəzləridir. Həmin mərkəzlərin "qardaşlaşması" anlayışı simvolik məna yükündən daha çox praqmatik iqtisadi və texnoloji inteqrasiya hədəflərini ehtiva edir. Eldar Əzizovun qonaqlara təqdim etdiyi, ərəb dilinə tərcümə olunmuş "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabı da Azərbaycanın regionda yaratdığı yeni reallıqların ərəb dünyasında da qəbul edilməsi, 44 günlük müharibənin nəticələrinin və liderlik faktorunun dost ölkələrdə təbliği baxımından müstəsna əhəmiyyət daşıyır. Məhəmməd Əli Əl-Şorafanın Bakıdakı inkişaf tempini, şəhər idarəçiliyinin effektivliyini yüksək qiymətləndirməsi və "iki paytaxtın bir-birindən öyrənəcəyi çox şey var" deməsi gələcək əməkdaşlığın qarşılıqlı təcrübə mübadiləsinə əsaslanan bərabərhüquqlu tərəfdaşlıq olacağından xəbər verir.

Ən maraqlı məqam imzalanmış sənədin hansı praktiki nəticələr doğuracağı və prosesdən sonra nələrin baş verəcəyidir. İlk növbədə, şəhər idarəçiliyi sahəsində rəqəmsal transformasiya təcrübəsinin mübadiləsi gözlənilir. Məlumdur ki, Əbu-Dabi "Smart City" konsepsiyalarının tətbiqində qlobal liderlərdən sayılır və Bakı şəhərinin Baş Planının icrası prosesində süni intellektə əsaslanan nəqliyyat idarəetmə sistemlərinin, kommunal xidmətlərin avtomatlaşdırılmasının və ekoloji monitorinq şəbəkələrinin qurulmasında həmin texnologiyalardan istifadə edilməsi ehtimalı olduqca yüksəkdir. Memorandum, həmçinin, şəhər nəqliyyatı infrastrukturunun optimallaşdırılması istiqamətində birgə layihələrə zəmin yaradacaq. Xüsusilə, Bakıdakı tıxac probleminin həllində Əbu-Dabinin çoxzolaqlı yollar və intellektual işıqfor sistemləri ilə bağlı təcrübəsi tətbiq edilə bilər. Digər tərəfdən, Bakı özünün tarixi memarlıq irsinin qorunması, şəhərsalma estetikası və yaşıllıq zonalarının salınması sahəsindəki unikal təcrübəsini Əbu-Dabi ilə bölüşərək səhralıq iqlimində urbanizasiya problemlərinin həllinə töhfə verə bilər.

Lakin məsələnin strateji tərəfi enerji keçidi və "yaşıl enerji" dəhlizləridir. Azərbaycan və BƏƏ ənənəvi neft-qaz ixracatçısı olsalar da, bərpaolunan enerji mənbələrinə keçid prosesində qlobal liderlər sırasındadırlar. BƏƏ-nin "Masdar" şirkətinin Azərbaycanda həyata keçirdiyi nəhəng günəş və külək enerjisi layihələri Bakı və Əbu-Dabi arasındakı əlaqələrin əsas sütununu təşkil edir. İmzalanan memorandum şəhər səviyyəsində enerji səmərəliliyi, binaların istilik izolyasiyası və ictimai nəqliyyatın elektrikləşdirilməsi kimi "yaşıl təşəbbüs"lərin sinxronlaşdırılmasına imkan verəcək. Bakı və Əbu-Dabi neft erasından sonrakı dövrə hazırlıq mərhələsində olan meqapolislər kimi, davamlı inkişaf modellərini birlikdə formalaşdırmaq niyyətindədir.

Digər məqam Orta Dəhliz layihəsidir. Əbu-Dabi limanlarının logistik imkanları ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (Ələt) potensialının əlaqələndirilməsi Şərq-Qərb ticarət dövriyyəsində hər iki şəhərin hab rolunu gücləndirəcək. Bələdiyyələr və Nəqliyyat Departamentinin sədrinin Bakıya səfəri zamanı nəqliyyat sektoruna vurğu edilməsi gələcəkdə Əbu-Dabi logistika şirkətlərinin Azərbaycandakı azad iqtisadi zonalarda, xüsusilə Ələt Azad İqtisadi Zonasında təmsilçiliklərinin artacağının və yükdaşımaların idarə edilməsində rəqəmsal həllərin birgə tətbiqini vəd edir. Bu, Çindən Avropaya uzanan ticarət yolunda Bakının strateji əhəmiyyətini artırmaqla yanaşı, Əbu-Dabinin də Avrasiya bazarlarına çıxışını asanlaşdıracaq.

Sənədin siyasi çəkisi həm də ondan ibarətdir ki, Azərbaycanın xarici siyasətində Körfəz ölkələri ilə əlaqələrin dərinləşməsi prioritetdir. Prezident İlham Əliyevin çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursunda BƏƏ ilə tərəfdaşlıq Qərb və Şərq arasında körpü rolunu oynayan Azərbaycanın diplomatik manevr imkanlarını genişləndirir. Eyni zamanda, BƏƏ üçün də Cənubi Qafqazın lideri ilə yaxınlaşmaq regionda artan rəqabət mühitində mövqelərini möhkəmlətmək baxımından həyati əhəmiyyət kəsb edir. Qardaşlaşma memorandumu arxasında milyardlarla dollarlıq investisiya portfeli, siyasi həmrəylik və ortaq strateji vizyon dayanan ciddi yol xəritəsidir.

İmzalanan sənəd aşağıdakı hadisələrin baş verməsini şərtləndirəcək. Birincisi, yaxın aylarda Bakı ilə Əbu-Dabi arasında mütəmadi fəaliyyət göstərən Birgə İşçi Qrupunun yaradılması və konkret fəaliyyət planının təsdiqlənməsi gözlənilir. İkincisi, təhsil sahəsində əməkdaşlığın genişlənməsi, Bakıdakı ali məktəblərlə Əbu-Dabi universitetləri arasında tələbə və müəllim mübadiləsi proqramlarının işə düşməsi real görünür. Üçüncüsü, mədəni diplomatiya çərçivəsində Bakıda "Əbu-Dabi günləri"nin və əksinə, Əbu-Dabidə "Bakı günləri"nin keçirilməsi xalqlararası ünsiyyəti dövlətlərarası münasibətlərin səviyyəsinə qaldıracaq.

Mövcud razılaşmanın regional təhlükəsizlik arxitekturasına təsiri də gözardı edilməməlidir. Azərbaycan və BƏƏ-nin yaxınlaşması regionda sabitlik və inkişaf tərəfdarı olan qüvvələrin mövqeyini gücləndirir. Ermənistanla sülh prosesinin müzakirə edildiyi bir dönəmdə Azərbaycanın qlobal ölkələrlə, o cümlədən ərəb dünyasının ən nüfuzlu dövlətlərindən biri ilə əlaqələrini şaxələndirməsi, rəsmi Bakının diplomatik masadakı əlini gücləndirən amillərdən biridir.

Fevralın 11-də imzalanan Anlaşma Memorandumu Bakı ilə Əbu-Dabi arasındakı məsafəni simvolik olaraq qısaldan, siyasi-iqtisadi bağları möhkəmləndirən və gələcəyə hesablanmış strateji addımdır. Sənəd neft kapitalının insan kapitalına və texnoloji inkişafa çevrilməsi prosesində hər iki tərəfin bir-birinə dəstək olmaq əzmini nümayiş etdirir. Qarşıdakı illərdə Bakı və Əbu-Dabinin birgə təşəbbüsləri Cənubi Qafqaz və Körfəz regionlarının inteqrasiyasında yeni səhifələr açacaq, "yaşıl enerji"dən tutmuş rəqəmsal iqtisadiyyata qədər geniş spektri əhatə edən layihələrin reallaşmasına təkan verəcək. Həmçinin BƏƏ şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə daha fəal cəlb olunması üçün mənəvi və hüquqi zəmin rolunu oynayacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# "Strateji sıçrayış"

## *Son 5 ildə Azərbaycanın regionda və beynəlxalq arenada qazandığı uğurları bu ifadə dəqiq əks etdirir*



**Post-müharibə mərhələsi Azərbaycan üçün status-kvonun beynəlxalq sistem tərəfindən qəbul etdirilməsi prosesidir. Hərbi qələbənin siyasi nəticəyə çevrilməsi isə ardıcıl diplomatik fəaliyyət, normativ çərçivənin düzgün qurulması və diskurs üzərində nəzarət tələb edir. Rəsmi Bakı məhz bu məqamda fərqli strateji davranış nümayiş etdirdi: məsələni emosional qalibiyyət ritorikasından çıxararaq hüquqi-siyasi müstəviyə daşıdı.**

Ən mühüm dəyişiklik beynəlxalq leksikonda baş verdi. Uzun illər "Dağlıq Qarabağ münaqişəsi" kimi təqdim olunan problem mərhələli şəkildə "post-münaqişə nizamlanması" anlayışı ilə əvəzlənməyə başladı. Münaqişənin artıq mövcud olmadığı fikri praktiki addımlarla möhkəmləndirildi: suverenliyin bərpası, inzibati idarəetmənin tətbiqi, hüquqi mexanizmlərin işlədilməsi və beynəlxalq aktorlarla bu reallıq əsasında dialoqun qurulması.

Azərbaycan daha mürəkkəb, lakin daha effektiv yol seçdi. Hərbi nəticənin doğurduğu hüquqi vəziyyət ön plana çıxarıldı. Post-müharibə reallığının formalaşdırılması eyni zamanda qarşı tərəfin manevr imkanlarını da daraltdı. Münaqişə ritorikasının aktuallığını itirməsi Ermənistanın və onun dəstəkçilərinin beynəlxalq platformalarda əvvəlki diskursdan istifadə imkanlarını zəiflətdi. "Status", "vasitəçilik" və "keçid dövrü" kimi anlayışlar tədricən gündəmdən çıxdı, onların yerini sərhədlər, suverenlik və regional əməkdaşlıq kimi daha konkret və hüquqi kateqoriyalar aldı.

Prosesin siyasi mahiyyəti ondan ibarətdir ki, Azərbaycan öz qələbəsini dinamik siyasi reallığa çevirdi. Post-münaqişə mərhələsi aktiv nizamlanma dövrü kimi təqdim olundu. Qalib dövlət statusuna baxmayaraq, rəsmi Bakı, eyni zamanda, regional sülh təşəbbüslərinin müəllifi kimi çıxış edir. Qalib dövlətlərin ənənəvi davranış modeli adətən üstünlük mövqeyinin qorunması və diktəedici ritorika üzərində qurulur. Azərbaycan isə post-müharibə mərhələsində bu klassik şablonu qıraraq fərqli siyasi xətt seçdi. Rəsmi Bakı hərbi-siyasi üstünlüyü status kvo kimi dondurmaq əvəzinə, onu sülh təşəbbüskarlığına çevirdi.

Sülh təşəbbüslərinin müəllifi olmaq Azərbaycanın beynəlxalq mövqeyini keyfiyyətcə dəyişdirdi. Bakı müzakirə olunan mövzuların çərçivəsini özü müəyyənləşdirməklə həm gündəliyi, həm də terminologiyanı formalaşdırdı. Sülh müqaviləsi, qarşılıqlı tanınma, sərhədlərin delimitasiyası kimi anlayışlar artıq təşəbbüs xarakterli mövqedən irəli sürüldü. Belə bir xəttin siyasi çəkisi ondan ibarətdir ki, Azərbaycan güc faktorunu hüquqi mexanizmlərlə çərçivələndirdi. Gücün hüquqla legitimləşdirilməsi modeli müasir beynəlxalq münasibətlərdə ən dayanıqlı davranış forması hesab olunur. Çünki bu halda dövlət normativ haqlılığa istinad edir. Bakı məhz bu normativ haqlılığı formalaşdıraraq öz mövqeyini uzunmüddətli müstəviyə daşıdı.

Sülh təşəbbüskarlığı, eyni zamanda, Azərbaycanın məsuliyyətli regional aktor imicini möhkəmləndirdi. Qalib tərəfin barışıq çağırışları beynəlxalq auditoriyada sabitlik axtarışı kimi oxundu.

Azərbaycan, eyni zamanda, çoxvektorlu xarici siyasət kursunu seçərək Qərb, Rusiya, Türkiyə, Çin, İslam dünyası və Qoşulmama Hərəkatı xəttlərini bir-birinə qarşı qoymadan paralel və çevik şəkildə idarə edir. Müasir beynəlxalq münasibətlər sistemində çoxvektorlu siyasət geosiyasi zərurətdir. Lakin bu yanaşmanın uğuru onu institusional mexanizmlərə çevirməklə ölçülür. Azərbaycanın son illərdə fərqləndiyi əsas məqam da məhz budur: balans siyasəti davamlı dövlət xətti formasını alıb.

Rəsmi Bakı Qərb, Rusiya, Türkiyə, Çin, İslam dünyası və Qoşulmama Hərəkatı ilə münasibətləri bir-birini bir-birini tamamlayan istiqamətlər kimi qurur. Çoxvektorlu xəttin institusionallaşması onun şəxslərdən və konyunkturadan asılı olmamasında özünü göstərir. Müxtəlif beynəlxalq formatlarda paralel iştirak, ikitərəfli və çoxtərəfli mexanizmlərin eyni vaxtda işlədilməsi, regional və qlobal platformalarda aktivlik bu siyasətin artıq idarə olunan sistemə çevrildiyini sübut edir.

Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, Bakı böyük güclər arasında qarşıdurma dərinləşdiyi bir dövrdə tərəf seçmək məcburiyyətinə düşməmək üçün diplomatik çevikliyini qoruyur. Qərblə enerji və təhlükəsizlik dialoqu davam etdiyi halda, Rusiya ilə regional sabitlik məsələləri üzrə əlaqələr saxlanılır, Türkiyə ilə strateji müttəfiqlik dərinləşdirilir, Çinlə iqtisadi və logistika əməkdaşlığı genişləndirilir, İslam dünyası və Qoşulmama Hərəkatı çərçivəsində isə siyasi dəstək bazası möhkəmləndirilir. Müxtəlif mərkəzlərlə əməkdaşlıq edən, lakin heç birinin orbitinə daxil olmayan dövlət imici Bakıya əlavə manevr imkanları verir.

Nəqliyyat, enerji və logistika layihələri (Şərq–Qərb, Şimal–Cənub) ölkəni geoiqtisadi körpü statusuna yüksəldib. Rəsmi Bakı üçün kommunikasiya xətlərinin açılması və işlək mexanizmə çevrilməsi strateji təsir alətidir. Nəqliyyat, enerji və logistika təşəbbüsləri Azərbaycanın regional sistemdə yerini dəyişdirərək onu periferiyadan mərkəzə doğru çəkib.

Şərq–Qərb və Şimal–Cənub dəhlizləri qarşılıqlı asılılıq yaradan siyasi platformalar kimi çıxış edir. Burada əsas fərq ondan ibarətdir ki, Azərbaycan kommunikasiya layihələrini müstəqil strateji baxış əsasında formalaşdırır. Xarici aktorların təşəbbüslərinə qoşulan passiv iştirakçı kimi deyil, layihələrin müəllifi və idarəedicisi rolunda çıxış edir. Kommunikasiya xətlərinin təhlükəsizliyi və davamlılığı məsələsi artıq regional aktorlar üçün Azərbaycanla əməkdaşlıqdan asılı hala gəlir.



Enerji marşrutlarının diversifikasiyası da bu modelin mühüm tərkib hissəsidir. Azərbaycanın enerji infrastrukturu tetibarlılıq və sabitlik amili ilə ön plana çıxır. Regional kommunikasiya mərkəzinə çevrilmək eyni zamanda siyasi risklərin bölüşdürülməsi deməkdir. Azərbaycan üzərindən keçən xətlərdə maraqlı olan dövlətlərin sayı artdıqca, ölkənin sabitliyi kollektiv maraq obyektinə çevrilir.

Bakı post-münaqişə mərhələsində məsuliyyətli və proqnozlaşdırılan aktor imici formalaşdıraraq beynəlxalq tərəfdaşlıq şəbəkəsini də genişləndirib. Post-münaqişə mərhələsində beynəlxalq legitimlik hərbi üstünlüyün tanınmasından daha mürəkkəb və çoxqatlı anlayışdır. Azərbaycan bu mərhələdə impulsiv güc nümayişindən uzaq duraraq, davranışlarını proqnozlaşdırılan və rasional çərçivədə saxladı. Məhz bu xətt Bakının beynəlxalq sistemdə qəbul olunma səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltdi.

Proqnozlaşdırılan aktor imici xüsusilə böyük güclər və beynəlxalq institutlar üçün həlledici faktordur. Azərbaycan post-münaqişə dövründə kəskin siyasi ziqzaqlardan yayınaraq mövqelərində ardıcıllıq nümayiş etdirdi. Eyni prinsipial mövqe müxtəlif platformalarda təkrarlanaraq etibarlılıq yaratdı. Beynəlxalq legitimliyin genişlənməsi həm də tərəfdaşlıq coğrafiyasının şaxələnməsi ilə müşayiət olundu. Azərbaycan yeni aktorlarla da əməkdaşlıq imkanlarını artırdı. Əməkdaşlıq formatları daha dərin, daha institusional və uzunmüddətli xarakter almağa başladı.

Əvvəlki dövrlərdə suverenlik daha çox qorunan dəyər kimi təqdim olunurdusa, indiki mərhələdə o, icra olunan siyasət formasını alıb. Azərbaycan öz mövqelərini praktiki addımlarla təsdiqləyir. Suverenlik diskursunun güclənməsi, eyni zamanda, daxili və xarici siyasət arasında əlaqənin möhkəmlənməsi deməkdir. Xarici arenada nümayiş etdirilən prinsipiallıq daxili legitimliklə qidalanır, daxili siyasi sabitlik isə xarici manevr imkanlarını artırır.

Böyük güclər arasında rəqabət dərinləşdikcə, kiçik və orta dövlətlər üçün əsas risk təzyiq altında seçim etməyə məcbur qalmaqdır. Azərbaycan isə balanslaşdırılmış maraq siyasəti ilə bu riski minimuma endirir və özünü qarşıdurmaların kənarında dayanan rasional aktor kimi mövqeləndirir.

Son olaraq qeyd edək ki, Azərbaycanın post-müharibə dövründə sərgilədiyi davranış modeli strateji dövlət ağlının təzahürüdür. "Strateji sıçrayış" anlayışı məhz Bakının gücü legitimliklə, maraqları balansla və qələbəni davamlı siyasi üstünlüklə əvəzləməsini ifadə edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Avropa siyasətində "gizli güc"

**Qlobal siyasətdə qalmaqallar adətən konkret adlar və sensasiya yaradan detallar üzərində qurulur. Lakin bəzi sənədlər var ki, onların əhəmiyyəti daha geniş kontekstdə qiymətləndirilir. Epşteyn sənədlərinin üzə çıxan son dəsti də məhz belə materiallardan hesab olunur. İlk baxışdan sənədlərdə əks olunan yazışmalar növbəti siyasi qalmaqal təsiri bağışlayır.**



Məsələni yalnız fərdlərin reputasiyası və ya mümkün hüquqi məsuliyyəti çərçivəsində qiymətləndirmək onu həddən artıq sadələşdirmək olardı. Çünki sözügedən materiallar daha dərin və sistemli bir problemi, Avropa siyasətinin xarici təsir cəhdlərinə nə dərəcədə açıq olduğunu yenidən gündəmə gətirir. Söhbət siyasi proseslərin kənar maliyyə, ideoloji koordinasiya və strateji yönləndirmə vasitəsilə formalaşdırılması ehtimalından gedir. Əgər yazışmalarda əksini tapan planlar və niyyətlər siyasi praktikaya çevrilmək potensialına malikdirsə, bu, artıq bütövlükdə Avropa İttifaqının demokratik arxitekturası üçün risk anlamına gəlir.

İngiltərənin "Guardian" nəşrinin yayımladığı məqalədə qeyd olunur ki, Epşteyn sənədləri amerikalı sağçı populist, siyasi aktivist Stiv Bennonun 2018–2019-cu illərdə Avropada ifrat sağçı və avroseptik qüvvələri vahid platformada birləşdirmək üçün intensiv fəaliyyət göstərdiyini üzə çıxarıb. Onun İtaliya, Fransa, Almaniya kimi ölkələrdə siyasi partiyalarla əlaqələri, Brüsseldə millətçi blok formalaşdırmaq cəhdləri, xüsusilə Avropa Parlamenti seçkiləri ərəfəsində maliyyə toplamaq planları həmin dövrdəki siyasi şəbəkəni ifşa edir. Bennon bununla Avropa miqyasında qərarvermə balansını dəyişmək məqsədi güdürdü. Sənədlərdə Matteo Salvini və Marin Le Pen kimi fiqurların adlarının hallanması onun Avropa miqyasında ideoloji ittifaqlar qurmaq niyyətini göstərir. Hərçənd ki Epşteynin konkret olaraq hansısa partiyanı maliyyələşdirdiyinə dair sübut yoxdur və birbaşa əlaqələr təsdiqlənməyib, mesajların məzmunu maliyyə resurslarının siyasi məqsədlər üçün istifadəsini gündəmə gətirir. Bu isə sual yaradır ki, transmilli maliyyə və strateji koordinasiya ilə qurulan siyasətin demokratik legitimliyi hansı səviyyədədir?

Məsələnin mərkəzində ayrı-ayrı siyasətçilərin mümkün təsir mexanizmi dayanır. Əgər bir lobbiçi Avropanın müxtəlif ölkələrindəki populist qüvvələri vahid mərkəzdən koordinasiya etməyə çalışırsa, bu, sırf milli siyasi proses kimi dəyərləndirilməməlidir. Çünki Aİ-nin qərarvermə mexanizmi üzv dövlətlərin daxili siyasi balansına əsaslanır. Həmin balans kənar təsirlə dəyişdirilirsə, nəticədə Brüsseldə qəbul olunan qərarlar da dolayı yolla xarici şəbəkələrin maraqlarını əks etdirə bilər. Sözsüz ki, belə mexanizmlər açıq müdaxilə formasında olmur. Adətən qeyri-rəsmi əlaqələr, şəxsi görüşlər və siyasi məsləhətçi şəbəkələri vasitəsilə fəaliyyət göstərirlər. Bu baxımdan, məsələ daha çox struktur zəifliklərə diqqət yetirməyi tələb edir.

Yeri gəlmişkən, Avropa ölkələrində partiyaların maliyyələşməsi ilə bağlı qanunvericilik eyni deyil. Bəzi dövlətlərdə nəzarət mexanizmləri daha sərt və institusional baxımdan güclü, digərlərində isə daha elastik və geniş interpretasiyaya açıqdır. Mövcud fərqlər isə istər-istəməz transmilli təsir şəbəkələri üçün potensial boşluqlar yaradır. Xüsusilə Avropa Parlamenti seçkiləri kimi ümumittifaq miqyaslı proseslər ərəfəsində xarici maliyyə və strateji koordinasiya cəhdləri Aİ-nin siyasi arxitekturasına birbaşa təsir potensialına malikdir. Brüsseldə güclənən hər hansı ideoloji blok İttifaqın sanksiya siyasətini, miqrasiya strategiyasını, təhlükəsizlik gündəmini və inteqrasiya perspektivlərini dəyişə bilər. Bu isə artıq qitəmiqyaslı qərarvermə mexanizminin istiqamətinin dəyişməsi kimi xarakterizə olunur.

Fransa və Almaniyada hallanan adlar göstərir ki, əlaqələr, sadəcə ifrat sağ spektri ilə məhdudlaşmır. Diplomatik, mədəni və iqtisadi dairələrin nümayəndələrinin də yazışmalarda yer alması təsirin daha geniş elit şəbəkə üzərindən qurula biləcəyini ehtiva edir. Bu cür əlaqələr formal siyasi ittifaqlardan daha çevik və daha az görünən kanallar yaradır. Ofşor şirkətlər (sahibinin və ya əsas fəaliyyətinin olduğu ölkədən kənarda, adətən aşağı və ya sıfır vergi tətbiq edilən yurisdiksiyada qeydiyyatdan keçirilmiş şirkətlər), şəxsi iqamətgahlardakı görüşlər, qeyri-rəsmi məsləhətləşmələr siyasi təsirin formal institutlardan kənar kanallarla həyata keçirilə biləcəyindən xəbər verir. Belə təsirlər resursların, əlaqələrin və strateji məsləhətlərin paylaşılması yolu ilə reallaşır. "Yumşaq güc" kimi xarakterizə edilən model çox vaxt hüquqi məsuliyyət zonasından kənarda qalır.

***(ardı 6-cı səhifədə)***

# Milli dövlətçilik tariximizin tədqiqinə dəyərli töhfə




**Ümummilli lider Heydər Əliyevivin müstəqil dövlət quruculuğu konsepsiyası, çağdaş inkişafımızın əsasını təşkil edən ideya və əməlləri xalqımızın tükənməz quruculuq qaynağı, Azərbaycanın gələcək yolunu nurlandıran mənəvi günəşdir. Ulu öndərin müəyyən etdiyi milli inkişaf strategiyasını ardıcıl və yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin möhtəşəm liderliyi dövlət müstəqilliyimizin əbədiliyini və dönməzlıyini təmin etmiş, ölkəmizi şağdaş tərəqqinin ön sırasına çıxarmışdır.**

Müstəqil Azərbaycan dövlətinin başçısı İlham Əliyevin fenomenal liderliyi, ölkəmizdə və dünyada önəmli yeniliklərlə müşayiət olunan genişmiqyaslı fəaliyyəti onu dünya miqyaslı siyasətçi və dövlət xadimi kimi tanıtmışdır. Fəaliyyəti bütün liderlər üçün örnəkdir. Müasir dövrdə Prezident İlham Əliyev kimi xalqı tərəfindən sevilən ikinci bir lideri tapmaq çətindir, bu xoşbəxtlik yalnız işıqlı gələcək yolunda əzəmətlə addımlayan xalqımıza nəsib olub.

Bütün bunlar 2025-ci ildə "Konstitusiya və suverenlik ili" çərçivəsində nəşr olunmuş "Konstitusiya, suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış" monoqrafiyasında geniş elmi-siyasi əksini tapmışdır. Bu fundamental nəşrin müəllifi Naxçıvan MR Ali Məclisin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayev, məsləhətçisi Muxtar Respublikada Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovdur.

Monoqrafiyada ulu öndər Heydər Əliyevin zəngin ideya irsi, dövlət başçısı İlham Əliyevin milli dövlət quruculuğu sahəsində atdığı addımlar, onun rəhbərliyi ilə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizin tarixi nailiyyətləri dərin və əhatəli tədqiqata cəlb edilmiş, tarixi qiymətini almışdır. Əsər ön söz, giriş, 3 fəsil və nəticədən ibarətdir. Müəllif konstitusiya təməllərinə əsaslanan suverenlik kursunun düzgün taktiki yanaşmalar və doğru strateji hədəflərə çatmaq baxımından ölkəmizə tarixi nailiyyətlər qazandırdığını konkret fakt və sübutlarla elmi dövriyyəyə gətirmişdir.

"Azərbaycan Konstitusiyası: tarixi irsin, yeni çağırışların, strateji hədəflərin hüquqi tənzimlənməsi" adlanan birinci fəsildə milli dövlətçiliyin bərpa edilməsində ulu öndər Heydər Əliyevin təşəbbüsləri ilə Naxçıvanda atılmış tarixi addımlar, müstəqilliyin ilk addımında Ümummilli liderin gerçəkləşdirdiyi xilaskarlıq missiyası, əsaslı islahatlar yolu ilə cəmiyyətin demokratikləşdirilməsi kimi mövzular yer almış, sistemli şərh edilmişdir.

"Suverenlik: Azərbaycanın bütövlük təsdiqi" adlanan ikinci fəsildə müstəqil dövlətimizin müasir beynəlxalq münasibətlər sistemində tutduğu layiqli mövqe, ölkəmizdə dayanıqlı inkişaf mühitinin formalaşdırılması, Cənubi Qafqazda yeni strateji çağırışlar və Azərbaycanın regional liderliyi, Prezident ilham Əliyevin dünya siyasətində nüfuzlu mövqeyi və təşəbbüskar fəaliyyəti faktik materiallarla diqqətə çatdırılmışdır.

"Yeni siyasi konfiqurasiya: dayanıqlı inkişafın və milli birliyin etibarlı təməli" adlanan üçüncü fəsildə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin siyasi varisi Prezident, Ali Baş Komandan İlham Əliyevin demokratikləşmə və hərtərəfli yeniləşmə siyasəti çərçivəsində son illərdə yeni mərhələyə qədəm qoyan siyasi konfiqurasiya prosesi geniş araşdırılmışdır.

Kitabın nəticə hissəsində müəllif tədqiqatının yekunu kimi elmi qənaətlərini sistemləşdirərək bildirmişdir ki, konstitusiya dövlətin siyasi-hüquqi sisteminin əsasını təşkil edir və hüquqi dövlət quruculuğunun başlıca normativ bazasıdır.

Müəllif cəmiyyətdə hökm sürən 5 illik Zəfər təntənəsinin davamlılığını ümumiləşdirərək qeyd etmişdir ki, Prezident İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan torpaqları 30 illik işğaldan azad edilmişdir. Müstəqil dövlətin çağdaş siyasi tarixinə yeni missiya ilə daxil olmuş Azərbaycan lideri ölkənin bugünkü və gələcək siyasi və iqtisadi inkişafının təminatçısıdır. Birinci vitse-prezident Mehriban Əliyevanın həyata keçirdiyi sosial, humanitar və mədəni layihələr isə suverenliyin sosial legitimliyini və dövlət-vətəndaş etimadını daha da möhkəmləndirir.

Müəllifin elmi-siyasi qənaətinə görə, yeni siyasi konfiqurasiya quruculuğu və təkmilləşməsi prosesi artıq dövlətimizin strateji inkişaf strategiyasının tərkib hissəsi kimi qəbul edilir. Siyasi konfiqurasiyanın hədəfləri dövrün yeni qlobal çağırışlarını ehtiva etməklə yanaşı, ənənələr və novatorluq kontekstində də birləşdirici mərama çevrilib.

Monoqrafiyada öz əksini tapan bütün bu nəticələr müəllifin dövrün ictimai-siyasi hadisələrinə münasibətdə dərin müşahidə qabiliyyətinin məhsuldur. Əsər tarixi hadisələrin təhlili, dəyərləndirilməsi və xronoloji ardıcıllığı baxımından milli dövlətçilik tariximizin tədqiqinə dəyərli töhfədir.

*Xumar MƏMMƏDOVA,*
*Naxçıvan MR Ali Məclisinin deputatı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Ayvazyanın "strateji üçbucaq" xülyası

## *Sabiq XİN başçısı köhnə düşüncənin yeni təmsilçisidir*

**Ermənistan hakimiyyətinin yürütdüyü siyasətə qarşı tənqidlərin miqyası son illərdə genişlənib və bu proses artıq yalnız ənənəvi müxalifətlə məhdudlaşmır. Maraqlıdır ki, vaxtilə Nikol Paşinyanın komandasında təmsil olunmuş, onun yüksək vəzifələrə irəli çəkdiyi bəzi fiqurlar da hazırda fərqli mövqe sərgiləyirlər. Bir zamanlar "məxməri inqilab"ın simaları kimi təqdim edilən bu şəxslər hazırkı siyasi kursu açıq şəkildə sual altına alırlar.**

Sabiq müdafiə naziri, "yeni müharibə – yeni ərazilər doktrinası"nın müəllifi David Tonoyan, sabiq xarici işlər naziri Zöhrab Mnatsakanyan, milli təhlükəsizlik xidmətinin eks-direktoru Artur Vanetsyan kimi şəxslər müxtəlif dövrlərdə hökumətin siyasətinə tənqidi yanaşmaları ilə gündəmə gəliblər. Bu kontekstdə diqqət çəkən fiqurlardan biri də qısa müddətdə – 2020-ci il noyabrın 18-dən 2021-ci il mayın 27-dək xarici işlər naziri olmuş Ara Ayvazyandır. O, vaxtaşırı indiki hökuməti tənqid edən açıqlamalarla çıxış edir və xüsusən regional siyasət məsələlərində fərqli baxış ortaya qoyur.

Bu günlərdə İrəvanda "Birlikdə" hərəkatının təşkil etdiyi müzakirə zamanı sabiq



xarici işlər naziri bildirib ki, son illərdə Ermənistanla bağlı təhdid və çağırışlar ikiqat artıb və bu artıq, sadəcə təhlükəsizlik böhranı deyil. Qeyd edib ki, biz həm regionda, həm də bütün dünyada tarixi dəyişikliklər dövründə yaşayırıq: "Beynəlxalq siyasətdə oyun qaydaları dəyişib, səhvlərin bədəli artıb. Güc yenidən beynəlxalq münasibətlərdə əsas amilə çevrilib". İddia edib ki, bu şəraitdə Ermənistan ekzistensial (ekzistensializm mövcudluq, varlıq deməkdir–S.H.) təhdidlər və ciddi çağırışlarla qarşı-qarşıyadır.

Onun sözlərinə görə, Ermənistan suveren qərarlar qəbul etmək qabiliyyətini (?) bərpa etməlidir: "Bizə sırınan müharibə və ya sülh kimi saxta dilemma məntiqindən çıxmalıyıq. Ermənistanın qarşısında digər seçim dayanır: strateji kövrəkləyin daha da dərinləşməsi ilə strateji çəkindirmə siyasətinin formalaşdırılması arasında seçim. İlk növbədə Azərbaycanın və Türkiyənin timsalında Ermənistanın əleyhdarlarının əsl məqsədlərini anlamaq lazımdır. Aydındır ki, onlar Ermənistanla dinc yanaşı yaşamağa can atmırlar, onların strateji hədəfləri dəyişməz olaraq qalır. Bu hədəflər Ermənistanın yaşamaq qabiliyyətini itirməsi, müstəqil qərarvermə imkanlarından məhrum olması, türk dünyasından asılılığının dərinləşməsi və əlverişli şəraitdə "Böyük Turan" layihəsi çərçivəsində tamamilə ələ keçirilməsidir. Bu strategiyanın, belə deyək, onurğa sütunu isə Ermənistanın ərazi bütövlüyünü və suverenliyini pozmağa, həmçinin regionda güc balansını Bakı və Ankaranın xeyrinə dəyişməyə yönəlmiş qondarma Zəngəzur dəhlizidir".

Ayvazyanın fikrincə, TRIPP layihəsi düzgün yanaşma və Ermənistanın potensialının gücləndirilməsi halında nəzəri olaraq bu təhdidləri (?) neytrallaşdıra bilərdi. Lakin mövcud şəraitdə layihə Ermənistanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı təminatlar ehtiva etmir ki, bu da Ayvazyanın qənaətincə, "rəqiblərin", yəni Azərbaycan və Türkiyənin məqsədlərinin legitimləşdirilməsi riskini yaradır.

O, həmçinin regionda güc balansının bərpasında maraqlı olan qüvvələrlə real və effektiv koalisiyaların formalaşdırılmasının vacibliyini qeyd edib. Sabiq nazir bildirib ki, söhbət Rusiya ilə münasibətlərin yenidən işə salınmasından və İranla əlaqələrin dərinləşdirilməsindən, Ermənistan–Rusiya–İran strateji üçbucağının yaradılmasından gedir.

Bəs Paşinyan hakimiyyəti dövründə açıq anti-Azərbaycan mövqeyi ilə seçilən sonuncu XİN rəhbərlərindən biri olan Ayvazyan nəyi hədəfləyir və nəyə ümid edir? O, doğrudanmı İrəvanın Rusiya ilə münasibətləri "yenidən başlatmaq"la və İranla əlaqələri dərinləşdirməklə Ermənistan–Rusiya–İran strateji üçbucağını formalaşdırmaq şansının hələ də qaldığını düşünür?

İlk növbədə qeyd etməliyik ki, A.Ayvazyanın çıxışı Ermənistan cəmiyyətinə yönəlmiş klassik qorxu ritorikasıdır. "Ekzistensial təhdid", "Böyük Turan", "tamamilə ələ keçirilmə", "suverenliyin itirilməsi" kimi ifadələr emosional fon yaratmağa hesablanıb və real geosiyasi balansın soyuq təhlilindən daha çox, revanşist psixologiyanı qidalandırmağa xidmət edir. Ayvazyanın əsas tezisi ondan ibarətdir ki, guya, Azərbaycan və Türkiyə Ermənistanın dövlət kimi mövcudluğunu hədəfə alıb. Halbuki son illərin regional prosesləri göstərir ki, Bakı və Ankara məhz hüquqi çərçivədə kommunikasiyaların açılması, sülh sazişinin imzalanması və qarşılıqlı tanınma prinsipini irəli sürür.

Keçmiş nazirin Zəngəzur dəhlizini Ermənistanın ərazi bütövlüyünə təhdid kimi təqdim etməsi də əvvəlki siyasi xəttin davamıdır. Halbuki söhbət regionda nəqliyyat bağlantılarının bərpasından gedir və bu proses Ermənistan üçün də böyük iqtisadi dividentlər vəd edir. Ayvazyan isə məsələni məqsədli şəkildə təhlükəsizlik müstəvisinə çəkərək, kommunikasiyaların açılmasını başqa cür qələmə verir. Bu yanaşma 2020-ci ildən sonra formalaşmış yeni reallıqları qəbul etməmək xəttidir. Onun "strateji çəkindirmə" çağırışı isə Ermənistanın hərbi-siyasi potensialının və iqtisadi resurslarının real vəziyyətini nəzərə almadan səsləndirilən, daha çox daxili auditoriyaya hesablanmış populizmdir. Çünki çəkindirmə siyasəti yalnız hərbi ritorika ilə deyil, iqtisadi dayanıqlılıq, regional əməkdaşlıq və diplomatik balansla mümkündür. Ermənistan isə uzun illər məhz təcrid və avantürist siyasətin acı nəticələrini yaşayıb.

Ayvazyanın Rusiya–Ermənistan–İran üçbucağı ideyasını yenidən gündəmə gətirməsi də təsadüfi deyil. Bu, Paşinyanın Qərbə doğru manevrlərindən narazı qalan dairələrin arzusudur. Lakin reallıq ondan ibarətdir ki, Moskva ilə İrəvan arasında etimad ciddi şəkildə zədələnib, İran isə daha çox öz regional maraqlarına uyğun praqmatik xətt yürüdür. Belə şəraitdə hansısa strateji üçbucaq tezisi daha çox siyasi şüar təsiri bağışlayır. Əslində, Ayvazyanın çıxışı onun hansı düşərgədə dayandığını açıq göstərir. O, postmüharibə reallıqlarını qəbul etmək əvəzinə, köhnə qarşıdurma modelini dirçəltməyə çalışan revanşist düşüncənin sözçüsünə çevrilib. "Ekzistensial təhlükə" ritorikası cəmiyyəti sülh gündəmindən uzaqlaşdırmağa, qorxu və şübhə mühiti yaratmağa xidmət edir. Bu isə Ermənistanın real təhlükəsizlik problemlərini həll etmir, əksinə, onu yenidən geosiyasi qarşıdurmaların alətinə çevirə bilər.



Paşinyan iqtidarını tənqid etmək siyasi baxımdan anlaşılandır. Lakin bu tənqid konstruktiv alternativ təqdim etmirsə və ölkəni yenidən bloklaşma və düşmənçilik zolağına sürükləyirsə, o zaman söhbət dövlətçilik məsuliyyətindən deyil, revanşist ambisiyalardan gedir. Ayvazyanın son bəyanatları məhz bu çalarları ilə seçilir: reallıqdan çox keçmişin kölgəsinə söykənən, emosional, təhlükə mifi üzərində qurulan siyasi xətt. Ermənistan cəmiyyətinin qarşısında isə seçim köhnə qorxu ritorikası ilə yeni regional inteqrasiya imkanları arasında olacaq.

Yeri gəlmişkən, ermənistanlı jurnalist, bloqer və "Diqqət mərkəzində" informasiya platformasının müəllifi Roman Bağdasaryan bildirib ki, A.Ayvazyan həqiqətən də keçmiş düşərgəni təmsil edən nazir olub və onun bu posta təyinatı baş nazir Nikol Paşinyanın alternativ namizədi olmadığı bir dövrdə məcburi xarakter daşıyıb: "O, məcburi seçim idi. Çürük, mahiyyətcə yaramaz bir şəxsdir. Ermənistan XİN-in özündə əməkdaşların böyük əksəriyyəti ona hörmət etmirdi. Nazirliyin 90 faizi onu alçaq və hiyləgər hesab edirdi. O, satılmış adamdır. Onun Rusiyanın maraqlarını müdafiə etməsi təəccüblü deyil. Ermənistanın maraqları onun vecinə deyil, çünki nə oğlu, nə də yaxınları Ermənistan uğrunda döyüşməyib, sərhədlərimizi bir saat belə qorumayıblar".

Bağdasaryanın sözlərinə görə, Ayvazyan kimi şəxslər üçün gurultulu bəyanatlar səsləndirmək olduqca asandır: "Əmin olun ki, bu adamda zərrə qədər də vətənpərvərlik yoxdur. Nazirlikdə işlədiyi dövrdə baş nazirə zərər vurmaq üçün əlindən gələni edib. Bunun kimlərlə və hansı XİN əməkdaşları ilə birlikdə edildiyi məlumdur və təəssüf ki, onların bir qismi hələ də sistemdə qalır. Onun bəyanatları heç bir məna kəsb etmir. Bu, populyar və heç kimə lazım olmayan siyasətçilərdən birinin adi sayıqlamasıdır. Ayvazyan siyasi çəkisi sıfıra bərabər, artıq tarixin zibilliyinə atılmış bir şəxsdir".

*Səxavət HƏMİD*
*XQ*

# Demokratiyaya tank dəstəyi?

**(əvvəli 1-ci səhifədə)**

Qərbin Gürcüstana hazırkı yanaşması ikili standartlar siyasətindən başqa bir şey deyil. Görəsən, durumun səbəbi nədir? Qeyd edək ki, Avropanın ayrı-ayrı siyasi kluarları Gürcüstan hakimiyyətini ruspərəstlikdə qınayırlar. Elə təəssürat formalaşdırırlar ki, sanki ölkə Kremlin təsiri altındadır və sair ilaxır. Birincisi, belə bir durum yoxdur, rəsmi Tbilisi göründüyü qədərilə müstəqil xarici siyasət kursu həyata keçirir. İkincisi, lap hesab edək ki, Gürcüstanda Rusiya təsiri var. Bəs Qərbin buna qarşılıq təlqin etdiyi nədir? Demokratiyamı?

Əlbəttə, Qərbi demokratiya kimi mütərəqqi məhfumun qərarlaşması düşündürmür. Onun anlayışındakı demokratiya balaca uşaqlara verilmiş oyuncaqdır. "Uşaq" anlamır, tez bir zamanda "oyuncağı" sındırır. "Sındırır" və tezliklə "demokratiyanın uşaqları" başıpozuq kütləyə çevrilirlər. Müsair dövrdə milli dövlətləri təhdid yüklü belə xoşagəlməz halları az görməmişik.

Məgər demokratiya anarxiyadır? Yoxsa vaxtilə Qərbin demokratiya gətirdiyi deyilən Ukraynada nazirlərin zibil qablarına atılması qanunun aliliyi idi? Əlbəttə ki, yox! Görəsən, Qərbdə bunu bilmirlər? Bilirlər, sadəcə onların, belə demək mümkünsə, ixrac etmək istədikləri demokratiya anlayışı başqadır, ancaq xaos və özbaşınalıq təmayüllüdür.

Məlumdur ki, Qərbin Gürcüstan hakimiyyəti ilə ixtilafının kökündə "Xarici təsirin şəffaflığı haqqında" və "Xarici agentlərin qeydiyyatı haqqında" qanunlarla yanaşı, "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanun da dayanır. Qeyd edək ki, sonuncu sənəd ailə dəyərlərinin möhkəmləndiriməsinə xidmət edir və eynicinslilərin nigahının yolverilməzliyini açıqlayır. Görəsən, bu, niyə avropalıları naharat edir? Məgər, Gürcüstanda kimsə Avropadakı eynicinslilərin nigahı məsələsinə etiraz edirmi? Yox! Belə olan halda "köhnə qitə"nin "demokratiya carçılarının" sancısı nədir?

Digər tərəfdən, Gürcüstan hökuməti xarici təsirlərin şəffaflığına çalışırsa, yaxud xarici agentlərin ölkədə fəaliyyətinə yol vermək istəmirsə, məsələnin heç kəsə istisi-soyuğu olmamalıdır. Çünki Gürcüstan müstəqil dövlətdir və onun qəbul etdiyi qanunlarda bəşəri dəyərlər, eləcə də insan hüquq və azadlıqları qətiyyən tapdalanmır. Hakimiyyət xalqın maraq və mənafelərindən, ənənələrindən, tarixi keçmişindən qaynaqlanan, cəmiyyətin sosial sifarişindən irəli gələn qərar qəbul edirsə, qanun çıxarırsa, məsələnin xaricdəki hansısa Cona, Bredə nə dəxli ola bilər? Bunun qarşısını almağın yolu Gürcüstana tank qoşunu yeritməkmi olmalıdır?

Əlbəttə, cənab Papuaşvilinin "Bəzi Avropa liderləri "demokratiyanın bərqərar edilməsi" üçün Gürcüstana tank göndərməyə hazırdırlar" bəyanatındakı tank, müəyyən mənada, şərtidir. Ancaq biz ötən



il ölkədə yaşanan və Qərb dairələri tərəfindən idarə olunan iğtişaşların miqyasına diqqət yetirdikdə, spikerin fikirlərində xalis gerçəklik yükünün olduğunu da deyə bilərik. Həqiqətən, həmin dairələrin imkanı olsaydı, gürcü iqtidarını devirməyə hesablanmış anarxiyaya tank dəstəyi də göstərirdilər. Sadəcə, coğrafiya şərtlər buna yol vermir.

Haqqında söz açdığımız ikili standartlara gəldikdə, Avropa institutlarının Gürcüstana və Ermənistana yanaşmalarındakı fərqi vurğulamaq yerinə düşər. Yada salaq ki, Qərb niyəsə Ermənistanda baş nazir Nikol Paşinyan iqtidarı əleyhinə hərəkatı hakimiyyətə zorakı qəsb adlandırdığı halda, Gürcüstandakı eyni mahiyyətli prosesləri demokratiyanın təntənəsi qismində qələmə verdi. Əsl riyakarlıq da elə bundadır.

Nəzərə alaq ki, Gürcüstana münasibətdə riyakarlığa söykənmiş ikili yanaşma dolu aşkar qərəzin digər aspektləri də var ki, cənab Papuaşvili bu barədə söz açıb. O deyib ki, Brüsseldə və digər Avropa ölkələrinin paytaxtlarındakı bəzi siyasətçilər Tbilisiyə qarşı sanksiyalarla kifayətlənmək niyyətində deyillər. Yəni, onların "demokratiyanın bərqərar edilməsi" üçün Gürcüstana tank yürüşü hazırlıqları" da sanksiyaların nəticəsizliyindən qaynaqlanır.

Onu da bildirək ki, ötən ilin dekabrında Avropa Komissiyası "rəsmi Tbilisinin Avropa İttifaqının irəli sürdüyü tövsiyələri görməzliyə vurmağa davam edəcəyi təqdirdə", Gürcüstan üçün vizasız rejimin tam ləğvini nəzərdən keçirəcəyini açıqlamışdı.

Görünür, sözügedən açıqlamanın yalnız bir seqmenti işə düşüb. Belə ki, Gürcüstan parlamentinin hakim "Gürcü Arzusu" partiyasından olan vitse-spikeri Nino Tsilosani bəyan edib ki, Aİ, guya, demokratiyadan geri çəkilmə səbəbilə gürcü diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimi ləğv edib. Vitse-spiker bu qərarı "nəticəsiz şantaj" adlandırmağı da unutmayıb.

Bəli, Avropa rəsmilərinin Tbilisinin "Aİ qarşısında götürdüyü öhdəliklərlə ziddiyyət təşkil edən dəst-xəttinə" münasibətdə ortaya qoyduqları digər hərəkət və davranışlar da siyasi şantajdan başqa bir şey deyil və əslində, bunlar həqiqi demokratiya adına son dərəcə böyük cılızlıqdır, utancdır. Ümumən, tam əminliklə deyə bilərik ki, hazırda Qərbin Gürcüstan əleyhinə ortaya qoyduğu mövqe nəinki cılızlıq, eyni zamanda, miskinlik və rəzillikdir, ali dəyər və prinsiplərə aşırı hörmətsizlikdir. Nə isə...

*Ə.RÜSTƏMOV,*
*XQ*

# Paşinyanın “İcevan marşrutu”

## *Bu yol Zəngəzur dəhlizinə alternativ ola bilərmi?*

**Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdəki “hökumət saatı” zamanı regionda nəqliyyat blokadalarının aradan qaldırılması məsələsinə toxunub. Deputat Geqam Nazaryanın İcevanı Azərbaycanın dəmir yolu şəbəkəsi ilə birləşdirən xəttin bərpası və bunun iqtisadi səmərəsi barədə sualını cavablandıran baş nazir müzakirə olunmayan heç bir istiqamətin qalmadığını bildirib: “Əlbəttə, bu istiqamət müzakirə olunur. Lakin nəzərə almalıyıq ki, Ağarcın ərazisində 30 il əvvəl baş vermiş sürüşmə nəticəsində dəmir yolunun fəaliyyəti dayanıb. Bu hissənin bərpası potensial yükdaşımaların həcmindən və layihənin rentabelliyindən asılı olacaq”.**







Baş nazir hökumətin apardığı araşdırmalara istinadən maraqlı bir faktı da diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycandan Türkiyəyə gedən ən qısa yol məhz Ermənistanın şimalından keçir: “Əgər İcevan–Razdan xətti Vanadzor–Gümrü istiqaməti ilə birləşdirilsə, məlum olar ki, Azərbaycandan Türkiyəyə ən qısa dəmir yolu marşrutu İcevan–Dilican–Vanadzor–Cacur–Gümrü–Axurik xəttidir. Bu, eyni zamanda, avtomobil nəqliyyatı üçün də ən qısa yoldur”.

Paşinyan vurğulayıb ki, yekun qərar texniki-praktiki hesablamalardan və siyasi proseslərin gedişatından asılı olacaq: “Dünya nə qədər institusional xarakter alsa, müxtəlif ssenarilərin reallaşma ehtimalı bir o qədər artar”.

Baş nazirin parlamentdə səsləndirdiyi fikirlər regionda kommunikasiyaların açılması prosesinin yeni mərhələyə keçdiyini göstərir. Onun çıxışında diqqət çəkən əsas məqam Azərbaycandan Türkiyəyə ən qısa marşrutun İcevan istiqamətindən keçməsi barədə vurğudur. Bu yanaşma texniki-iqtisadi əsaslandırma kimi təqdim edilsə də, əslində, daha geniş geosiyasi və strateji məna daşıyır. Məsələyə Azərbaycanın maraqları prizmasından baxdıqda isə bir neçə paralel xətt üzə çıxır.

Əvvəla, Ermənistanın kommunikasiya məsələsini artıq açıq müzakirəyə çıxarması regionda formalaşan yeni reallıqların qəbul edildiyini göstərir. 2020-ci ildən sonra yaranmış geosiyasi vəziyyət Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin bərpasını qaçılmaz edib. Ermənistan uzun illər regional layihələrdən kənarda qaldığı üçün iqtisadi təcridin nəticələrini daha kəskin hiss edir. Paşinyanın “rentabellik” və “yük axını” ifadələrini xüsusi vurğulaması da təsadüfi deyil. Bu, İrəvanın artıq siyasi ritorikadan daha çox iqtisadi realizmə söykənməyə məcbur qaldığını göstərir.

Lakin İcevan marşrutunun qabardılması təkcə iqtisadi məntiqə söykənmir. Bu, eyni zamanda, Zəngəzur istiqamətinə alternativ konsepsiyanın formalaşdırılması cəhdidir. Azərbaycan üçün əsas prioritet Naxçıvanla maneəsiz və təhlükəsiz quru əlaqəsinin təmin olunmasıdır. Bu məsələ həm 10 noyabr bəyanatında öz əksini tapıb, həm də ölkənin milli təhlükəsizlik və strateji bütövlük konsepsiyasının tərkib hissəsidir. İcevan xətti isə bu problemi həll etmir. Yəni Naqxçıvana əlaqəni təmin etmir. Ona görə də Ermənistanın bu marşrutu ön plana çıxarması, müəyyən mənada, daxili siyasi auditoriyaya “alternativ həll” təqdim etmək və Zəngəzur məsələsində təzyiqi azaltmaq məqsədi daşıyır.

Digər tərəfdən, Azərbaycan artıq regionun əsas tranzit mərkəzinə çevrilib. Bakı–Tbilisi–Qars dəmir yolu, Orta Dəhliz və digər layihələr ölkənin logistika xəritəsində aparıcı rolunu möhkəmləndirib. Əgər Ermənistan üzərindən keçəcək marşrutlar bu sistemə inteqrasiya olunarsa və yük axınını artırarsa, bu, Azərbaycanın maraqlarına uyğundur. Lakin əgər paralel alternativ yaradılaraq mövcud marşrutlara rəqabət mühiti formalaşdırılarsa, bu geoiqtisadi baxımdan sərfəli deyil.

Burda maraqlı bir məqam da var. Onu gözardı etmək olmaz. Məsələn, Paşinyan qərarların siyasi proseslərdən asılı olduğunu açıq şəkildə etiraf edib. Bu onu göstərir ki, kommunikasiya məsələsi hələ də geniş sülh gündəliyinin bir hissəsidir və texniki məsələ kimi təqdim olunsa da, əslində, siyasi iradə ilə şərtlənir. Deməli, onun realllaşması tərəflərin siyasi qərarından aslı olacaq. Azərbaycan üçün əsas prinsip marşrutun haradan keçməsi deyil, onun hansı hüquqi və təhlükəsizlik təminatları ilə fəaliyyət göstərməsidir. Uzunmüddətli və sabit mexanizm olmadan hər hansı xətt iqtisadi baxımdan da dayanıqlı deyil. Ola da bilməz.



Onu da qeyd edək ki, bu məsələni yalnız texniki və ya iqtisadi layihə kimi qiymətləndirmək də sadəlövhlük olardı. Burda regional güclərin maraqları açıq şəkildə toqquşur. Xüsusilə Rusiyanı diqqətdən kənarda qoymaq olmaz. Məsələn, İcevan istiqamətinin Rusiyanın nəzarətində olması perspektivdə yeni asılılıq zəncirləri yaradır. Moskva üçün Cənubi Qafqazdakı kommunikasiya xətləri heç vaxt sadəcə iqtisadi layihə olmayıb. Kreml nəqliyyat infrastrukturuna ənənəvi olaraq təsir aləti kimi yanaşıb. Postsovet məkanında yollar və dəmir xətləri siyasi nüfuzun səssiz, lakin effektiv mexanizmi rolunu oynayıb. İnfrastruktur üzərində texniki, hüquqi və təhlükəsizlik nəzarəti – bu, əslində, siyasi qərarlara dolayı nəzarət deməkdir.

Ermənistanın dəmir yolu sisteminin Rusiya Dəmir Yollarının törəmə qurumu olan “Cənubi Qafqaz Dəmir Yolu”nun idarəsində olması bu reallığı təsdiqləyir. Üstəlik, İcevan xətti də Moskvanın nəzarətindədir və yenidən qurulması ciddi maliyyə tələb edir. Bu prosesdə Moskvanın rolunun qaçılmaz görünməsi Ermənistanın manevr imkanlarının nə qədər məhdud olduğunu göstərir. Paşinyanın dəmir yolu xəttinin təmiri üçün Rusiyaya müraciəti də bu asılılığın davam etdiyini açıq şəkildə ortaya qoyur.

Söhbət təkcə yük daşınmasından getmir. Bu marşrut Rusiya üçün Cənubi Qafqazda təsir imkanlarını qorumaq və regional balansı nəzarətdə saxlamaq vasitəsidir. Bakı da alternativ marşrutlar olduğu halda kiminsə təsirinə düşmək istəməz. Məhz bu səbəbdən alternativ təşəbbüslər, xüsusilə TRİPP platforması yeni geosiyasi konfiqurasiyada daha cəlbedici görünür. TRİPP marşrutu Azərbaycanın maraqlarına xidmət edir. İcevan marşrutu isə tamamilə bunun əksidir və reallaşması yaxın prespektivdə mümkün görünmür.

Bununla bağlı **iqtisadçı ekspert Kamran Abdullayev** bildirdi ki, Azərbaycan üçün prioritet dəyişməzdir. Bu, Naxçıvanla təhlükəsiz və maneəsiz bağlantı, regional tranzit liderliyinin qorunması və bu bağlantının uzunmüddətli hüquqi təminat altına alınması ilə bağlıdır: “ TRİPP çərçivəsində Ermənistan Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında yüklərin və insanların hərəkəti üçün sadələşdirilmiş tranzit rejimini təmin etməyi öhdəsinə götürür. Bu isə Bakının illərdir müdafiə etdiyi “maneəsiz keçid” prinsipinin beynəlxalq mexanizmlərlə qorunması deməkdir.

TRİPP yalnız bir dəmir yolu layihəsi deyil. Bu, dəmir yolu, avtomobil magistralı və enerji xətlərini birləşdirən multimodal platformadır. Layihənin miqyası regionun logistik xəritəsini yenidən cızmaq potensialına malikdir. İlkin hesablamalara görə, infrastrukturun bərpası üçün 5–7 milyard dollar həcmində beynəlxalq investisiya tələb olunur. Bu investisiya marşrutu yüksək sürətli dəmir yolu və müasir avtomobil magistralı səviyyəsinə çıxaracaq.

İqtisadi dividentlər isə konkret rəqəmlərlə ifadə olunur. TRİPP-in Orta Dəhlizə inteqrasiyası Mərkəzi Asiya və Çindən gələn yüklərin Xəzər üzərindən Avropaya daşınmasını sürətləndirəcək, həm də Azərbaycanın illik tranzit potensialını artıracaqdır.

Paşinyanın İcevan xəttini önə çəkməsi isə Zəngəzur istiqamətindən diqqəti yayındırmaq və daxili auditoriyaya alternativ təqdim etmək cəhdidir. Paşinyan hökuməti nümayiş etdirməyə çalışır ki, Ermənistanın regional tranzit və əlaqələr sahəsində alternativ həll imkanları mövcuddur və ölkənin strateji əhəmiyyəti itmir.

Praktik olaraq, İcevan xəttini vurğulamaq erməni ictimaiyyətinə “biz də seçim imkanına malikik” mesajı verir və Paşinyanın mövqeyini müdafiə etməyə xidmət edir. Lakin bu addımın real geosiyasi və iqtisadi effektivliyi məhduddur: xəttin böyük maliyyə və texniki resurs tələb etməsi, Rusiya nəzarətində olması və beynəlxalq investisiyanın əhəmiyyətli hissəsinin Moskvanın təsirinə bağlı qalması faktları, İcevan marşrutunu strateji alternativ kimi yetərsiz edir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İrəvanın Kreml ilə “dəmir” oyunu

**Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin İctimai Televiziyasına müsahibəsində dəmir yollarının Rusiya nəzarətində olmasının problem yaratdığını deyib. Yəni ki, rəsmi İrəvan ölkənin geoiqtisadi kursunda dönüş mesajı verir. Paşinyan onu da bildirib ki, gərginlik həmişə mövcuddur, amma Ermənistan Rusiya ilə döyüşməyəcək, problem yaratmayacaq, əksinə, bütün məsələləri müzakirə edəcək və öz maraqlarını güdəcək. Qısası, Nikol deyir ki, “nə şiş yansın, nə kabab”. Amma erməni baş nazir mühüm bir məsələni unudur. Kreml ilə oyun oynamaq və ya buna cəhd etmək Ermənistana zərərdən başqa heç nə verməyəcək.**

*

Baş nazirin bu fikirlərindən sonra rəsmi formada necə deyərlər, tam qaydasında Moskva cavab verdi. “Rusiya Dəmir Yolları” ASC-nin baş direktorunun birinci müavini Sergey Pavlov İdarə Heyətinin yekun iclasında dedi ki, Rusiya taxılının RF Dəmir Yolları şəbəkəsi ilə Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana tədarükü müntəzəm xarakter alıb və (ən əsası) bu marşrutun inkişafının davam etdirilməsi planlaşdırılır. 2008-ci ildə imzalanmış 30 illik konsessiya müqaviləsinə əsasən, “Cənubi Qafqaz Dəmir Yolları”nın idarəçiliyi “Rusiya Dəmir Yolları” ASC-yə verilib. Şirkət Ermənistan dəmir yolu şəbəkəsinin modernləşdirilməsi və istismarı öhdəliyini daşıyır. Lakin ötən illər ərzində şəbəkənin yenilənməsi tempinin aşağı olması, investisiya həcmlərinin gözləntiləri doğrultmaması və marşrutların regional inteqrasiyaya uyğunlaşdırılmaması İrəvanda narazılıq yaradıb. Paşinyanın açıqlaması həmin struktur problemin siyasi səviyyədə ifadəsidir.

Mühüm bir məqamı vurğulayaq ki, Rusiya üçün Ermənistanın dəmir yolu şəbəkəsi Cənubi Qafqazda təsir alətidir. Gürcüstanla münasibətlərin məhdudluğu və Azərbaycan üzərindən alternativ təsir imkanlarının zəifliyi fonunda Moskva üçün Ermənistan infrastrukturu strateji əhəmiyyət daşıyır. Buna görə də idarəetmə mexanizminin dəyişdirilməsi, sadəcə iqtisadi qərar kimi qəbul edilməyəcək. Paşinyanın açıqlamasında “Rusiya ilə dəmiryolu məsələsində siyasi baxımdan müsbət cavab aldıq” ifadəsi göstərir ki, məsələ artıq danışıqlar predmetinə çevrilib. N.Paşinyan “razılaşmışıq” deyir, Rusiya tərəfi isə bu sahədə inkişafın davam etdirilməsinin planlaşdırıldığını bildirir. Sadə dildə izah etsək, ya heç bir razılaşma yoxdur, ya da yenə gizlin siyasət yürüdülür. Əlalxüsus...

***




Məlumdur ki, 2020-ci il 10 noyabr bəyanatının 9-cu bəndi regionda nəqliyyat kommunikasiyalarının açılmasını nəzərdə tutur. Azərbaycan Naxçıvanla quru əlaqənin bərpasını strateji prioritet kimi irəli sürüb və son məlumatlara görə, bu məqsədlə artıq Zəngilan istiqamətində Horadiz–Ağbənd dəmir yolu xətti üzrə layihə işlərinin 85, tikinti-quraşdırma işlərinin isə 70 faizi icra olunub. Ermənistan ərazisindən keçəcək Meğri seqmenti isə hələ də layihələndirmə və siyasi razılaşma mərhələsindədir. Bu xəttin reallaşması Ermənistan üçün tranzit gəlirləri, logistika mərkəzlərinin formalaşması və regional ticarətə inteqrasiya deməkdir. Lakin xəttin idarəetmə mexanizmi məsələsi investorlar üçün əsas risk parametrinə çevrilib. Beynəlxalq maliyyə institutları üçün sanksiya riskləri, əməliyyat nəzarəti və hüquqi yurisdiksiya məsələləri prioritet qiymətləndirmə meyarlarıdır.

Bütün çətinliklərə baxmayaraq, demək olar ki, hər iki tərəf yolun açılmasında maraqlıdır. Bu isə təbii ki, Kremli narahat etməyə bilməz. İlk olaraq, Naxçıvanla quru əlaqənin bərpası bölgədə tranzit marşrutlarının yenidən konfiqurasiyası deməkdir ki, bu da Moskvanın sözügedən xətt üzrə təsir imkanlarını azaldır. Digər bir məsələ alternativ logistik arxitekturadır. Rusiya üçün ən arzuolunan model regiondakı bütün strateji xətlərin ya öz ərazisindən keçməsi, ya da onun idarə etdiyi şəbəkəyə bağlı olmasıdır. Əks halda hazırki gedişat Rusiyanın Cənubi Qafqazda infrastruktur üzərindən zəifləməsinə doğru aparır.

Digər tərəfdən, Qars–Naxçıvan, daha dəqiq desək, Qars-İğdır-Aralık-Dilucu dəmir yolu layihəsi konteksti daha da mürəkkəbləşdirir. Türkiyə və Azərbaycan ötən ilin avqustundan tikinti işlərinə başlayıb. Layihə tamamlanarsa, Naxçıvanın Türkiyə üzərindən birbaşa bağlantısı təmin olunacaq və Ermənistan ərazisindən keçən alternativ xətt iqtisadi baxımdan daha zəif mövqedə qala bilər, elə böyük ehtimal ki, qalacaq da. Orta Dəhlizin gücləndiyi, Çin–Avropa yük axınının Xəzər üzərindən yönləndirildiyi bir dövrdə marşrut seçimi sürət, təhlükəsizlik və siyasi sabitlik kriteriyaları ilə müəyyənləşir. Məhz bu nöqtədə məsələ Rusiyaya bağlanır. Çünki Naxçıvanın Türkiyə üzərindən birbaşa inteqrasiyası regionda formalaşan yeni logistika arxitekturasını Moskvanın nəzarətindən kənarda qoyur, Ermənistan dəmir yolları üzərindəki Rusiya konsessiyasının strateji çəkisini azaldır və Cənubi Qafqazda nəqliyyat üzərindən təsir rıçaqlarını mərhələli şəkildə zəiflədir.

Azərbaycan üçün yaranan mənzərə iki istiqamətdə dəyərləndirilə bilər. Birincisi, Qars–Naxçıvan xətti Bakı–Ankara tandeminin regional logistika üzərində müstəqil nəzarətini gücləndirməklə yanaşı, Cənubi Qafqazda alternativ nəqliyyat arxitekturasını Moskvanın operativ iştirakından kənarda formalaşdırır. Bu isə Rusiya üçün regiondakı ənənəvi tranzit imkanlarının nisbi azalması deməkdir. İkincisi, Ermənistan tranzit potensialını itirməmək üçün daha çevik mövqe tutmağa məcbur qalarsa, sülh sazişi prosesinə iqtisadi motivasiya əlavə olunacaq. Bu dinamika Moskvanın vasitəçilik monopoliyasını zəifldən yeni regional qarşılıqlı asılılıq modeli yarada bilər.

Nəticə etibarilə, Paşinyanın bəyanatı daxili auditoriyaya hesablanmış ritorika olmaqla yanaşı, xarici tərəfdaşlara yönəlmiş növbəti strateji siqnaldır. Qarşıdakı mərhələdə əsas müzakirə mövzusu Rusiya ilə imzalanmış konsessiya modelinin taleyi, alternativ maliyyələşmə və idarəetmə mexanizmlərinin qurulması və regional layihələrin hansı geosiyasi balans çərçivəsində icrası olacaq. Bu qərarlar təkcə Ermənistanın nəqliyyat siyasətini deyil, Moskva ilə münasibətlərinin strukturunu və ümumi geoiqtisadi istiqamətini də müəyyən edəcək.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV, politoloq**

Reallıq ondan ibarətdir ki, Ermənistanın dəmir yolu şəbəkəsi hazırda Rusiyanın nəzarəti altındadır və bu, danılmaz faktdır. Bu kontekstdə Rusiyanın ölkədə təsir imkanlarının zəiflədiyini söyləmək çətindir. Paşinyan hökuməti Avropa istiqamətini prioritet kimi təqdim edir, Avropa İttifaqına inteqrasiya niyyətini açıq şəkildə bildirir. Mövcud geosiyasi vəziyyət göstərir ki, Rusiya hələ də Ermənistanda öz mövqelərini qoruyub saxlayır və təsir rıçaqlarını itirməyib.

Digər tərəfdən, yeni reallıqlar da formalaşır. Əgər ABŞ kimi aktor marşrutun reallaşdırılmasında maraqlıdırsa və artıq yüksəksəviyyəli təmaslar baş tutursa, sənədlər imzalanır, konsepsiya hazırlanırsa, bu, qüvvələr balansına təsirsiz ötüşməyəcək. Amerika şirkətlərinin Ermənistana daxil olması perspektivi də Rusiyanın mövqelərinə müəyyən dərəcədə təsir göstərə bilər.

Bu prosesdə Rusiyanın passiv müşahidəçi kimi qalacağını düşünmək sadəlövhlük olardı. Moskva açıq qarşıdurmaya getmədən, daha çox dolayı mexanizmlər vasitəsilə təsir göstərməyə çalışa bilər. Müxtəlif siyasi, iqtisadi və ya institusional alətlərdən istifadə etməklə müəyyən çətinliklər yaradılması ehtimalı istisna deyil. Bu cür ssenarilərin necə inkişaf edəcəyini isə zaman göstərəcək.

Ümumilikdə, əgər marşrutun açılması ABŞ tərəfindən ardıcıl və sistemli şəkildə dəstəklənərsə, layihənin reallaşma ehtimalı artar. Bununla belə, prosesin maneəsiz və qarşıdurmasız keçəcəyi real görünmür. Geosiyasi rəqabət fonunda müxtəlif təzyiq və müqavimət elementlərinin ortaya çıxması gözlənilləndir.

# Avropa siyasətində “gizli güc”

*(əvvəli 4-cü səhifədə)*

Əfsuslar olsun ki, sözügedən yanaşma müasir qlobal siyasətdə daha çox tətbiq olunur. Dövlətlərdən əlavə, biznes elitaları, ideoloji qruplar və fərdi aktorlar formal diplomatiyadan kənar şəbəkələr quraraq təsir imkanlarını genişləndirirlər. Belə şəbəkələr isə müxtəlif siyasi sistemlərin daxili müdafiə mexanizmlərini sınağa çəkir. Demokratik legitimlik məsələsi də məhz burada aktuallaşır. Çünki demokratiya anlıyışı həm də seçkilərin maliyyə və informasiya baxımından müstəqil olması ilə ölçülür. Əgər ictimaiyyət siyasi proseslərin arxasında maliyyə və təsir şəbəkələrinin dayandığına inanırsa, cəmiyyətdə etimad zəifləyir. Etimadın azalması isə siyasi sistem üçün ikiqat riskdir. Bir tərəfdən, institutlara inam sarsılır, digər tərəfdən isə populist qüvvələr üçün münbit zəmin yaranır. Xarici təsir iddiaları şəffaf və institusional çərçivədə araşdırılmadıqda, narrativ daha da güclənir və siyasi qütbləşmə dərinləşir.

Bir məqamı da qeyd edək ki, Epşteyn sənədləri hüquqi hökm kimi deyil, daha çox xəbərdarlıq siqnalı kimi qəbul olunmalıdır. Əgər Avropa siyasi suverenliyini qorumaq istəyirsə, partiya maliyyələşməsi üzərində daha vahid və şəffaf nəzarət mexanizmləri formalaşdırmalı, transmilli siyasi lobbiçiliyin hüquqi çərçivəsini daha aydın şəkildə müəyyənləşdirməli və əlaqələr sistemində hesabatlılığı gücləndirməlidir. Əks halda, “qoca qitə”nin qərarvermə prosesləri qlobal şəbəkələrin kölgəsində qala bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Azərbaycanın rəqəmsal gələcəyinin iqtisadi modeli

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" müşavirəsində ölkəmizin rəqəmsal inkişafına dair əsas strategiyalar və prioritetlər müzakirə edildi. Ölkə başçısı çıxışında rəqəmsal inkişafı uzunmüddətli iqtisadi artımın mühərriki kimi dəyərləndirdi və süni intellekt, data mərkəzləri və genişmiqyaslı rəqəmsallaşmanın ölkənin rəqabət qabiliyyətini müəyyən edəcəyini vurğuladı. Həmçinin rəqəmsal layihələrin koordinasiyası üçün tədbirlər planı hazırlanması və hər dövlət orqanının rəqəmsal transformasiya üzrə məsul şəxslər təyin etməsi tapşırıldı.**




Müşavirədə vurğulandı ki, təhsil sisteminin süni intellektə uyğunlaşdırılması, dövlət idarəçiliyində süni intellekt alətlərinin tətbiqi zəruridir. Xarici tərəfdaşlıqlar da strateji önəm daşıyır: ABŞ-la Strateji Tərəfdaşlıq Xartiyası data mərkəzləri, rəqəmsallaşma və süni intellekt sahələrini əhatə edir. Eləcə də hökumətlərarası səviyyədə yeni texnologiyalar, məlumat mərkəzləri və süni intellekt layihələrinin həyata keçirilməsinə yönəlir. Təsadüfi deyil ki, dünən ABŞ-ın Azərbaycandakı səfirliyinin açıqlamasında "Google" şirkətinin "Gemini" süni intellekt modelinin rəsmi olaraq Azərbaycan dilində istifadəyə verilməsi bildirilib. Qeyd olunub ki, bu məsələ ABŞ və Azərbaycan arasında texnologiya və innovasiya sahəsində artan tərəfdaşlığı əks etdirir.

2024-cü ildən "Google Gemini" dünyanın aparıcı süni intellekt əsaslı çatbotlarından biri olub. Onun Azərbaycan dilində qlobal istifadəyə verilməsi ABŞ–Azərbaycan arasında texnologiya və innovasiya sahəsində artan tərəfdaşlığı əks etdirir və 2025-ci ilin avqust ayında süni intellekt üzrə əməkdaşlığı vurğulayan ikitərəfli sazişə əsaslanır. "Gemini 3"ün qlobal təqdimatı çərçivəsində Azərbaycan dili əlavə olunan 23 yeni dildən biridir ki, bu da Azərbaycanın qlobal rəqəmsal ekosistemdə rolunu önə çıxarır. Tam internet və mobil dəstəklə "Gemini" öyrənmə, yaradıcılıq və məhsuldarlıq üçün yeni imkanlar yaradır.

ABŞ-la yanaşı, Azərbaycanın Avropa İttifaqı üzrə 10 ölkə və ötən il Çinlə strateji tərəfdaşlıq sənədləri imzalaması isə təcrübi əməkdaşlığın coğrafiyasını genişləndirir. Nəzərə almaq lazımdır ki, Azərbaycan dövləti sözügedən sahə üzrə möhkəm bünövrəyə sahibdir. Prezidentin 19 mart 2025-ci il sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" iqtisadiyyatın rəqabətliliyinin artırılması, süni intellektin tətbiqi üçün əlverişli mühitin yaradılması, kadr potensialının formalaşdırılması və cəmiyyətin məlumatlandırılması kimi 4 əsas məqsədi daşıyır.

Strateji sənəd süni intellektin biznesə, dövlət idarəçiliyi və ictimai sektora inteqrasiyasına, etik tənzimləmənin gücləndirilməsinə, yüksək performanslı hesablama (HPC) və milli data infrastrukturlarının inkişafına istiqamətlənib. Strategiyanın konkret icra planında 2025–2028-ci illər üçün 30-dan çox tədbir, məsul dövlət qurumları, nəticə göstəriciləri və maliyyələşmə mənbələri göstərilib. Hədəflər sırasında ölkədə fəaliyyət göstərən süni intellekt şirkətlərinin sayının artımı, yüksək səviyyəli kadr hazırlığı, innovativ tədqiqatların dəstəklənməsi və beynəlxalq normalara uyğunluğun təmin edilməsi var.

Daha bir məqam isə şübhəsiz ki, "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya"nın təsdiqlənməsidir. Strategiya rəqəmsal transformasiyanı koordinasiya etməklə ölkənin İKT, elektron ticarət, kibertəhlükəsizlik və innovasiyalar sahəsində inkişafını hədəfləyir. Strateji sənəd GenAI (generativ süni intellekt) istifadəsinin iqtisadi təsiri üçün ambisiyalı hədəflər müəyyən edib.

Strategiyanın əsas təşəbbüsləri Azərbaycan iqtisadiyyatının rəqəmsal transformasiyasını sürətləndirməyə, innovasiya və startap ekosistemini gücləndirməyə, yüksəkixtisaslı kadr hazırlığını təmin etməyə və data əsaslı qərarverməni optimallaşdırmağa yönəlib. Bu tədbirlər nəticəsində məhsuldarlığın artırılması, rəqəmsal xidmətlərin inkişafı, yeni biznes və iş yerlərinin yaradılması, eləcə də Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi hədəflənir.

Ölkə başçısının sədrliyi ilə keçirilən müşavirə əslində, Azərbaycanın innovasiya baxımından qurduğu möhkəm təməl üzərində dayanıqlı gələcəyin inşa edilməsi məqsədi daşıyır. Məlumdur ki, cənab İlham Əliyevin dövrün tələblərini və beynəlxalq təcrübəni ölkəmizdə tətbiq etməsi artıq ənənə halını halıb. Belə bir vəziyyətdə süni intellekt, rəqəmsallaşma kimi məsələlərə məsuliyyətli yanaşma regionda və qlobal aləmdə ölkəmizin imicini bir qədər də yaxşılaşdıracaqdır.

Müşavirədə də qeyd edildiyi kimi, son illərdə rəqəmsal sahələrdə formalaşan əlavə dəyər artıq statistik göstərici olmaqdan çıxaraq iqtisadi dinamikanın əsas lokomotivinə çevrilir. Ötən ilin nəticələri də bu tendensiyanı aydın şəkildə ortaya qoyur. Ölkəmizdə nəqliyyat sektorunda 5 faizlik artım qeydə alınıbsa, informasiya-kommunikasiya texnologiyaları sahəsində bu göstərici təxminən 8,5 faizə yüksəlib. Bu rəqəmlər iqtisadi strukturun mərhələli transformasiyasının göstəricisidir.

Artıq dünya miqyasında rəqəmsal iqtisadiyyat ənənəvi sahələri geridə qoyaraq yeni dəyər zənciri formalaşdırır. Kapital, resurs və insan potensialı getdikcə daha çox texnologiya əsaslı platformalara yönəlir. Xüsusilə süni intellekt bu prosesin mərkəzində dayanır. Hesablamalara görə, 2030-cu ilə qədər süni intellekt texnologiyalarının qlobal iqtisadiyyata təxminən 16 trilyon ABŞ dolları həcmində əlavə dəyər qazandıracağı gözlənilir. Bu isə bəşəriyyətin iqtisadi tarixində yeni mərhələnin başlandığını göstərir.

***Ekspert rəyi***



**Bəhruz ƏLİYEV,**
**İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı**

Rəqəmsal arxitektura informasiya sistemlərinin, platformalarının və rəqəmsal xidmətlərinin vahid və ya xüsusi məntiq və standart infrastruktur üzərində qurulması kimi mənaları ehtiva edir. Yəni rəqəmsal ekosistem yaratmaq anlamına gələn ifadələrdəndir. Bəzi kompanentlərini də sadalamaq olar ki, bura Texnoloji təbəqə, Məlumat arxitekturası, Təhlükəsizlik və etibarlılıq, İdarəetmə və standartlar kimi anlayışlar daxildir. Rəqəmsal arxitekturanı bir növ rəqəmsal onurğa sütunu hesab etmək olar.

Ona görə də zamanla köhnə sistemlərin mərhələli modernləşməsinə ehtiyac yarana bilər. Texnoloji yeniliklər və inkişaf vahid standartlara uyğunlaşma və kadrların təkmilləşdirilməsini də istisna etməyə bilər. Data mərkəzlərinin qurulması həm də milli kibersüverenliyin predmentlərindən biridir.

Daha sürətli xidmətlər, regional data hub olma potensialı, Bulud xidmətləri bazarının inkişafı kimi məsələlərdə ciddi faydaları ola bilər. Eyni zamanda, məlumatların ölkə daxilində saxlanması, Xarici platformalardan texnoloji asılılığın azalması, Kiberhücumlara qarşı dayanıqlılıq, süni intellekt alətləri serverlərinin yerləşməsi kimi məsələlərdə ciddi xidmət edə bilər. Bütün bu anlayışlar və məsələlər əslində rəqəmsal dəyər ifadə edir. Bu da dünyanın texnoloji inkişafının gətirdiyi inkaredilməz və əhəmiyyətli bir dəyəridir.

***Nurlu ABDALOV***
***XQ***

# "Əsrin müqaviləsi"nin baş quruculuq meydanı

*(əvvəli 1-ci səhifədə)*

"bp-Azərbaycan" şirkətinin məlumatına əsasən, 2025-ci ildə "Əsrin müqaviləsi" çərçivəsində tikinti-quraşdırma, qazma və hasilatla bağlı əməliyyatlar uğurla davam etdirilib. İl ərzində konsorsium iştirakçıları tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 564 milyon dollar, əsaslı məsrəflərinə isə 1 milyard 288 milyon dollar xərclənib.

Yeri gəlmişkən, ötən il AÇG layihəsi üçün əlamətdar hadisələrlə yadda qalıb. Fevralın 18-də "Mərkəzi Azəri" platformasından ilk neftin əldə edilməsinin 20 ili tamam olub. Xatırladaq ki, "Əsrin müqaviləsi" çərçivəsində böyük neft hasilatına başlanması üçün imkan yaratmış həmin platformadan indiyədək, ümumilikdə, 1,2 milyard barel (157 milyon ton) neft hasil edilib. Bu nəticə ilə "Mərkəzi Azəri" AÇG platformaları arasında ən yüksək hasilat göstəricisinə malikdir. Dekabrın 30-da isə "Qərbi Azəri" platformasının 20 yaşı tamam olub. Həmin platformadan isə indiyədək 1 milyard bareldən (142 milyon ton) çox neft hasil edilib.

2025-ci ildə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda aparılan 4 ölçülü yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində əvvəlki ildə əldə olunmuş məlumatların emalı uğurla tamamlanıb, növbəti il üçün məlumatların toplanması işləri başa çatdırılıb. Bundan əlavə, müqavilə sahəsinin "Dərinsulu Günəşli" ərazisində bir çox quyularda sualtı müdaxilə əməliyyatlarına başlanıb.



Həmin işlər üçün bp-nin Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə texnologiyası tətbiq olunur. "Blue Ocean" dikborusuz müdaxilə sistemi kimi tanınan bu texnologiya "Oceaneering International" şirkətinin sualtı mexaniki zəncir vasitəsilə quyuya müdaxilə sistemidir. Bu innovativ yanaşma təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan verəcək, yatağın bundan sonrakı potensialının üzə çıxarılmasına kömək edəcək.

Yarımdalma qazma qurğularından asılılığı azaltmaq və sualtı müdaxilələrin daha erkən həyata keçirilməsini təmin etmək üçün bu proqram Xəzərdə ilk dəfə tətbiq olunan daha bir yenilikdən–gəmidən icra olunan müdaxilə üsulundan istifadə edir. Bunun üçün dikborusuz yüngül müdaxilə sistemi "Xankəndi" sualtı tikinti gəmisi üzərinə inteqrasiya edilib və bütün quyu müdaxilələri birbaşa həmin gəmidən icra olunur. Bu proqram çərçivəsində dəniz əməliyyatlarının cari ilin sonunadək bitəcəyi gözlənilir.

bp şirkətinin illik hesabatına əsasən, 2025-ci ildə AÇG-dən sabit hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. Ötən il 7 hasilat platforması vasitəsilə gündə orta hesabla 330 min barel və ya ümumilikdə, təxminən, 120 milyon barel, yəni 16 milyon ton neft çıxarılıb. Ümumi hasilatın 21 min bareli "Çıraq", 90 min bareli "Mərkəzi Azəri", 76 min bareli "Qərbi Azəri", 43 min bareli "Şərqi Azəri", 51 min bareli "Dərinsulu Günəşli", 24 min bareli "Qərbi Çıraq" və 25 min bareli "Azəri-Mərkəzi-Şərqi" platformalarının payına düşüb. İl ərzində AÇG-də ümumilikdə, 147 hasilat, 49 su və 10 qaz injektor quyusu istismarda olub.

Xatırladaq ki, "Əsrin müqaviləsi"nə əsasən, AÇG-dən neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan dövlətinə çatır. Ötən il Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə, 2,7 milyard kubmetr səmt qazı Azərbaycanın qazpaylama sitemınə təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi isə lay təzyiqini sabit saxlamaq məqsədilə yenidən kollektora vurulub.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. İl ərzində müqavilə sahəsində 10 neft hasilatı, 5 su və 1 qaz injektor quyusu, eləcə də şlamların yenidən laya vurulması üçün 1 quyu tamamlanaraq istismara daxil edilib.

AÇG üzrə mövcud hasilatın pay bölgüsü sazişinə sərbəst təbii qazla bağlı yeni əlavənin imzalanmasından sonra planlaşdırılmış ilkin hasilat quyusunun qazılması başa çatdırılıb. "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılmış həmin quyu qiymətləndirmə baxımından da çox əhəmiyyətlidir. Çünki buradan əldə edilən məlumatlar AÇG-dəki sərbəst təbii qaz ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına imkan yaradacaq.

Bununla yanaşı, 2025-ci ildə quyuda qazma işləri uğurla bitmiş və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet sərbəst təbii qaz layına–daha dayaz Qırmakıüstü Qumlu və daha dərin Qırmakıaltı lay dəstlərinə çıxış təmin edilib. Quyu ilk sərbəst təbii qaz hasilatı üçün əsas hədəf lay sayılan Qırmakıüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib. Bu laydan hasilata isə cari ilin ikinci yarısında başlanması planlaşdırılır.

Eyni zamanda, Qırmakıaltı lay dəstində də yüksəktəzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilib və cari ilin birinci yarısında bu laydan hasilata başlanması nəzərdə tutulur. Lakin bu, sınaq məqsədilə aparılacaq qısamüddətli hasilat kimi nəzərdə tutulduğundan ilin ikinci yarısından başlayaraq daha dayazda yerləşən Qırmakıüstü Qumlu layından hasilata keçiləcək.

Xam nefti dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri, əvvəlki dövrlərdə olduğu kimi, 2025-ci ildə də fəaliyyətini uğurla davam etdirib. "bp-Azərbaycan" şirkətinin ilin yekunlarına dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 131 milyon dollar, əsaslı məsrəflərinə isə 98 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş, təqribən, 27 milyon ton (təxminən 207 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 283 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC boru kəməri vasitəsilə 2025-ci ilin sonunadək 619 milyon tondan çox (4,7 milyard barel) xam neft nəql edilib. Xam neft Ceyhanda 6145 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın ölkədə hasil edilmiş digər həcmləri) də nəql olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İlin ilk gəlir uğuru

**Yanvar ayında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 37 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb.**



Maliyyə Nazirliyindən bildirilib ki, cari ilin yanvar ayı ərzində dövlət büdcəsinin gəlirləri 3 milyard 707,3 milyon manat təşkil edib ki, bu da aylıq proqnozu 32 milyon manat və ya 0,9 faiz üstələyib.

Dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 2 milyard 50,3 milyon manat təşkil edərək proqnozdan 50,3 milyon manat və ya 2,5 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 487 milyon manat təşkil edərək proqnozdan 2 milyon manat və ya 0,4 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 4,9 milyon manat təşkil edərək proqnozdan 0,2 milyon manat və ya 4,4 faiz, sair daxilolmalar 31 milyon manat təşkil edərək proqnozdan 3,1 milyon manat və ya 11,2 faiz çox, Dövlət Neft Fondundan transfert isə 1 milyard 70 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 64,1 milyon manat təşkil edərək proqnoza qarşı 73,1 faiz icra olunub.

Yanvar ayında dövlət büdcəsinin xərcləri 1 milyard 500 milyon manat proqnoza qarşı 1 milyard 437,6 milyon manat məbləğində icra edilib ki, bu da 95,8 faiz təşkil edir.

2026-cı ilin yanvar ayı ərzində icmal büdcənin gəlirləri 4 milyard 411,9 milyon manat, xərcləri isə 1 milyard 717,5 milyon manat məbləğində icra edilib.

***XQ***

# İnformasiya təhlükəsizliyinin peşəkarlıq təminatı

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti informasiya təhlükəsizliyi sahəsində çalışan insan resurslarının inkişafı, peşəkar bilik və bacarıqların ölçülə bilən meyarlar əsasında qiymətləndirilməsi, habelə sahə üzrə əsaslı biliklərin sistemli şəkildə idarə olunması məqsədilə İnsan Resurslarının İntellektual Qiymətləndirmə Sistemini tətbiq edib.**



Yeni Sistem dövlət qurumlarında informasiya təhlükəsizliyi və texnologiyaları istiqamətində fəaliyyət göstərən əməkdaşlarının peşəkar hazırlıq və bilik səviyyələrinin, peşə səriştələrinin və funksional bacarıqlarının müasir qiymətləndirmə alətləri vasitəsilə yoxlanılaraq qiymətləndirilməsini təmin edir. Qiymətləndirmə nəticələrinə əsasən sözügedən mütəxəssislərin müvafiq səriştə səviyyələrinin yüksəldilməsi üçün uyğun təlimlər keçirilərək nəticələrini əks etdirən sertifikatların təqdim olunması nəzərdə tutulur. Bu yanaşma sahə üzrə peşəkar standartların vahid platforma üzərindən formalaşdırılmasına və insan resurslarının keyfiyyət göstəricilərinin institusional səviyyədə ölçülməsinə xidmət edir.

Sistem vasitəsilə ilkin mərhələdə Energetika Nazirliyi və Strateji Obyektlərinin Mühafizəsi Dövlət Agentliyinin müraciətlərinə əsasən həmin dövlət qurumlarının informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən əməkdaşlarının sahə üzrə bilik və bacarıq səviyyələri qiymətləndirilib. Sözügedən qurumlarının sahə üzrə çalışan əməkdaşları üçün ikihəftəlik təlim proqramlarına başlanılıb. Təlimlər Bakı Ali Neft Məktəbində yeni istifadəyə verilmiş "İnformasiya Təhlükəsizliyi Testləri" laboratoriyasında həyata keçirilir.

***XQ***

# İsmayıllıda zəlzələ olub

**Fevralın 12-də İsmayıllı seysmoloji stansiyasından 17 kilometr şimal-qərbdə - İsmayıllı rayonunda zəlzələ qeydə alınıb.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Bildirilib ki, maqnitudası 3,2 olan zəlzələ yerli vaxtla saat 17:54-də qeydə alınıb.

Zəlzələlərin Tədqiqatı Bürosunun məlumatına əsasən, zəlzələ ocağının dərinliyi 18 kilometr olub. Yeraltı təkanlar hiss edilməyib.

***XQ***

# Azərbaycanın dövlət qurumları “mygov” vahid rəqəmsal platformasına keçir

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunan müşavirədə dövlətimizin başçısı ölkəmizin rəqəmsal inkişaf strategiyasında keyfiyyətcə yeni mərhələnin başlandığını diqqətə çatdırmaqla yanaşı, son illər müxtəlif nazirliklər və dövlət qurumları tərəfindən ayrı-ayrı platforma və tətbiqlərin yaradıldığını, bundan sonra isə bu prosesin koordinasiyalı və vahid yanaşma əsasında aparılmasının daim diqqətdə saxlanılmasının zəruriliyini xüsusi vurğulayıb.**

Azərbaycan lideri bu baxımdan dövlət xidmətlərinin vahid mərkəzdən – “mygov” platforması üzərindən təqdim edilməsinin həm dövlət idarəçiliyinin səmərəliliyinin artmasına müsbət təsir göstərəcəyini, həm də vətəndaşlar üçün daha rahat və əlçatan xidmət mühiti formalaşacağını xatırladıb.

Dövlət başçısı bildirib ki, vətəndaşlara lazım olan bütün xidmətlər bir ünvandan göstərilməli və mövcud platformaların üstünlükləri, əldə edilmiş təcrübə və bu sahədə formalaşmış kadr potensialı vahid sistem çərçivəsində səfərbər edilməlidir. Prezident İlham Əliyevin bu yanaşması Azərbaycanın rəqəmsal transformasiyasının institusional əsaslarının yenidən qurulmasını və dövlət xidmətlərinin yeni idarəetmə fəlsəfəsi üzərində formalaşdırılmasını nəzərdə tutur.

Müşavirədə vurğulandığı kimi, “mygov” platforması artıq respublikada yeni fəlsəfə əsasında istifadəçilərin xidmətinə təqdim edilib və bu istiqamətdə mühüm nəticələr əldə olunub. Statistik göstəricilərlə bu prosesin dinamik xarakter daşıması təsdiqlənib. Belə ki, ötən ilin sonunda platformadan istifadə edənlərin sayı 2,2 milyon nəfər idisə, cari ilin yanvar ayının sonuna bu göstərici, təxminən, 2,5 milyon nəfərə yüksəlib. İlin sonuna qədər istifadəçi sayının isə, təxminən, 5 milyona çatdırılması hədəflənib.

Bu artımın əsas səbəbi rəqəmsallaşmanın mahiyyət etibarilə dəyişməsi ilə, yəni sənəd və qurum mərkəzli yanaşmadan həyat hadisələri yanaşmasına keçid ilə bağlıdır. Yeni modeldə vətəndaşın ehtiyacları və həyatında baş verən əsas hadisələr (doğum, nikah, təhsil, məşğulluq, sosial təminat və s.) xidmətlərin təşkilində əsas meyar kimi qəbul edilir.

Toplantıda bu yanaşmanın praktik nəticəsi konkret nümunə ilə izah edilib. Məsələn, əvvəllər vətəndaşın övladı doğulduqda bir neçə dövlət qurumuna ayrı-ayrılıqda müraciət etməsi tələb olunurdu. O, əvvəlcə tibb müəssisəsindən arayış alır, sonra həmin sənədi fiziki şəkildə Ədliyyə Nazirliyinə təqdim edir, doğum şəhadətnaməsini aldıqdan sonra Dövlət Sosial Müdafiə Fonduna üz tuturdu. Nəhayət, Daxili İşlər Nazirliyinə sənəd təqdim edərək şəxsiyyət vəsiqəsi alırdı. Bu proses həm vaxt itkisinə, həm də əlavə inzibati yükə səbəb olurdu.

Hazırda isə proses tamamilə fərqli mexanizm əsasında həyata keçirilir. Klinikada doğumla bağlı məlumat sistemə daxil edildikdən sonra məlumat avtomatik şəkildə Ədliyyə Nazirliyinə ötürülür. Nazirlik vətəndaşı elektron qaydada məlumatlandırır və övladına ad vermək, soyad seçmək imkanları təqdim edir. Daha sonra məlumat proaktiv şəkildə Dövlət Sosial Müdafiə Fonduna ötürülür və müavinət vətəndaşın əlavə müraciəti olmadan təyin edilərək onun bank kartına köçürülür. Növbəti mərhələdə isə şəxsiyyət vəsiqəsinin alınması prosesi də rəqəmsal şəkildə gerçəkləşdirilir.

Bu model dövlət xidmətlərinin təqdimatında yeni fəlsəfənin – proaktiv və vətəndaş mərkəzli yanaşmanın formalaşdığını göstərir. Əslində, bu transformasiya yalnız texnoloji yenilik deyil, həm də dövlət idarəçiliyinin yenidən konseptual şəkildə qurulmasıdır.

Müşavirədə vurğulanan əsas məsələlərdən biri də dövlət qurumlarında rəqəmsallaşma prosesinin qeyri-bərabər aparılması ilə bağlıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bəzi qurumlarda sənədlərin hələ də kağız formatında saxlanılması, rəqəmsallaşmanın prioritetləşdirilməməsi, məlumatların pərakəndə və fərdi standartlarla idarə olunması ölkənin rəqəmsal inkişaf perspektivləri üçün ciddi risklər yaradır.

Bu problemlər daha çox gələcəkdə Azərbaycanın rəqəmsal iqtisadiyyatının əsas elementlərindən biri olan verilənlər hövzəsinin – “Data lake”in formalaşdırılmasını çətinləşdirir. Xatırladaq ki, “Data lake” yalnız böyük həcmdə məlumatların toplanması deyil, həm də onların vahid standartlar əsasında strukturlaşdırılması və analitik məqsədlər üçün istifadəsini nəzərdə tutur. Bu isə süni intellekt texnologiyalarının səmərəli tətbiqi üçün əsas şərtlərdən biridir. Başqa sözlə, dövlət xidmətlərinin vahid platformada inteqrasiyası təkcə vətəndaşlara rahatlıq yaratmaqla məhdudlaşmır, eyni zamanda, ölkənin rəqəmsal suverenliyinin, texnoloji müstəqilliyinin və innovasiya potensialının gücləndirilməsi üçün strateji əhəmiyyət daşıyır.

Rəqəmsal hökumət sahəsində mühüm yeniliklərdən biri də vətəndaşların “mygov” platforması üzərindən dövlət qurumlarına rəsmi məktub göndərmək imkanının yaradılmasıdır. Eyni zamanda, dövlət qurumları da vətəndaşlara rəsmi məktub və bildirişlər ünvanlaya bilir. Belə bir önəmli layihə isə vətəndaşlara rəsmi müraciətlərin hazırlanması və təqdim olunması prosesini sadələşdirir. Vətəndaşlar “mygov” vasitəsilə sorğu başlatmaq, məlumat və ya hər hansı məsələ ilə bağlı aydınlıq əldə etmək üçün dövlət qurumlarına elektron qaydada müraciət ünvanlaya bilirlər. Yeri gəlmişkən, “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qurumları vətəndaş müraciətlərini ən geci 15 iş günü ərzində, əlavə araşdırma tələb olunduğu hallarda isə 30 gün müddətində cavablandırmalıdır.



Prosesin mexanizmi sadə və funksionaldır. İstifadəçi “mygov”un ana səhifəsində yerləşən xüsusi məktub işarəsi və ya “Daha çox” bölməsi vasitəsilə “Dövlət qurumlarına rəsmi məktub” funksiyasına daxil olur, burada müraciət yaradaraq məktubun ünvanlanacağı qurumu, başlığını və məzmununu diqqətə çatdırır. Zərurət olduqda isə əlavə sənədlər yükləyir, məlumatlar təsdiqləndikdən sonra müraciət SİMA və ya “ASAN rəqəmsal” imza vasitəsilə seçilmiş dövlət qurumuna göndərilir. Bundan sonra isə məktublar “Göndərilən” bölməsində saxlanılır, vətəndaş müraciətin statusunu real vaxt rejimində izləyə bilir. Dövlət qurumlarından daxil olan məktublar isə “Gələn” bölməsində əks olunur. Bu sistem “Vətəndaş – Dövlət” və “Dövlət – Vətəndaş” kommunikasiya modelinin rəqəmsal müstəvidə sabitləşir və rəsmi təşkilatlar (dövlət, qanunlar, ictimai qurumlar) tərəfindən dəstəklənir. Eyni zamanda, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təqdim etdiyi Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi vasitəsilə həyata keçirilir.

İndiyədək bu funksiya çərçivəsində sistemə inteqrasiya olunan dövlət qurumlarının sayı davamlı şəkildə yüksəlib və yaxın vaxtlarda bütün qurumların inteqrasiyasının tamamlanacağı proqnozlaşdırılıb. Platforma üzərindən ilk ay ərzində, təxminən, 11 min məktub mübadiləsi həyata keçirilib. Ən çox məktub göndərən qurumlar sırasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ön mövqedə qərarlaşıb. Vətəndaşlar isə əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi və Ədliyyə nazirlikləri, eləcə də “ASAN Xidmət”ə müraciət ediblər.

Azərbaycanın rəqəmsal transformasiyası artıq yalnız texnoloji layihə deyil, dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib. “mygov” platforması bu siyasətin mərkəzi elementi kimi çıxış edir. Vahid rəqəmsal arxitektura konsepsiyası isə dövlət idarəçiliyində “müxtəlif yerlərə səpələnmə” yanaşmasından sistemli və inteqrasiya olunmuş modelə keçidi gerçəkləşdirməyi hədəfləyir. Bu baxımdan, rəqəmsal hökumət modeli yalnız xidmətlərin elektronlaşdırılması ilə məhdudlaşmır. O, həm də dövlət qurumları arasında məlumat mübadiləsinin optimallaşdırılması, idarəetmə qərarlarının data əsaslı reallaşdırılması, süni intellekt və böyük verilənlər texnologiyalarının tətbiqi, eləcə də vətəndaşların dövlət idarəçiliyində iştirak imkanlarının genişləndirilməsi kimi strateji məqsədləri əhatə edir.

Prezident İlham Əliyevin “vahid mərkəz” ideyası isə, əslində, Azərbaycan üçün yeni inkişaf modelinin konturlarını müəyyənləşdirir. Bu modeldə dövlət xidmətləri texnoloji platformalar üzərində deyil, vahid rəqəmsal ekosistem çərçivəsində formalaşır. Bu isə uzunmüddətli perspektivdə ölkənin iqtisadi rəqabət qabiliyyətinin yüksəldilməsinə, innovasiya potensialının gücləndirilməsinə və vətəndaş rifahının artırılmasına xidmət edir.

Bu məqamda bir məsələyə də toxunmaq yerinə düşər. Belə ki, Azərbaycanın rəqəmsal transformasiya strategiyası qlobal təcrübə ilə müqayisədə də diqqətəlayiqdir. Məsələn, Estoniya modeli dövlət xidmətlərinin 99 faizinin elektronlaşdırılması ilə tanınır. Bu ölkədə “X-Road” platforması dövlət qurumları arasında məlumat mübadiləsinin əsas infrastrukturunu təşkil edir. Sinqapur “Smart Nation” konsepsiyası çərçivəsində rəqəmsal hökuməti milli təhlükəsizlik və iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsinə çevirib. Cənubi Koreyada isə dövlət xidmətlərinin rəqəmsallaşdırılması sənaye siyasəti ilə paralel şəkildə aparılır. Azərbaycan modeli isə bu təcrübələrin sintezi kimi qiymətləndirilə bilər. Çünki “mygov” platforması Estoniyanın inteqrasiya prinsipinə, Sinqapurun strateji planlaşdırmasına və Koreyanın innovasiyayönümlü yanaşmasına yaxın bir konsepsiya üzərində qurulur.

Beləliklə, “Azərbaycanın yeni rəqəmsal arxitekturası” konsepsiyası ölkənin rəqəmsal inkişafında yeni mərhələnin başlanğıcını ifadə edir. “mygov” platformasının genişlənməsi, proaktiv xidmət modelinin tətbiqi, “data lake” və süni intellekt üçün infrastrukturun formalaşdırılması, dövlət-vətəndaş kommunikasiya mexanizmlərinin rəqəmsallaşdırılması Azərbaycanı regional miqyasda rəqəmsal dövlət modelinə yaxınlaşdırır.

Bu prosesin uğuru isə yalnız texnoloji həllərdən ibarət deyil, həm də institusional islahatlardan, koordinasiyalı idarəetmədən və vahid strateji baxışdan asılıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan yeni rəqəmsal arxitektura məhz bu baxışın konseptual ifadəsidir və Azərbaycanın gələcək inkişafında strateji üstünlük rolunu oynamaq potensialına malikdir.

***Vaqif BAYRAMOV***
***XQ***

*2026 – “Şəhərsalma və Memarlıq İli”*

# Dünya Şəhərsalma Forumu və Azərbaycanın hədəfləri

**Müasir dövrdə şəhərsalma və məskunlaşma prosesləri yalnız ərazi-planlaşdırma və tikinti fəaliyyəti ilə məhdudlaşmır, dövlət idarəçiliyinin səmərəliliyini, institusional koordinasiyanı və hüquqi tənzimləmənin keyfiyyətini müəyyən edən kompleks ictimai münasibətlər sistemi kimi çıxış edir. Qlobal miqyasda şəhərləşmə səviyyəsinin yüksəlməsi, sosial-iqtisadi diferensiasiyanın dərinləşməsi, mənzil təminatı sahəsində struktur böhran və iqlim risklərinin artması şəhərsalma siyasətinin hüquqi və idarəetmə aspektlərini ön plana çıxarıb.**




## Şəhərsalma münasibətlərinə hüquqi və inzibati yanaşma

XXI əsrdə şəhərlər ictimai münasibətlərin məkan ifadəsi olmaqla yanaşı, dövlətin sosial, iqtisadi və ekoloji funksiyalarının icra olunduğu əsas inzibati-ərazi vahidlərinə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatının rəsmi statistik məlumatlarına əsasən, hazırda dünya əhalisinin əksəriyyəti şəhər tipli yaşayış məntəqələrində məskunlaşmışdır və bu tendensiyanın yaxın onilliklərdə daha da intensivləşəcəyi proqnozlaşdırılır. Bu proses şəhərsalma sahəsində aşağıdakı hüquqi nəticələri doğurur:

–dövlətin mənzil təminatı üzrə sosial öhdəliklərinin genişlənməsi;

–yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının səlahiyyət dairəsinin yenidən qiymətləndirilməsi;

–şəhərsalma qərarlarının hüquqi legitimliyi və icra mexanizmlərinin gücləndirilməsi zərurəti.

Beləliklə, şəhərsalma problemi öz mahiyyətinə görə idarəetmə və hüquqi tənzimləmə problemidir.

## Dünya Şəhər Forumunun hüquqi və təşkilati statusu

Dünya Şəhər Forumu 2002-ci ildə BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) çərçivəsində təsis edilib. Forum beynəlxalq müqavilə hüququ subyekti olmasa da, beynəlxalq “yumşaq hüquq” (soft law) mexanizmləri kontekstində mühüm rol oynayır. Dünya Şəhər Forumunun (WUF) institusional xüsusiyyətləri aşağıdakılardır:

–hüquqi baxımdan tövsiyə xarakterli sənədlərin formalaşdırılması;

–dövlətlərin şəhərsalma siyasətinə dair normativ yanaşmalarının uzlaşdırılması;

–milli hüquq sistemlərinə adaptasiya edilə bilən model və konsepsiyaların təşviqi.

Bu baxımdan WUF norma yaradan deyil, normativ davranış standartlarını formalaşdıran beynəlxalq platforma kimi xarakterizə olunur.

## Dünya Şəhər Forumunun hüquqi təsiri

WUF-un hüquqi təsiri birbaşa normativ aktların qəbulunda deyil, aşağıdakı sahələrdə özünü göstərir:

–milli şəhərsalma qanunvericiliyinin konseptual yenilənməsi;

–yerli idarəetmə orqanlarının hüquqi statusunun gücləndirilməsi;

–inzibati qərarların əsaslandırılmasında elmi-analitik yanaşmaların tətbiqi.

Bu səbəbdən WUF beynəlxalq normativ davranış modeli formalaşdıran mexanizm kimi qiymətləndirilə bilər.

## WUF-13-ün Bakıda keçirilməsinin hüquqi və strateji əsasları

Azərbaycan Respublikasının WUF-13-ə ev sahibliyi etməsi aşağıdakı hüquqi-strateji amillərlə əsaslandırılır:

–ölkənin regional səviyyədə nəqliyyat, iqtisadi və inzibati əlaqələndirici funksiyası;

–postmünaqişə dövründə ərazilərin bərpası və yeni şəhərsalma modellərinin tətbiqi təcrübəsi;

–Yeni Şəhərsalma Gündəliyinin icrasının onillik mərhələsi ilə üst-üstə düşməsi.

Bu məsələlər Bakını beynəlxalq şəhərsalma siyasətinin praktiki tətbiq mühiti kimi təqdim edir.

## Azərbaycanın şəhərsalma hədəfləri

Azərbaycan WUF-13 çərçivəsində aşağıdakı strateji məqsədləri irəli sürür:

–şəhərsalma siyasətinin dövlət idarəçiliyinin institusional komponenti kimi hüquqi təsbit edilməsi;

–dövlət qulluqçularının şəhərsalma və məskunlaşma sahəsində ixtisaslaşmış hazırlıq sisteminin yaradılması;

–icrayönümlü və ölçülə bilən tövsiyələrin formalaşdırılması;

–beynəlxalq təcrübənin milli hüquq sisteminə adaptasiyası.

Aparılan təhlil göstərir ki, Dünya Şəhər Forumu şəhərsalma siyasətinin beynəlxalq səviyyədə normativ düşüncə çərçivəsinin formalaşmasında, dövlətlərin bu sahədə hüquqi və institusional yanaşmalarının uzlaşdırılmasında mühüm rol oynayan çoxtərəfli platforma kimi çıxış edir. WUF hüquqi baxımdan məcburedici mexanizm yaratmasa da, beynəlxalq “yumşaq hüquq” alətləri vasitəsilə dövlətlərin şəhərsalma sahəsində siyasət dizaynına, normativ aktların hazırlanmasına və idarəetmə modellərinin yenilənməsinə real təsir göstərir. Bu xüsusiyyət WUF-u klassik konfrans formatından çıxararaq qlobal şəhərsalma siyasətinin intellektual və institusional istinad nöqtəsinə çevirir.

## “WUF-13 Bakı” strateji mexanizmdir

Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsi Azərbaycan üçün yalnız beynəlxalq tədbirə ev sahibliyi etmək anlamı daşımır, əksinə, şəhərsalma siyasətinin milli dövlət idarəçiliyi sistemində yenidən konseptuallaşdırılması üçün strateji imkan yaradır. Forum şəhərsalma məsələlərinin deklarativ, layihə və sektor səviyyəli müzakirə predmetindən çıxarılaraq hüquqi tənzimləmə, inzibati məsuliyyət və icra mexanizmləri müstəvisinə keçirilməsini stimullaşdırır. Bu, şəhərsalma münasibətlərinin dövlətin sosial, iqtisadi və ekoloji funksiyalarının icrası ilə bilavasitə əlaqələndirilməsinə şərait yaradır.

Eyni zamanda, WUF-13 prosesi şəhərsalma siyasətinin mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünün, institusional koordinasiyanın və hesabatlılıq mexanizmlərinin yenidən qiymətləndirilməsi üçün hüquqi əsas formalaşdırır. Bu kontekstdə forumun nəticələri şəhərsalma qərarlarının hazırlanması və icrasında hüquqi legitimliyin gücləndirilməsinə, qərarların elmi-analitik əsaslandırılmasına və dövlət qulluqçularının bu sahədə ixtisaslaşmış bilik və bacarıqlarla təmin olunmasına xidmət edə bilər.



Nəticə etibarilə, WUF-13 Azərbaycan üçün şəhərsalma siyasətinin normativ-hüquqi müstəvidə sistemləşdirilməsi, dövlət idarəçiliyində şəhərsalma münasibətlərinin institusional davamlılığının təmin edilməsi və bu sahənin uzunmüddətli strateji planlaşdırma çərçivəsinə inteqrasiyası baxımından dönüş nöqtəsi kimi çıxış edir. Forumdan irəli gələn tövsiyələrin və konseptual yanaşmaların milli hüquq sisteminə və inzibati praktikalara ardıcıl şəkildə transferi şəhərsalma sahəsində idarəetmə keyfiyyətinin yüksəldilməsinə, sosial ədalətin və ərazi balansının təmin edilməsinə, eləcə də dövlətin inkişaf strategiyalarının dayanıqlılığının artırılmasına real zəmin yaradır.

Beləliklə, WUF-13-ün Bakıda keçirilməsi şəhərsalma siyasətini yalnız qlobal diskursun predmeti kimi deyil, Azərbaycanın dövlət idarəçiliyində hüquqi, institusional və icra məsuliyyəti daşıyan sistemli fəaliyyət sahəsi kimi möhkəmləndirən strateji mexanizm rolunu oynayır.

***Kərəmət QƏNBƏROV,***
***Dövlət İdarəçilik Akademiyasının müəllimi***

# Qədim Şirvanda cavanlaşan, gözəlləşən Ağsu

**... Elə güman edirdim ki, rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov söhbətə həyata keçirilmiş sosial-iqtisadi yönümlü tədbirlər, icra olunmuş layihələr, müxtəlif sahələrdə əldə edilmiş uğurlar və konkret göstəricilər barədə danışacaq. Çünki həmin istiqamətdə nə qədər işlər görüldüyünü yaxşı bilirdim.**

Lakin rayon rəhbəri ictimai-siyasi məsələləri daha önə çıxartmağı məqsədəuyğun saydı:

– Ötən il şanlı Zəfər gününün beşinci ildönümünü böyük fəxarət hissi ilə qeyd etdik. Bu münasibətlə keçirilən hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi. Son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş Ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir.

Bu Qələbə dünyanın ən mötəbər ünvanı olan Amerika Birləşmiş Ştatlarının paytaxtında – dünyanın 1 nömrəli ofisi olan Ağ evdə ABŞ Prezidentinin iştirakı ilə təsdiqləndi. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır. Bu gün isə bütün ölkə üzrə geniş quruculuq işləri aparılır, hər bir bölgədə inkişaf müşahidə olunur.

## Gələn il bu şəhərin 60 yaşı tamam olacaq





Bu yerdə rayon rəhbərinin dediklərinə əlavə edək ki, Ağsuda dövlətimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin sayı 136, müharibə əlillərinin sayı 61, müharibə veteranlarının sayı isə 1161 nəfərdir. Onlara göstərilən diqqət və qayğı daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Əminliklə deyə bilərik ki, şəhid ailələrinin və qazilərin hamısının problemləri rayon rəhbərliyinin diqqət mərkəzindədir. Onlarla dəfələrlə görüşmüşəm. Həmişə ağızdolusu danışıblar. Onlara göstərilən diqqətdən razı qaldıqlarını bildiriblər.



*

Bu şəhərə istər Şamaxıdan, istər Kürdəmirdən, istərsə də Göyçaydan – hansı istiqamətdən gəlsəm də, fərq eləmir. Dərhal Şirvanın saz-söz ustadlarından olan Aşıq Şakirin "Kəndimiz" adlı qoşması və bu ulu ozanımızın unudulmaz səsi yada düşür.

***Qızıldır hər qarış torpağın, daşın,***
***Odur ki, dağlardan ucadır başın.***
***Şakirəm, hüsnünə min dastan qoşum,***
***Layiqsən şeirə, sözə, kəndimiz!***

Aşıq bu sətirləri doğulub böyüdüyü Xəlilli kəndi haqqında yazmışdı. O Xəlilli ki, ötən ilin dekabrında Ərəbmehdibəy kənd ərazi vahidinin tərkibindən çıxarılaraq yeni kənd statusu verilməsinin 25 ili tamam olmuşdu. O Xəlilli ki, rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırovun indi hesabatını vərəqlədiyimiz 2025-ci ildə sakinlərlə bir neçə dəfə görüşdüyü kəndlərdəndir.

Yadımdadır, ötən ilin avqustunda rayon rəhbərinin burada keçirdiyi səyyar qəbulda vətəndaşlar tərəfindən kənddə elektrik təchizatının yaxşılaşdırılması, yeni tibb məntəqəsinin tikilməsi, suvarma arxlarının bərpası, işlə təminat, ünvanlı dövlət sosial yardımın verilməsi ilə bağlı xahiş və təkliflər səsləndirilmişdi. Ən başlıcası, Xəlilli camaatı aşığın "Hüsnünə min dastan qoşmaq" istədiyi kəndin daha da abad və firavan olması üçün əllərindən gələni edir.

O da yadıma düşdü ki, mən 14 il əvvəl – 2012-ci il mart ayının 3-də "Xalq qəzeti"ndə verilmiş "Ağsuda Aşıq Şakir Hacıyevin 90 illiyi qeyd olunmuşdur" adlı yazıda Şirvan camaatının bu müqtədir ustada olan sevgisinin miqyasını qələmə almağa çalışmışdım. O vaxt akademik Rafael Hüseynov təkcə Aşıq Şakir haqqında deyil, bütövlükdə Ağsu haqqında necə danışmışdısa… sanki bu rayonu həmin gün yenidən tanımışdım.

Deyəsən, yazının girişi üçün qələmə aldığımız tarixi ekskurslar çox oldu. Ona görə də Ağsunun bu gününə diqqət yetirək. Sərlövhədə xatırlatdığımız kimi, bu rayonun müasir mənzərəsi də tarixi qədər zəngindir.

***

Rayon icra hakimiyyətinin başçısının 2025-ci ilin sosial-iqtisadi göstəriciləri ilə bağlı hesabatında göstərilir ki, son illər dövlət proqramlarının və konsepsiyalarının həyata keçirilməsi nəticəsində Ağsu rayonunda da müasir texnologiyalar əsasında yeni istehsal sahələri yaranıb, rayona cəlb edilmiş investisiyaların həcmi artıb: Məhz bunun nəticəsində yerli icra 2025-ci ildə Ağsu rayonuna özəl investisiya qoyuluşlarının həcmi, ümumilikdə, 94,1 milyon manat olub. Bunun 17,6 milyon manatı kənd təsərrüfatının, 5,2 milyon manatı ticarətin, 69,1 milyon manatı tikintinin, 2,2 milyon manatı isə digər xidmət sahələrinin inkişafına yönəldilib.

Xatırladaq ki, Ağsu həmişə ölkənin pambıqçılıq, taxılçılıq, üzümçülük, narçılıq və heyvandarlıq rayonlarından biri kimi tanınıb. Təbii ki, ən mühüm sahə taxılçılıqdır. Elə rayon rəhbərinin hesabatında da ilk xatırladılan istiqamət taxılçılıq idi. Ötən il rayonda buğda istehsalı 27 min 510 ton, arpa istehsalı 64 min 359 ton olmaqla hər hektardan məhsuldarlıq 33,1 sentner olub ki, bu da 2024-cü illə müqayisədə hər hektara 1,6 sentner çoxdur.

Yeri gəlmişkən, onu da vurğulayaq ki, Azərbaycan Prezidenti İlham Əliyev son zamanlar ölkədə yaradılan aqroparkların fəaliyyətinə xüsusi önəm verir. Həmin istiqamət Ağsuda da daimi diqqət mərkəzindədir. Məsələn, ötən il Ərəbsarvan kəndində ümumi ərazisi 1252 hektar olan "Ağsu Aqropark" Qapalı Səhmdar Cəmiyyətində torpaqların münbitliyinin artırılması üçün həyata keçirilən tədbirlər nəticəsində yüksək məhsuldar qarğıdalı, buğda, arpa kimi kənd təsərrüfatı məhsulları istehsal edilib.

Öyrəndik ki, həmin parkda müasir maşın və avadanlıqdan ibarət nəqliyyat-texnika parkı, yem zavodu, toxum fabriki, ətlik və südlük heyvandarlığın inkişafı məqsədilə kompleks fəaliyyət göstərir. 2024-2025 təsərrüfat ilində Aqroparkda 1192 ton buğda, 210 ton arpa, 318 ton dən üçün qarğıdalı, 3475 ton yaşıl kütlə qarğıdalı istehsal olunub. Eləcə də 1963 hektar sahədə fəaliyyət göstərən "Süsən Aqro" MMC-də 2024-2025 təsərrüfat ilində 1105 ton buğda, 1019 ton arpa və 643 ton dən üçün qarğıdalı istehsal edilib. Bundan başqa, ötən il rayonun iri fermer təsərrüfatları tərəfindən kənd təsərrüfatında tətbiq olunan mütərəqqi metod və texnologiyalara xüsusi önəm verilib. Bunun nəticəsidir ki, damcı suvarma sistemi 1115 hektara, pivot suvarma sistemi isə 3246 hektara çatdırılıb.

*

Üç-dörd il əvvəl hansısa yazıda qeyd etmişdim ki, Ağsu rayonu aranı da, dağı da olan rayonlarımızdan, Ağsu şəhəri isə mərkəzindən eyniadlı çayın keçdiyi şəhərlərimizdəndir. O zaman ağsulu həmkarlarımızdan biri soruşmuşdu ki, bəs Ağsu dolaylarını nə üçün demirsən? Axı 14 kilometr uzunluğunda olan həmin dolaylar uzun illərdir çoxsaylı bədii filmlərdə, ədəbi əsərlərdə, turist yazılarında öz əksini tapır.

Demişdim ki, təbiətin bu rayonun sakinlərinə bəxş etdiyi həmin gözəllik artıq ikinci plana keçmək üzrədir. Çünki bu gün insan əli Muğanlı – İsmayıllı yolunun Ağsu ərazisindən keçən hissəsində – Ağsuçayın üstündə və Sanqalan dağının altında, sözün həqiqi mənasında, möcüzəyəbənzər işlər aparır.

Mətbuatdan məlum olduğu kimi, həmin ərazidə Cənubi Qafqazın ən böyük asma körpüsünün tikintisi aparılır. Körpü Ağsuçay üzərindən, 4,5 kilometrlik Muğanlı – İsmayıllı – Qəbələ avtomobil yolunun üzərində tikilir. Bu möhtəşəm mühəndislik qurğusunun uzunluğu 1135 metr, yerdən hündürlüyü isə 76 metrdir. Bildirilir ki, yol adıçəkilən körpüdən sonra tuneldən keçəcək. Tikintisi başa çatmaqda olan tunelin uzunluğu isə nə az, nə çox düz 865 metr olacaqdır.

Bu tikintiyə hamıdan çox sevinənlərdən biri də mənəm. Çünki bölgə müxbiri kimi fəaliyyət göstərdiyim İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarına məhz bu yolla gedib gəlirəm. İndi həmin məsafəni həm xeyli tez başa vuracağam, həm də yolun bir kilometrdən çox hissəsinin 76 metr hündürlükdə qət edilməsinin özü gözəllik, romantika və adrenalin olacaq. Doğrudur, bu tikintiləri Ağsu rayonu yerinə yetirmir, amma o da faktdır ki, istənilən əcnəbi reportyor buradan hazırladığı materialda "Azərbaycanın Ağsu rayonunda yol-tikinti uğurları" ifadəsini mütləq dilə gətirəcək.

*

Rayonun iqtisadi göstəriciləri haqqında daha bir fakt: " Cənubi Qafqaz regionunda ən iri müəssisələrdən olan "Az-Granata" MMC-nin şirə və şərab emalı zavodunda ötən il 11 milyon 933 min kiloqram şirələr, 117,6 min dekalitr spirtli içkilər istehsal olunub. Bu göstəricilər 2024-cü illə müqayisədə şirə istehsalı üzrə 1 milyon 436 min kiloqram, spirtli içkilər üzrə 41,3 min dekalitr çoxdur. Müəssisənin məhsulları yerli bazarlarda satılmaqla yanaşı, dünyanın 11 inkişaf etmiş ölkəsinə də ixrac olunur. Bunların sırasında Amerika Birləşmiş Ştatları, Yaponiya, Almaniya, Kanada, Rusiya, Finlandiya, Belarus, Çin Xalq Respublikası, Avstraliya və digər ölkələr var.

*

Mirnemət Məmmədovla söhbət edirəm. Uzun illər bir yerdə işləmişik. Əslən Ağsunun Bozavand kəndindəndir. Atası Seyidağa Məmmədov uzun illər təsərrüfat rəhbəri olub. Rayonun sayılıb-seçilən bir ziyalısı kimi onun bir sözünü iki eləyən adama heç kəs rast gəlinməyib. Dəfələrlə görüşmüşdük. Bizi öz doğma balası kimi qarşılayardı. Ruhu şad olsun!

Mirnemət də təqaüdə çıxan kimi Bakıda qalmadı. Öz doğma yurd-yuvasına, Ağsuya qayıtdı. İndi burada yaşayır. Hər gedəndə mütləq görüşürəm. Rayonu o baş, bu baş gəzirik. Zövq alırıq. Hər dəfə söhbət düşəndə doğulduğu rayonun bugünkü günündən həvəslə danışır. Deyir ki, son illər Ağsuda görülən işlərə baxanda adamın ürəyi qürurla döyünür, hər yerdə yaradılmış gözəlliklərə baxıb heyran olursan.

Bu gün turistləri Ağsuya daha çox cəlb edən ünvanlardan biri də "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğudur. Dostum danışdı ki, cənab Prezidentin



22 oktyabr 2019-cu il tarixli "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" Sərəncamının üçüncü bəndi bizim üçün, sözün həqiqi mənasında, bayram bayram əhvali-ruhiyyəli xəbər idi. Həmin sənədin preambulasında deyilirdi ki, Azərbaycanın qədim və orta əsrlər tarixi Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayaraq yüzillər boyu bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr vermiş İpək Yolu ilə sıx şəkildə əlaqəlidir. Qədim şəhər yerləri, karvansaraylar, körpülər, qoruyucu qalaların qalıqları və memarlıq abidələri ilə zəngin Azərbaycan ərazisi bu gün də İpək Yolunun parlaq izlərini daşımaqdadır.



Mirnemət dediklərinə onu da əlavə etdi ki, cənab Prezidentin həmin sərəncamı ilə "Çıraqqala–Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu, "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu və Ağsu rayonunun tarixi ərazisi "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdi. 104 hektardan çox ərazini əhatə edən qoruq haqqında öyrəndiklərimizin hamısını qeyd etməyə imkan yoxdur. Ən yığcam olan məlumat isə bu cümlələrdən ibarətdir: **"Orta əsrlər Ağsu şəhəri XVIII əsrdə ərazisinə və əhalisinin sayına görə Azərbaycanın ən böyük şəhərlərindən biri idi.** 1735-ci ilin mayında Nadir şah tərəfindən Ağsu kəndi yaxınlığında tikdirilən qala uzun müddət bu bölgədə ən əhəmiyyətli iqamətgah olmuşdur. Nadir şahın bölgəyə təyin etdiyi hakimlər – Şirvan xanları bu qalada otururdular… XVIII əsrin məşhur səyyahları Samuel Qmelin, Biberşteyn, Bronevski və başqaları bu qala haqqında yazmışlar. Ağsuda iki dəfə taun xəstəliyi yayılmış, xeyli insan bundan vəfat etmişdi. Şirvan xanları dövründə Ağsuda sənətkarlıq, ticarət, mədəniyyət xeyli inkişaf etmişdi.

Bu da yurd, torpaq namusu olan bir ağsulunun dedikləri. Yəqin sizə də maraqlı oldu.

Bu tarixi faktları yada salandan sonra onu da əlavə edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə ölkəmizdə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Öyrəndik ki, bu məqsədlə Ağsuda tərtib edilmiş Tədbirlər Planına uyğun olaraq rayonda tikinti, abadlıq-quruculuq işləri rayon icra hakimiyyətinin aidiyyəti şöbəsi, eləcə də rayonun aidiyyəti qurumları tərəfindən diqqət mərkəzində saxlanılır.

*

Rayon rəhbəri əmindir ki, 2026-cı ildə Ağsunun hələ də telefon rabitəsi və internet şəbəkəsi mövcud olmayan ucqar yaşayış məntəqələrinin telefonlaşdırılması və internet xidməti göstərilməsi üçün bütün imkan və vasitələrdən istifadə ediləcək. Eləcə də müəssisə, idarə və təşkilatlarda çalışanların iş şəraitinin yaxşılaşdırılması üçün imkanlardan tam istifadə olunacaq, əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı dövlət tədbirlərinin reallaşdırılması davam etdiriləcəkdir.

Rövşən Bağırovun fikrincə, bəzi iqtisadi çətinliklərə baxmayaraq, ağsulular bundan sonra da respublikada bütün sahələrdə aparılan sürətli inkişaf tədbirlərindən kənarda qalmayacaq, 2026-cı ildə qarşıya qoyulan vəzifələrin uğurla həll edilməsi üçün bütün imkanlardan tam və səmərəli istifadə edəcəklər.

***

Şirvan camaatının havanın çərşənbələr ərəfəsində tez-tez dəyişməsini xarakterizə edən belə bir ifadəsi var: "Hava açılanda yaz olur, tutulanda qış". Məhz həmin "yaz olan" günlərdə dağların güney yamacında, dərələrin gün düşən bucaqlarında əvvəlcə xırda göy çiçəklər, sonra isə titrək bənövşələr görünür…

…Yenə də çərşənbələr ərəfəsidir və belə gözəl məqamda ağsulu dostum, sonralar qardaş kimi yaxın münasibətlərimiz olmuş Sabir Sarvanın "Bənövşə" şeiri yadıma düşür. Mən onun şeirlərini neçə məclisdə, nə qədər oxumuşamsa, bir Allah bilir.

Dəfələrlə ona irad tutmuşdum ki, nə üçün Ağsu barədə şeir yazmırsan? Bir dəfə də həmin etirazımı Ramiz Qusarçaylının yanında dilə gətirmişdim. Ramiz demişdi ki, Sabirin bütün şeirlərindən Ağsu ətri gəlir: "Onun "Bənövşə" şeiri Ağsu dağlarının, bağlarının, dərələrinin, düzlərinin ətrini vermirmi?".

***Xəyalım toxunur dünənə gəlir,***
***Ötənlər nə haya, nə ünə gəlir,***
***Gündə gözlərimin önünə gəlir,***
***Mən o bənövşəni niyə dərmədim?!***
***Duruşu həyalı, baxışı incə,***
***Bir üzü gül idi, bir üzü qönçə,***
***Yandırıb-yaxacaq məni ölüncə,***
***Mən o bənövşəni niyə dərmədim?!***

Şeirin dərin qatlarına baş vurmasaq, hürkək, titrək bənövşənin boyu göz önündə canlanır, ətri varlığımıza hakim olur.

Bənövşə ətirli çərşənbələrin mübarək, Ağsu! Bu gününü tarixin kimi zənginləşdirən sakinlərinin yeni-yeni uğurlarını qələmə alaq, İnşallah!

Gələn il isə bu qədim və müasir şəhərin 60 yaşını vəsf edəcəyik. Çünki Ağsu 1967-ci ilə qədər şəhər tipli qəsəbə adlanmış, həmin ildə isə şəhər statusu almışdır...

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# Ordubadın tarixi zənginliyi İslam dünyasının da mənəvi sərvətidir





**Fevralın 9–13-də Özbəkistanın paytaxtı Daşkənddə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) İslam Dünyası İrs Komitəsinin 13-cü sessiyası keçirilir.**

Mədəniyyət Nazirliyindən bildiriblər ki, sessiya çərçivəsində fevralın 11-də “Ordubad Tarix-Memarlıq Qoruğu”nun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi barədə qərar qəbul olunub.

Qeyd edək ki, 1977-ci ildən tarix-memarlıq qoruğu elan edilmiş Ordubad şəhəri 24 oktyabr 2001-ci ildə UNESCO-nun Ümumdünya İrsinin İlkin siyahısına daxil edilmişdir.

Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2024-cü il fevralın 21-də “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Ordubad şəhəri qədim tarixə malikdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın incisi adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir. XVII əsrin əvvəllərində Ordubadda Cümə məscidi, mədrəsə, buxxana, qeysəriyyə, hamam və karvansaraylar tikilmiş, Anbaras, Kürdatal, Üçtürləngi, Mingis və Sərşəhər məhəllələri, Ərəsət meydanı ansamblı, üç meydan ətrafında örtülü bazar kompleksi salınmışdır. Ordubadın əsas su təchizatı olan kəhriz sistemi də bu dövrdə yaradılmışdır. Şəhərin küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydandan şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin əsasını təşkil edir. XVII–XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri öz tarixi və mədəni əhəmiyyətini bu gün də saxlayır.

Ordubadın ICESCO-nun İlkin Siyahısına daxil edilməsi, həmçinin 2026-cı ildə ölkəmizdə elan edilmiş “Şəhərsalma və Memarlıq İli”nə mühüm töhfədir.

Növbəti mərhələdə Mədəniyyət Nazirliyi tərəfindən nominasiyanın ICESCO-nun Əsas Siyahısına daxil edilməsi istiqamətində işlər aparılacaq.

*XQ*



*Füzuli teatrının təqdimatı*

# Bakı səhnəsində “Ruh”



**Fevralın 18-də Akademik Milli Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın “Ruh” əsəri əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunacaq.**

Bu, Füzuli Dövlət Dram Teatrının repertuarında olan və ötən ilin noyabrında premyerası keçirilən səhnə əsərinin Bakıda ilk nümayişidir. Tamaşanın quruluşçu rejissoru Mirzə Nicat, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadə, rejissor assistenti Gülgəz Soltanovadır.

Əsərin əsas qayəsi insanın özünüdərk prosesindən, onun öz ruhu ilə qarşılaşmasından və daxili aləmin dərinliklərinə enməsindən ibarətdir. Qəhrəmanla Ruh arasında aparılan dialoqlar, rəmzi səhnələr və təkrarlanan mistik motivlər insanın öz varlığına verdiyi sualların poetik ifadəsinə çevrilir. Əsərdə zaman və məkan sabit deyil. Hadisələr bəzən keçmişə qayıdır, bəzən gələcəyə keçir.

Personajlar gerçək kimlikdən daha çox rəmzi mahiyyət daşıyır. Onlar qəhrəmanın mənəvi hallətlərini, daxili parçalanmasını, qorxularını, ümidlərini və düşüncələrini təcəssüm etdirir. Ruh yalnız metafizik kateqoriya deyil, həm də qəhrəmanın içindəki işıq, həqiqət və mənəvi axtarışın rəmzidir. Personajların ruhla qarşılaşması onların daxili təmizlənməsinə, özünü tanımasına səbəb olur.



Tamaşada rolları aktyorlar Anar Buludov (Tərki Dünya), Sevinc Məmmədova (Qorxacaq Qadın), Qaçaq Qarayev (Şübhəli Məxluq), Elçin Məmmədov (Narahat Adam), Əli Hüseynov (Ağciyər), Səbuhi Əhmədov (Kimsəsiz) oynayır.

*Şahanə MÜŞFİQ*

# Mədəni irs babaların könül əmanətidir

## *Mənəvi dəyərlərimiz milli varlığımızın əzəli və əbədi mövcudluq qaynağıdır*

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2025-ci il 30 dekabr tarixli qanuna əsasən, fevralın 1-dən etibarən ölkədə mədəni irsin korlanması və məhv edilməsi ilə bağlı məsuliyyəti əhəmiyyətli dərəcədə sərtləşdirən yeni qaydalar qüvvəyə minib.**

Tarixin “üz qırışları” olan qədim memarlıq abidələri yarandığı dövrün ictimai, mədəni və intellektual mühitini də özündə yaşadan yadigardır. Başqa sözlə desək, mədəni irs nümunələri xalqın təfəkkür tərzi, estetik zövqü və dünyagörüşünü təsdiqləyən qənimət “pasport”lardır. Buna görə onların mühafizəsi həm milli kimliyimizin qorunması, həm də gələcək nəsillərə ötürülməsi baxımından xüsusilə önəmlidir.

Qanunvericiliyə edilən dəyişikliklərə əsasən, beynəlxalq təcrübə nəzərə alınaraq, daşınar və daşınmaz mədəni sərvətlərə qarşı törədilən cinayətlərin xarakteri və təhlükəliliyinə uyğun olaraq cəzalar təsbit edilib. Yeni qaydalarda mədəni sərvətlərlə bağlı cinayət əməllərinə görə hüquqi və vəzifəli şəxslərin də hüquqi məsuliyyəti artırılıb. Bundan əlavə, “Mədəni sərvətlərin ehtiyatsızlıqdan məhv edilməsi” əməlinin cinayət məsuliyyətinə səbəb olması müəyyən edilib və Cinayət Məcəlləsinə müvafiq maddə (246-1) əlavə edilib. Buna qədər bənzər əməllər İnzibati Xətalar Məcəlləsində təfsir olunurdu.

İnşaat və digər təsərrüfat işləri görülərkən tarix və ya mədəniyyət abidəsi aşkar edildikdə dərhal işləri dayandıraraq, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməməsi, həmçinin dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələrin dövlətə təhvil verilməməsi ilə bağlı İnzibati Xətalar Məcəlləsinə yeni 231.3-2-ci maddə əlavə edilib. Yalnız xüsusi mühafizə dərəcəsi təsbiq olunan deyil, dövlət tərəfindən mühafizə olunan bütün mədəni sərvətlərə qarşı törədilən əməllərə tətbiq olunan sanksiyalar isə proporsionallaşdırılıb.

Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən “Azərbaycan Mədəniyyəti – 2040” konsepsiyasında isə bu problem daha qlobal şəkildə əksini tapıb və işğaldan azad edilmiş ərazilərdə mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi də önə çıxarılıb. Sənədə əsasən, Mədəniyyət Nazirliyi AMEA, DTA, Şuşa Şəhəri DQİ, digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə 2026-2030-cu illərdə mövcud vəziyyətin təhlilini, məlumatların sistemləşdirilməsini, tədbirlər planının hazırlanması və təsdiqini, mədəni irsin, o cümlədən arxeoloji, mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi və nəticələrin “e-culture” platformasına inteqrasiyasını təmin etməlidir.

Müsahiblərimizin ölkədə mədəni irsin qorunmasının strateji əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasında mədəni irsin qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi məqsədilə mövcud normativ-hüquqi bazada mühüm dəyişikliklər edilib. Bu ayın 1-dən qüvvəyə minən həmin dəyişikliklər mədəni irsin qorunması sahəsində daha sistemli və





korlanması və məhv edilməsi ilə bağlı məsuliyyəti sərtləşdirən yeni qaydalarla bağlı fikirlərini oxuculara təqdim edirik.

**Aygün Arifli, Hüquq və İnsan Haqları İnstitutunun şöbə müdiri:**

– Mədəni irs xalqın qanunla qorunan yaddaşı, keçmişinin ifadəsidir. Bu səbəbdən də onun qorunması təkcə mənəvi borc deyil, həm də ictimai öhdəlik kimi müəyyənləşdirilir. Uzun illər Ermənistanın işğalı altında qalmış Azərbaycan torpaqlarında düşmənlər tərəfindən çoxsaylı mədəni irs nümunələrinin dağıdılması və təhqir edilməsi, Azərbaycan kəndlərinin adlarının dəyişdirilməsi, tarixi irsin silinməsi, mədəniyyət abidələrinin dağıdılması, müqəddəs yerlərin və milli-mənəvi dəyərlərin təhqir olunması mədəni hüquqların pozulması ilə nəticələnmişdir. Buna görə də mədəni irsin qorunması Azərbaycan xalqı üçün xüsusilə həssas əhəmiyyət kəsb edir.

Bu faktlar göstərir ki, mədəni irsin qorunması təkcə daxili məsələ deyil, həm də beynəlxalq məsələdir. Müasir beynəlxalq hüquqda mədəni mülkiyyətin qorunması məsələləri beynəlxalq sənədlərdə əks olunub. Belə ki, UNESCO-nun 1954-cü il tarixli “Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında” Konvensiyası mədəni mülkiyyətin ümumi (dinc və müharibə dövründə) və xüsusi (yalnız müharibə dövründə) qorunma səviyyələrini müəyyən edir.

Konvensiyaya görə, dövlətlər mədəni mülkiyyətin dağıdılmasını, zərər görməsini və qanunsuz mənimsənilməsini qadağan etməli və qarşısını almalıdır. Onlar, həmçinin bu mülkiyyətə qarşı düşmənçilik hərəkətlərindən çəkinməlidirlər.

Beynəlxalq səviyyədə mədəni irsin qorunmasına dair prinsipləri və həmin sərprinsipial yanaşmanın formalaşdırılmasına yönəlib.

Sözügedən dəyişikliklər mədəni irs obyektlərinin qorunmasına dövlət nəzarətinin gücləndirilməsini, bu sahədə hüquqpozmaların qarşısının alınmasını və preventiv təsir mexanizmlərinin effektivliyinin artırılmasını hədəfləyir. Qanunvericiliklə edilən yeniliklər nəticəsində mədəni irs obyektlərinə vurulan zərərə görə cinayət və inzibati məsuliyyətin differensiasiyası daha dəqiq müəyyən edilmiş, sanksiyaların sərtləşdirilməsi yolu ilə bu əməllərin ictimai təhlükəlilik dərəcəsi hüquqi müstəvidə adekvat şəkildə qiymətləndirilmişdir.

Beləliklə, qəbul edilən dəyişikliklər mədəni irsin milli kimliyin və tarixi yaddaşın mühüm tərkib hissəsi kimi qorunmasına xidmət etməklə yanaşı, beynəlxalq hüquqi öhdəliklərə uyğun olaraq davamlı mədəni inkişafın təmin edilməsinə yönəlmiş kompleks yanaşmanın formalaşdırılmasına zəmin yaradır.

Ancaq burada bir sualın meydana çıxması qaçılmazdır: Mədəni irsi yalnız cərimə və ya azadlıqdan məhrumetmə cəzasımı qoruyur? Qanunun sərtləşməsi vacibdir, amma mədəni irsin qorunması üçün yetərli deyil. Çünki mədəni irs nümunəsini məhv edən təkcə düşmənlər, texniki vasitələr, avadanlıqlar deyil. Bəzən onu səssizlik, biganəlik, hər hansısa bir tarixi abidənin yanında yaşayan, amma onun dəyərini anlamayan insanın “mənə nə” düşüncəsi də məhv edir.

Ölkəmizdə mədəni irsin korlanması və məhv edilməsi ilə bağlı məsuliyyətin sərtləşdirilməsi, əslində, cəmiyyətə ünvanlanan açıq bir mesajdır: Tarix sahibsiz deyil! Bu baxımdan qanunvericiliyə edilən dəyişikliklər yalnız hüquqi mexanizm kimi qiymətləndirilə bilməz. Bu, ictimai məsuliyyət çağırışıdır. Belə ki, mədəni irsin qorunması insanların gündəlik davranışında, təhsil prosesində, ailədə formalaşan dəyərlərdə və mediada nümayiş olunan münasibətlə birgə mümkündür.

Əgər cəmiyyətdə bu münasibət formalaşmazsa, qanun yalnız baş vermiş pozuntulara reaksiya verəcək və nəticə olaraq, inzibati mübarizə ilə məhdudlaşacaq. Axı, əsas məqsəd təkcə cəza tətbiq etmək deyil, mədəni irs nümunələrinin qorunmasına yönəlmiş davamlı vərdiş və məsuliyyətin ictimai şüurda formalaşması, yəni pozuntuların səbəbinin aradan qaldırılmasıdır. Bu gün qorunmayan tarix sabah öyrədilə və sevdirilə bilməz.

Daşı, divarı sındırmaq asandır, amma dağıdılan tarixi bərpa etmək mümkün deyil. Ona görə də bu məsuliyyət təkcə qanunda yox, hər birimizin vicdanında yaşamalıdır.

**Cavid Şahverdiyev, Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi İctimai Birliyinin sədri:**



– Mədəni irsin qorunması ilə bağlı hüquqi tələblərin artırılması və cəzaların sərtləşdirilməsi dövlətin, cəmiyyətin mədəni irsə təəssübkeş münasibətinin növbəti təzahürüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bir çox tarixi abidə bərpa olunub, beynəlxalq səviyyədə təbliğ edilib və onların bir neçəsi UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısında öz yerini alıb.

Prezidentin imzaladığı müvafiq fərman və sərəncamlar bu sahədə həm hüquqi-normativ çərçivənin formalaşmasında, həm də praktiki tədbirlərin icrasında xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısının təşəbbüsü ilə qəbul olunan strateji sənədlər sırasında “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”, “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası və daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair Dövlət proqramları vacib yer tutur.

Azərbaycanın mədəni irsin qorunması sahəsində qazandığı uğurlar, heç şübhəsiz, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da parlaq fəaliyyətinin nəticəsidir. Onun mühüm təşəbbüsləri sayəsində milli mədəniyyətimizin nadir nümunələri dünya ictimaiyyətinə təqdim olunub, Azərbaycan irsinin ümumbəşəri dəyər kimi qəbul olunmasına mühüm töhfə verilib. Mehriban xanım Əliyevanın təşəbbüsləri sayəsində mədəni irsə münasibət cəmiyyətin bütün təbəqələrində fərqli müstəviyə keçib, maarifləndirmə, mədəni diplomatiya və irsə sahib çıxmaq ənənəsi daha da güclənib.

Azərbaycanın mədəni irsin qorunması üçün rəqəmsallaşdırma və yeni texnologiyaların tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu yanaşmalar vasitəsilə tarixi abidələr, sənət əsərləri və mədəni dəyərlər həm mühafizə olunur, həm də dünya səviyyəsində tanıdılır. Gələcəkdə texnologiyanın inkişafı ilə Azərbaycanın mədəni irsin qorunması və tanıdılması daha da effektiv olacaq.

Biz də bu mənəvi əmanətin qorunmasına yeni töhfələr vermək əzmindəyik. Bizim ictimai birliyimiz Mədəniyyət Nazirliyinin 2025-ci il üzrə qeyri-hökumət təşkilatları üçün elan etdiyi qrant müsabiqələrində qalib olub və bu da vətəndaş cəmiyyətinin mədəni irsin qorunmasına fəal cəlb olunmasının nəticəsidir.

Bundan sonra da QHT olaraq, tədqiqat və sənədləşdirmə formatında Azərbaycanın dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət, arxeoloji abidələrin foto və video arxivinin yaradılması layihəsini həyata keçirmək niyyətindəyik. Bu həm mədəni irs nümunələrinin gələcək nəsillərə ötürülməsinə xidmət edəcək, həm də yerli və xarici ictimaiyyət internet üzərindən Azərbaycanın mədəni irs nümunələri ilə tanışlıq üçün canlı geniş imkanlar əldə edə biləcəklər.

Mütəxəssislərin qeyd etdikləri bir daha göstərir ki, yeni qaydalar mədəni irsin qorunmasına dövlət səviyyəsində verilən xüsusi əhəmiyyətin növbəti göstəricisidir və bu sahədə hüquqi məsuliyyətin gücləndirilməsinə xidmət edir. Söhbət tarixi abidələrdən, qədim tikililərdən, arxeoloji tapıntılardan, muzey eksponatlarından, bir sözlə, dövlətin qoruduğu bütün mədəni dəyərlərdən və onların qorunub zənginləşdirilməsindən gedir.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Bilik və təcrübə təhsilin qoşa qanadıdır

## *Bəs tələbələr əməli vərdişlər qazanmağa  niyə maraq göstərmirlər?*

**Uzun müddətdir müzakirə edilən mövzulardan biri də tələbələrin təcrübə prosesinin formal xarakter daşıması və günün əmək bazarı ilə əlaqələrin zəifləməsidir. Bir çox hallarda tələbələr istehsalat təcrübəsinin onlara əməli bacarıq qazandırmadığını, gələcək çalışmalarına ciddi təsir etmədiyini düşünərək təhsilin bu mərhələsinə maraq göstərmirlər.**

Əmək Məcəlləsində dəyişiklik edilməsi bu sahədə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Dəyişikliklərə əsasən, təhsilalanlar istehsalat təcrübəsi keçdiyi hallarda onlarla müəyyən müddətə əmək müqaviləsi bağlanacaq. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də iş icazəsi əsasında Azərbaycan ərazisində haqqı ödənilən əmək fəaliyyətinə cəlb olunduqda əmək müqaviləsi bağlaya biləcəklər.

Bu yeniliyin əsas mahiyyəti təcrübənin formal prosesdən çıxarılaraq real əmək münasibətləri müstəvisinə keçirilməsidir. Əmək müqaviləsinin bağlanması tələbəyə rəsmi əmək stajı, sosial sığorta və hüquqi təminat, görülən işə görə ödəniş alma imkanı, gələcək iş müraciətlərində üstün mövqe kimi bir neçə mühüm üstünlük qazandıra bilər.

Bu, tələbələrdə təcrübəyə marağı artırmaqla yanaşı, öyrənməyə və öz üzərində işləməyə daha məsuliyyətli yanaşmalarına səbəb ola bilər. Bu da həm tələbə, həm işəgötürən, həm də ümumilikdə əmək bazarı üçün müsbət tendensiya yaradır. Dünya təcrübəsinə nəzər saldıqda oxşar mexanizmlərin bir çox ölkədə uğurla tətbiq edildiyini görmək mümkündür.

Məsələn, Almaniyada "dual təhsil sistemi" geniş yayılıb. Bu modeldə tələbələr paralel olaraq müəssisələrdə rəsmi müqavilə əsasında çalışır, əməkhaqqı alır və peşəkar bacarıqlarını real iş mühitində formalaşdırırlar. Bu sistem Almaniyanın ixtisaslı kadr hazırlığında uğurlu modellərdən hesab olunur.

Fransada iki aydan artıq davam edən təcrübələr qanunvericiliyə əsasən ödənişli olur. Tələbələrlə müqavilə bağlanır və onların sosial hüquqları müəyyən qədər qorunur. ABŞ-da isə xüsusilə böyük şirkətlərin əksəriyyəti tələbələrə ödənişli "internship" proqramları təqdim edir. Bu proqramlar çox zaman məzun olduqdan sonra daimi işə qəbul üçün əsas imkana çevrilir. Skandinaviya ölkələrində də universitet–işəgötürən əməkdaşlığı güclüdür və tələbələrin praktiki işə cəlb olunması əmək bazarına inteqrasiyanın əsas mərhələsi kimi qiymətləndirilir.

Azərbaycan qanunvericiliyində beynəlxalq təcrübəyə uyğunluq təşkil edən dəyişikliklər əmək bazarının müasir tələblərinə cavab verir. Əgər bu mexanizmin tətbiqi effektiv olarsa, yaxın illərdə gənclərin işsizlik səviyyəsinin azalmasına, məzunların əmək bazarına daha hazırlıqlı olmasına və işəgötürənlərin ixtisaslı kadr seçiminə real töhfə verə bilər.

**Bu barədə Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Elçin Mirzəbəyli bildirdi ki, Əmək Məcəlləsinə edilən son dəyişikliklər mahiyyət etibarilə təhsil, əmək bazarı, sosial hüquqlar baxımından mühüm mərhələnin başlanğıcıdır:**

– Prezident İlham Əliyevin təsdiqlədiyi qanun dəyişikliyi ilə artıq təhsilalanların istehsalat təlimi və təcrübəsi keçdiyi hallarda çalışdıqları müəssisələrlə müəyyən müddətə əmək müqaviləsi bağlanılmasına hüquqi imkan yaradılır. Bu dəyişiklik, əslində, uzun illər praktikada mövcud olan, lakin hüquqi çərçivəsi tam formalaşmamış reallığın normativ əsaslara salınmasıdır.

İndiyədək istehsalat təcrübəsi keçən tələbə və şagirdlər əksər hallarda müəssisələrdə formal şəkildə "təcrübəçi" statusunda qəbul edilirdilər. Onların faktiki olaraq istehsalat prosesində iştirakı, müəyyən işləri yerinə yetirmələri, real



risklərlə üz-üzə qalmaları isə əmək qanunvericiliyinin tam tətbiqi ilə müşayiət olunmurdu. Bu isə hüquqi boşluq yaradırdı: tələbə faktiki olaraq işləyir, lakin hüquqi baxımdan işçi sayılmırdı.

Yeni dəyişiklik məhz bu boşluğu aradan qaldırır. Artıq istehsalat təcrübəsi keçən şəxs hüquqi baxımdan da əmək prosesinin iştirakçısı kimi tanınır və bunun nəticəsi olaraq əməyin mühafizəsi, təhlükəsizlik qaydaları, iş şəraiti ilə bağlı bütün normalar onun təcrübə keçdiyi iş yerinə də şamil olunur.

Əməyin mühafizəsi anlayışı yalnız daimi işçilərə aid edilə bilməz. İstehsalat mühiti risklidir və bu risk tələbə, şagird, təcrübəçi və ya daimi işçi arasında fərq qoymur. Yeni dəyişikliklə müəssisələr artıq təcrübə keçən şəxslərə də eyni təhlükəsizlik standartlarını tətbiq etməyə hüquqi öhdəlik daşıyacaqlar. Bu isə o deməkdir ki, təcrübə keçən tələbə təhlükəsizlik təlimatlandırmasından keçməli, onun iş şəraiti normativ tələblərə uyğun olmalıdır. Baş verə biləcək istehsalat hadisələri zamanı hüquqi məsuliyyət aydın şəkildə müəyyən olunur.

Bu dəyişiklik təkcə hüquqi məsələ deyil, həm də təhsil siyasəti baxımından strateji addımdır. Çünki müasir dövrdə təhsil yalnız nəzəri biliklərlə məhdudlaşa bilməz. Tələbənin əmək bazarına inteqrasiyası təhsil aldığı müddətdən başlamalıdır. Artıq işəgötürən üçün də aydın hüquqi çərçivə mövcuddur. Yəni əgər tələbə istehsalat prosesində iştirak edirsə, bu münasibət əmək müqaviləsi ilə tənzimlənməlidir.

**Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin üzvü Vüqar Bayramov isə vurğuladı ki, qeyd edilən dəyişikliklərin əsas məqsədi beynəlxalq prinsip və standartlara uyğun olaraq işçilərin əmək hüquqlarının daha effektiv qorunması, işçi və işəgötürən arasında münasibətlərin təkmilləşdirilməsi, eləcə də hüquqi bazanın möhkəmləndirilməsidir:**



– Dəyişikliklər hazırlanarkən Beynəlxalq Əmək Təşkilatının tövsiyələrindən istifadə olunub ki, bu da milli qanunvericiliyin beynəlxalq praktikaya uyğunlaşdırılması istiqamətində işlərin sürətləndiyini göstərir. Yeniliklərdən biri istehsalat təlimi və təcrübə keçən şəxslərlə əmək müqaviləsinin bağlanmasına imkan verilməsidir.

Əvvəlki qaydalarda tələbələrlə əmək müqaviləsi bağlanmasına icazə verilmirdi. Yeni dəyişikliklər isə bu məhdudiyyəti aradan qaldırır və nəticədə tələbələrin rəsmi əmək münasibətlərinə daxil olması, eləcə də gördükləri işə görə ödəniş alması mümkün olur.

Yeni qaydalara əsasən, dövlət qurumlarının hər birində təcrübə keçən şəxslərlə əmək müqaviləsinin bağlanması mümkün olacaq. Əmək müqavilələri elektron qaydada rəsmiləşdirildiyi üçün bu proses də elektron sistem üzərindən həyata keçiriləcək. Eyni mexanizm həm dövlət, həm də özəl sektora şamil olunur və bu baxımdan hər hansı fərq nəzərdə tutulmur.

Əməkhaqqının məbləği və digər şərtlər işəgötürənlə təcrübə keçən şəxs arasında qarşılıqlı razılaşma əsasında müəyyən ediləcək və müqavilədə öz əksini tapacaq. Əgər işəgötürən təcrübə keçən şəxslə rəsmi əmək münasibəti qurmaqda və ya təcrübə müddətində ona ödəniş etməkdə maraqlıdırsa, bu zaman əmək müqaviləsi bağlanacaq.

Xüsusilə o hallarda ki, təcrübəçi artıq müəssisənin fəaliyyətinə real töhfə verir və faktiki iş funksiyalarını yerinə yetirir, bu münasibətlərin rəsmiləşdirilməsi əmək müqaviləsi vasitəsilə həyata keçiriləcək. Bu da həm hüquqi şəffaflığı təmin edir, həm də tərəflərin hüquq və vəzifələrini müəyyənləşdirir.

**Təhsil eksperti Elçin Əfəndi müzakirə ilə bağlı söylədi ki, təhsilalanların istehsalat təlimi və təcrübəsi keçməsi məsələsi daim müzakirə olunan mövzulardandır:**



– Əvvəlki dövrlərdə bu prosesin ən azı üçüncü kursdan başlanması nəzərdə tutulsa da, faktiki olaraq tələbələrin əmək təcrübəsi əsasən son kursun ikinci semestrindən etibarən həyata keçirilir.

Bununla belə, dövlət nəzarəti çərçivəsində imzalanmış müvafiq sərəncama əsasən, istehsalat təcrübəsi artıq rəsmi şəkildə əmək fəaliyyətinin başlanğıcı kimi qiymətləndirilir. Bu isə gələcəkdə həmin şəxslərin işə qəbulu zamanı müsbət amil kimi nəzərə alına bilər. Çünki müşahidələr göstərir ki, ali təhsili başa vurduqdan sonra əmək bazarına daxil olmaq istəyən gənclərdən əksər hallarda ixtisas üzrə iş təcrübəsi tələb olunur. Təcrübə olmadığı üçün isə onlar işlə təminat prosesində müəyyən çətinliklərlə üzləşirlər. Bu baxımdan, istehsalat təcrübəsinin rəsmi əmək fəaliyyəti kimi tanınması məzunların əmək bazarına inteqrasiyasını asanlaşdıra bilər.

Hazırkı vəziyyətdə bu proses mühüm impulslar yaratma ehtimalına malikdir. Əgər əmək müqaviləsi rəsmiləşdirilirsə, bu zaman onların gördükləri iş təcrübə xarakterli olsa belə, müəyyən ödənişlə təmin edilməsi daha ədalətli və motivasiyaedici yanaşma olardı. Çünki əmək münasibətləri hüquqi müstəviyə keçirsə, bu, yalnız formal xarakter daşımamalı, eyni zamanda, sosial təminat və maddi qarşılıq məsələlərini də əhatə etməlidir. Belə bir mexanizmin bütün təhsil müəssisələrində sistemli və vahid qaydada tətbiqi daha uğurlu nəticələr verər.

*Ləman TƏHMƏZ*
*XQ*

*Əliabbas Qədirov – 80*

# Yarım əsr səhnədə

**60 illik ömrünün yarım əsrini teatr səhnəsində və kino çəkilişi meydanlarında keçirmiş Əliabbas Qədirov sənətsevərlərin ehtiramla andıqları mədəniyyət fədailərindən olub. İşıqlı çöhrəsi, xoş aurası, cazibədar səsi, yaddaqalan rolları ilə daim könülləri fəth edib.**

Əslən xızılı olan Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda anadan olub. Paytaxtdakı 105 saylı orta məktəbdə oxuyub. 8-ci sinifdən "Dəmiryolçular" klubunda xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin məşqlərinə gedib. Sonra İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sənət müəllimi, ixtisas kurs rəhbəri Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi Əməkdar artist Müxlis Cənizadə olub.

Tələbə ikən institutun tədris teatrının ştatlı aktyoru kimi fəaliyyət göstərən Əliabbas orada Cəfər Cabbarlının "Aydın", Hüseyn Cavidin "Azər", Afanasi Salinskinin "Təbilçi qız" əsərlərinin tamaşalarında maraqlı rollar oynayıb. Son kursda oxuyarkən isə Mehdi müəllim istedadını nəzərə alaraq, onu Akademik teatrda quruluş verdiyi "Xəyyam" (Hüseyn Cavid) faciəsində Yusif roluna dəvət edib.

Deyilənə görə, atası onun aktyor olmasını istəmirmiş. Amma ailəsinin təkidindən sonra "Xəyyam"a baxmağa gedən Gülabbas kişi tamaşadan və oğlunun uğurlu rolundan əməlli-başlı təsirlənərək ona deyib: "Sən güclü aktyor olacaqsan. Mən bunu bilmirdim. İstədiyim o idi ki, seçdiyin sənətin güclülərindən olasan. Oynadığın tamaşaya baxanda həm sənə, həm də özümə görə kövrəldim. Özümü qınadım ki, uşağı qoymurdum aktyor olsun".



televiziyasında da çoxlu tamaşalarda oynayıb, "Məşəl" gənclər proqramının və populyar "Komediyalar aləminə səyahət" verilişinin aparıcısı olub. Kino xadimi kimi də məşhurlaşan aktyor Eldar Quliyevin çəkdiyi 2 seriyalı "Sevinc buxtası" bədii filmindəki Nazim roluna görə Dövlət mükafatına layiq görülüb. Bundan əlavə, "Azərbaycanfilm"də "Xatirələr sahilində" (İmran), "Nəğmə dərsi" (Ata), "Nə yaxşı ki, Səməd Vurğun var" (Vaqif), "Bizim evin kişisi" (Mansur), "Qızıl uçurum" (Cəlil), "Qocalar, qocalar" (Fəriz), "Babək" (Fəzl), "İşarəni dənizdən gözləyin" (Sultanov), "Sevinc buxtası" (Nazim) kimi 60-dan artıq ekran əsərinə çəkilib.



**Həmkarım İlqar Həsənov böyük aktyorun yubileyindən yazdığımı eşidəndə dedi:**

– Əliabbas Qədirovun və yaxın qohumu, qiraət ustası Ənvər Vəliyevin məktəbdə ilk müəllimi xalam Dilşad Musayeva olub. Onlara şeiri, ədəbiyyatı sevdirib. Əliabbas Qədirovla söhbətlərimizdə, eləcə də mətbuata verdiyi müsahibələrində həmişə Dilşad müəllim haqqında ürəkdən, minnətdarlıqla danışırdı. Deyirdi ki, ilk rollarını Dilşad müəllimin məktəbdə təşkil etdiyi dram dərnəyində hazırlanan tamaşalarda oynayıb. Müəllimi Əliabbasa çox vaxt baş rolları tapşırırdı. Beləcə, onun böyük sənətə yolu məktəb dram dərnəyində hazırlanan "Hacı Qara"da Hacı Qara, "Vaqif"də Vaqiflə başlayıb.

Səhnədə ilk addımlarından teatr ictimaiyyətinin diqqətini çəkən Əliabbas Qədirov 1970-ci ildən Milli Dram Teatrının aktyoru olub. Orada bədii rəhbər və direktor vəzifəsinədək yüksəlib. Ömrünün sonunadək tərk etmədiyi baş səhnədə müxtəlif dram əsərlərində 40-a qədər obrazı canlandırıb. Hər bir rolu yaradıcılığının parlaq təcəssümünə çevrilib, onu seyrçilərin sevimlisi edib.

Əliabbas Qədirovun obrazlar qalereyasını "Zamanın hökmü"ndə Pronya, "Xırs quldurbasan"da Vəli, "Darıxma, ana!"da Givi, "Mahnı dağlarda qaldı"da Leytenant və Nicat, "Aydın"da İlyas, "Şöhrət və ya unudulan adam"da Fotoqraf, "Məhəbbət əfsanəsi"ndə Şərif, "Xurşidbanu Natavan"da Seyid Hüseyn, "İblis"də Vasif, "Kimdir haqlı?"da Rəşad, "Büllur sarayda"-da Həbib, "Biganələr oteli"ndə Diş həkimi, "Torpağa sancılan qılınc"da Qazan xan, "Şeyx Xiyabani"də Şirzad, "Mənsiz dünya"da Mirzə Şəfi, "Sevgililərin cəhənnəmdə vüsalı"nda Mircəfər Bağırov, "Tənha iydə ağacı"nda Kərim bəy, "Sənsiz"də Tərlan, "Əcəb işə düşdük"də Misirxanov, "Kral Lir"də Qraf Qloster, "Hökmdar və qızı"ında İbrahim xan, "Özümüzü kəsən qılınc"da ("Göytürklər") Qara xaqan, "Ulduz, yaxud "Ədirnənin fəthi"ndə Ənvər və bir-birindən maraqlı başqa rolları bəzəyir.

Müqtədir sənətkar Azərbaycan

**Yazıçı-dramaturq, Azərbaycan Dövlət Mədəniyyət və incəsənət Universitetinin professoru, Əməkdar İncəsənət xadimi Əli Əmirlinin dedikləri:**

– Mənim "Mesenat" pyesimdə Əliabbas Qədirov Hacı Zeynalabdin Tağıyev obrazını böyük məhəbbətlə, zövqlə oynayırdı. Onun Bakı ləhcəsində gözəl vurğu ilə danışması (əsərdə bu, olmasa da) ayrı bir aləm idi. Hətta adama elə gəlirdi ki, səhnədəki elə Tağıyevin özüdür. Təəssüf ki, Əliabbas Qədirov sevgi ilə oynadığı bu rolda cəmi 10 dəfə səhnəyə çıxa bildi. Axırıncı dəfə amansız xəstəlik ona çox güc gəlmişdi və tamaşadan sonra seyrçilərə baş əyməyə çıxa bilməmişdi. Buna görə də mən səhnə arxasına gedib onu qrim otağında tapdım. Üzgün halda idi. Az qala inanmadım ki, 2 saatdan çox davam edən tamaşada, həm də baş rolda o qədər şövqlə oynaya bilib. Onu da deyim ki, həmin tamaşadan sonra o, cəmi 8 gün yaşaya bildi və Allah rəhmətinə qovuşdu. Bu gün də Tağıyevin obrazı haqqında düşünəndə Əliabbas Qədirov gəlib gözümün qabağında dayanır.

Onu da deyim ki, həmin tamaşamızın böyük uğurla keçməsi barədə mətbuatda çox yazılmışdı. Amma "Tağıyev səhnəyə baş əyməyə gəlmədi" başlıqlı bir məqalə də vardı ki, bəs, adamlar ayaq üstə nə qədər alqışlasalar da, o səhnəyə çıxmadı. Tamaşaçılar da, bunu yazan jurnalist də bilmirdi ki, o, həmin anlarda hansı vəziyyətdə idi. Pyes müəllifi olduğum ən yaxşı tamaşalardan danışanda "Mesenat"ı yada salıram və şübhəsiz ki, Əliabbas Qədirovun oyunu, səhnədəki yerişi, danışığı, təbəssümləri, son monoloqu yadıma düşür. Həmin monoloqda o, deyirdi ki, axırda hər şeyin yolu Allahadır. Sanki artıq getmək məqamının yaxında olduğunu hiss eləmişdi. Allah rəhmət eləsin!..

Xalq artisti, "Şöhrət" ordenli Əliabbas Qədirov 2006-cı il martın 8-də, 60 yaşında dünyasını dəyişib və İkinci Fəxri xiyabanda dəfn edilib. Böyük sənətkarın işıqlı xatirəsi onu sevənlərin qəlbində daim yaşayır.

*Əli NƏCƏFXANLI*
*XQ*

*Ötənlərdən-itənlərdən*

# Bakı quberniyasının ilk azərbaycanlı memarı

## *Qoslavskini, Ploşkonu... tanıyırıq, amma Qasım bəy Hacıbababəyovu yox*

**Hər gün Bakının səs-küylü küçələrindən iti addımlarla, tələsik keçib gedirik. Amma bir anlıq ayaq saxlayıb, gündəlik qaçdı-qovdudan ayrılıb şəhərimizdəki möhtəşəm abidələrin tarixi ilə heç maraqlanmırıq.**

Fəvvarələr meydanının nizamı, əzəmətli Nizami muzeyinin sənət ruhu gəzən divarları önündə dayanarkən heç düşünmüşükmü hər kəsin heyranlıqla tamaşa etdiyi, sahil boyu qərar tutan o heyrətamiz imarətlərin arxasında hansı böyük ustadın pərgarı, hansı nurlu zəkanın hikməti gizlənir? Bu sənət incisi bir şəhərin qürubu, digərinin intibahı olan hadisədən yaranmışdı.

1859-cu ildə taleyin hökmü ilə Şamaxıda baş verən sarsıdıcı zəlzələ, sən demə, Bakı memarlığında parlayan iqbal günəşinin müjdəçisi imiş. Qədim quberniya mərkəzinin zəlzələdən sonra xarabalığa çevrilməsi ilə bütün diqqətlər sahil şəhəri olan Bakıya yönəlmişdi. Məhz həmin dövrdə şəhərin tozlu yollarını gözoxşayan meydanlara, köhnə daxmalarını isə vüqarlı imarətlərə çevirən sənət fədaisi Qasım bəy Hacıbababəyov görkəmli memar kimi tarixdə əbədi iz qoymuşdu.

Qasım bəy Hacıbababəyov 1812-ci ildə Şamaxının Sarıtorpaq məhəlləsində dünyaya göz açmışdı. İlk dərslərini molla yanında alsa da, sonradan qəza məktəbində təhsilini davam etdirmişdi. Həm atası, həm də böyük qardaşı dövrün tanınmış memarları idilər. Ailədən gələn bu maraq onu 1848-ci ildə Şamaxı quberniyasında memar köməkçisi, 8 il sonra isə quberniyanın baş memarı vəzifəsinə qədər yüksəltmişdi.

Azərbaycanın mədəniyyət tarixində əvəzsiz hadisələrdən biri – ilk teatr binasının inşası da Qasım bəy Hacıbababəyova qismət olmuşdu. O, öz sənətkar fəhmi ilə elə bir bina ərsəyə gətirmişdi ki, bu, həm Şirvan memarlıq məktəbinin incəliklərini qoruyur, həm də şəhərin mədəni simasına gözəllik qatırdı.



Həmin dövrdə binanın inşası üçün tələb olunan 2 min manat gümüş pulun böyük bir hissəsini – 1500 manatını Şamaxı zadəganı Ata bəy Zeynalbəyov vermişdi. Bu xeyirxah addımla təməli qoyulan teatr binası qısa zamanda bölgənin mədəniyyət ocağına çevrilmişdi. Şamaxı səhnəsindən yüksələn sədalar təkcə bu qədim şəhəri deyil, Şəkini, Kürdəmiri, Ağsunu, hətta sahil şəhəri olan Bakını da ağuşuna almışdı. İnsanlar uzaq yollardan bu yeni sənət məbədini görmək üçün Şamaxıya axışırdılar.

Lakin 1859-cu ildə Şamaxı torpağını lərzəyə gətirən dəhşətli zəlzələ Qasım bəyin min bir zəhmətlə ucaltdığı binanı da yerlə-yeksan etmişdi. Rus imperatoru tərəfindən binanın bərpası üçün vəsait ayrılsa da görkəmli geoloq German Abixin fikri qəti idi: bu torpaqlar hələ çox sarsılacaqdı. Beləcə, quberniya mərkəzi Bakıya köçürüldü və tarixin yeni – Bakı quberniyası səhifəsi açıldı.

Bir memar kimi Qasım bəy Hacıbababəyovun qarşısında böyük missiya dururdu: bu tozlu sahil şəhərini quberniya mərkəzinə layiq, əzəmətli və nizamlı şəhərə çevirmək. O, şəhərə avropasayağı intizam və şərq ruhunun vəhdətini gətirdi.

Memar Bakının qəlbi sayılan Parapet bağını (hazırkı "Fəvvarələr" meydanı) şəhərin əsas ictimai mərkəzi kimi layihələndirərək, ilk "meydan-bağ" ansamblını yaratdı. Eyni zamanda, yaxınlıqdakı Sisianov parkı da onun ideyası idi.

Memarın Bakıdakı ən möhtəşəm əsəri bu gün Nizami adına Ədəbiyyat Muzeyinin binasıdır. 1860-cı ildə "Metropol" mehmanxanası kimi inşa edilən bu tikili Bakı memarlığına yeni nəfəs gətirdi. Bakının sahil zolağının abadlaşdırılması da Qasım bəyin adı ilə bağlıdır. O, sahili şəhərin daxili küçələri ilə bağlayan keçidləri elə planlaşdırdı ki, dəniz havasından paytaxtın hər guşəsinə pay düşsün.

Gərgin və fədakar əməyi sayəsində o, dövrünün ən nüfuzlu mükafatlarından birinə - "Müqəddəs Anna" ordeninə layiq görüldü. Qasım bəy 1868-ci ilə qədər Bakı şəhərinin baş memarı vəzifəsini icra edərək, paytaxtın mərkəzi hissəsinin mənzərəsinin təməllərini qoydu. Lakin doğma yurduna olan bağlılığı onu yenidən Şirvan torpaqlarına çəkdi və 1868-ci ildən 1874-cü ilə qədər Şamaxıda memar kimi fəaliyyətini davam etdirdi. Həm Bakının intibahına, həm də zəlzələdən sonra Şamaxının yenidən qurulmasına öz sənətkar möhürünü vurdu.

1874-cü ildə ömür karvanı mənzil başına çatsa da, 2 şəhərin memarlıq taleyini birləşdirən sənətkarın ömür yolu həm paytaxtda ucaltdığı binalarda, həm də doğma Şamaxının qala divarlarında əbədiləşdi.

*Fidan ƏLİYEVA*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 28 (30997) 13 fevral 2026-cı il, cümə



# Vaşinqtonun Avropaya yeni yanaşması

**ABŞ dövlət katibi Marko Rubio Münxen Təhlükəsizlik Konfransından sonra Slovakiya və Macarıstana səfər edəcək. Mütəxəssislərin sözlərinə görə, bu səfər göstərir ki, Vaşinqton Avropa siyasətində selektiv yanaşmaya keçir. Bu marşrut diplomatik protokolun adi davamı deyil, əksinə, ABŞ administrasiyasının Brüssellə artan fikir ayrılıqları fonunda qitə daxilində alternativ dayaqlara üstünlük verməsinin siyasi siqnalıdır. Vaşinqton faktiki olaraq "vahid Avropa" ilə deyil, öz prioritetlərinə daha uyğun gördüyü Avropa paytaxtları ilə işləməyə hazır olduğunu nümayiş etdirir.**



Münxen Konfransı çərçivəsində kollektiv təhlükəsizlik və transatlantik həmrəylik ritorikası səslənsə də, dövlət katibi Marko Rubionun Bratislava və Budapeşti ayrıca dayanacaq kimi seçməsi ABŞ-ın Avropa İttifaqı rəhbərliyi ilə fundamental mübahisələr fonunda fərqli siyasi xətt yürüdən liderlərlə birbaşa koordinasiyaya üstünlük verdiyini göstərir. Slovakiyanın Baş naziri Robert Fitso və Macarıstanın Baş naziri Viktor Orban son illərdə Brüsselin enerji, Ukrayna və suverenlik məsələlərindəki kursunu açıq şəkildə tənqid edən əsas fiqurlardır. Politoloqlar Vaşinqtonun bu iki paytaxtla intensiv dialoqa getməsini transatlantik münasibətlərdə yeni balans axtarışının göstəricisi kimi xarakterizə edirlər.

Səfərin gündəliyində enerji təhlükəsizliyi xüsusi yer tutur. Avropa İttifaqının Rusiya enerji resurslarından sürətli imtina strategiyası qitədə qiymət artımları və bazar qeyri-sabitliyi ilə müşayiət olunur. Avropa Komissiyası yaşıl keçidi prioritet elan etsə də, elektrik enerjisinin yüksək və dəyişkən qiymətləri sənaye rəqabət qabiliyyətinə ciddi təzyiq yaradır. Bu şəraitdə Slovakiyanın Rusiya ilə nüvə yanacağı müqaviləsini ləğv etməmək qərarı və eyni zamanda, ABŞ-la, xüsusilə "Westinghouse" şirkəti ilə əməkdaşlığı genişləndirməsi praqmatik və çoxvektorlu enerji siyasətinin nümunəsidir. Marko Rubionun Bratislavada aparacağı danışıqların əsas xətti məhz bu praqmatizmin Vaşinqtonla strateji çərçivəyə salınması olacaq.

Macarıstan istiqaməti isə daha mürəkkəb siyasi kontekstə malikdir. Apreldə keçiriləcək parlament seçkiləri təkcə daxili siyasi rəqabət deyil, həm də Avropa İttifaqı ilə Budapeşt



arasındakı uzunmüddətli qarşıdurmanın növbəti mərhələsi kimi qiymətləndirilir. Orban hökuməti Brüsselin siyasi və hüquqi mexanizmlər vasitəsilə təzyiq göstərdiyini iddia edir, Aİ strukturları isə Macarıstanda demokratik institutların vəziyyəti ilə bağlı narahatlıqlarını önə çəkir. ABŞ administrasiyasının bu həssas mərhələdə Budapeştlə yüksək səviyyəli təmasları Vaşinqtonun Orbanı regionda mühüm tərəfdaş kimi görməkdə davam etdiyini göstərir.

Macarıstanın xarici işlər naziri Peter Siyartonun Brüssel və Kiyev arasında "hökumət dəyişikliyi koalisiyası" barədə açıqlamaları seçki mühitinin nə dərəcədə siyasiləşdiyini nümayiş etdirir. O, Ukrayna müharibəsi kontekstində Avropa liderliyini tənqid edərək, münaqişənin "Avropanın öz müharibəsi" kimi təqdim olunmasını sual altına alır. Bu ritorika Orban hökumətinin suverenlik və milli maraqlar diskursunu gücləndirməyə hesablanıb. Eyni zamanda, ABŞ Nümayəndələr Palatasının komitə araşdırmasında Aİ-nin Rəqəmsal Xidmətlər Qanunu çərçivəsində seçkiöncəsi müdaxilə iddialarının səsləndirilməsi transatlantik mübahisələri daha da dərinləşdirə bilər.

Budapeştdəki seçkilər Tramp administrasiyası üçün də simvolik əhəmiyyət daşıyır. Orban Vaşinqtonla ideoloji və siyasi yaxınlığı gizlətmir, Tramp isə açıq şəkildə ona dəstəyini ifadə edir. Əgər Macarıstanda hakimiyyət dəyişikliyi baş verərsə, ABŞ-ın Avropadakı ən sadiq tərəfdaşlarından biri zəifləyə və ya kursunu dəyişə bilər. Bu baxımdan Marko Rubionun səfərini seçkiöncəsi siyasi balansın qorunmasına yönəlmiş diplomatik mesaj kimi də qiymətləndirənlər az deyil.

Beləliklə, ABŞ-ın Slovakiya və Macarıstan marşrutu seçməsi Avropa siyasətində diferensial yanaşmanın gücləndiyini göstərir. Vaşinqton Brüssellə struktur səviyyədə əməkdaşlığı davam etdirsə də, paralel olaraq qitə daxilində suverenlik və enerji praqmatizmi xəttini müdafiə edən paytaxtlarla əlaqələri dərinləşdirir. Bu, transatlantik münasibətlərin vahid blok modelindən çoxmərkəzli və maraqlar əsasında formalaşan yeni mərhələyə keçdiyini göstərir. ABŞ fərqli bir Avropa ilə işləməyi seçir – və bu seçim yaxın aylarda həm enerji siyasətində, həm də seçki proseslərində öz real nəticələrini verə bilər.

***S.ELAY***
***XQ***

## İDMAN

### "Qarabağ" – "Nyukasl": biletlərin qiymətləri

**UEFA Çempionlar Liqasının pley-off mərhələsində Bakıda "Qarabağ" və İngiltərənin "Nyukasl" komandaları arasında keçiriləcək ilk oyuna biletlərin qiyməti açıqlanıb.**



Dünən saat 12:00-dan satışa çıxarılan biletlərin qiyməti 10–1000 manat arasında dəyişib.

Standart biletlərin qiyməti 10, 15, 25, 35, 40, 50 və 75 manat təşkil edir. VIP sektorlar üçün biletlər 200, 250, 300 və 400 manat, VVIP sektorlar üçün isə 1000 manatdır.

Biletlər yalnız iTicket.az-ın mobil tətbiqi və saytı üzərindən əldə edilə bilər. Stadiona giriş QR bilet ilə mümkün olacaq.

Qeyd edək ki, fevralın 18-də keçiriləcək "Qarabağ" – "Nyukasl" oyunu saat 21:45-də başlayacaq.

### Nəriman Axundzadə – 1 milyon avro

**ABŞ-ın "Kolambus Kryu" klubuna keçən Azərbaycan millisinin futbolçusu Nəriman Axundzadənin 2 həftədən sonra okeanın o tayına yollanacağı gözlənilir.**



Bu barədə 21 yaşlı hücumçu ilə əməkdaşlıq edən futbol agenti Tural Əsgərov açıqlama verib. O, forvardın viza işləri tamamlanan kimi sözügedən ölkəyə gedəcəyini söyləyib: "Bu proses, təxminən, 2 həftə çəkəcək. Nərimanla 2 ildən çoxdur ki, işləyirik. ABŞ klubuna transferində də yaxından iştirak etmişəm. "Kolambus Kryu" ilə danışıqlar bir ay davam edib".

T.Əsgərov yığma üzvünün daha məşhur komandaya keçmək perspektivi barədə isə bunları söyləyib: "Ümumiyyətlə, belə proqnozlar verməyi xoşlamıram. Bu, bəzi məsələlərdən asılıdır. Gələcəkdə çox şey ola bilər. Necə olacağını birlikdə görəcəyik".

Xatırladaq ki, Nəriman Axundzadənin ABŞ təmsilçisi ilə sözləşməsinin müddəti 2029-cu ilin yayınadək nəzərdə tutulub. "Kolambus Kryu" N.Axundzadə üçün "Qarabağ"a 1 milyon avrodan bir az çox ödəniş edəcək.

### Qadın güləş millimiz Macarıstanda

**Azərbaycanın qadınlardan ibarət güləş millisi Macarıstanda təlim-məşq toplanışına başlayıb.**



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, Tatabanya şəhərində start götürən hazırlıq prosesində Macarıstan, Litva, Almaniya, Finlandiya, Yaponiya, Rusiya, Braziliya, Türkiyə, Estoniya, İtaliya və Rumıniyadan olan güləşçilər də iştirak edirlər.

Əsasən taktiki-texniki çalışmaların üstünlük təşkil etdiyi toplanışda baş məşqçi əvəzi Toğrul Əsgərov və böyük məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında Əsmər Cankurtaran, Elnurə Məmmədova (hər ikisi 50 kq), Nərgiz Səmədova (53 kq), Jalə Əliyeva (57 kq), Günay Qurbanova (59 kq), Ruzanna Məmmədova (62 kq), Birgül Soltanova (68 kq) və Zəhra Kərimzadə (72 kq) yer alıb.

Qeyd edək ki, hazırlıq prosesi fevralın 21-dək davam edəcək.

***Qabil YUSİFOĞLU***
***XQ***



## "Bakelektromaşın" ASC səhmdarlarının nəzərinə!

31 mart 2026-cı il saat 11:00-da "Bakelektromaşın" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** ASC-nin idarəetmə orqanlarının yeni tərkibinin seçilməsi

**2.** "Bakelektromaşın" ASC-nin 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə aid hesabatın dinlənilməsi və müzakirəsi

**3.** ASC-nin əmlakının bölünməsi ilə bağlı aparılmış hazırlıq işləri, ilkin qiymətləndirmələr və mümkün variantlar barədə məlumatın dinlənilməsi, məsələnin əlavə araşdırılması məqsədilə növbəti ümumi yığıncağın gündəliyinə çıxarılması barədə qərar layihəsinin müzakirəsi

**4.** Digər məsələlər.

**Əlaqə telefonu: 050-295-55-94.**

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** Bakı şəhəri, Xəzər rayonu, Qala qəsəbəsi, Qala stansiyası.

## Azərbaycan Turizm və Menecment Universiteti

*dekan vəzifəsini tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

**Sosial İdarəetmə fakültəsi üzrə**
**- 1 yer**

Elan qəzetdə dərc olunduğu gündən 1 ay müddətində sənədlər saat 10:00-dan 17:00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir. Sənədlər hr@atmu.edu.az e-mail ünvanı vasitəsilə elektron qaydada da qəbul edilir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:**

**1.** Rektorun adına ərizə

**2.** Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə)

**3.** Tərcümeyi-hal

**4.** Şəxsiyyət vəsiqəsinin surəti

**5.** Profilə uyğun olaraq ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin notariat qaydada təsdiqlənmiş surətləri

**6.** Elmi və elmi-metodiki işlərin siyahısı

**7.** Dekanın (namizədin) müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Müsabiqə elan olunan müəssisədə çalışan namizədlərdən isə yalnız aşağıdakı sənədlər tələb edilir:**

**1.** Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri

**2.** Elmi və elmi-metodiki işlərin siyahısı

**3.** Dekanın (namizədin) müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Telefon: 564-42-33 (daxili-115).**

**Ünvan: AZ1072, Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, otaq 103.**

**Qeyd:** *Namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.*

***Rektorluq***



## HAVA

### Buludlu və küləkli cümə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.**



Havanın temperaturu gecə 2-5, gündüz 10-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacağı gözlənilir.

Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparatın sabiq şöbə müdiri Tofik Xamedova atası

**RASUL XAMEDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə şəhəri 38, 39, 40 və 41 saylı dairə seçki komissiyalarının sədrləri Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımova babası

**VƏLİ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ETN Molekulyar Biologiya İnstitutunun direktoru, akademik İradə Hüseynova və institutun kollektivi biologiya elmləri doktoru, professor Əhəd Nəbiyevə həyat yoldaşı

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi iqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti Roza Əliyevaya oğlu

**RƏŞAD ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2864**
**SİFARİŞ 212**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**
**Çapa imzalanmışdır 00:00**